**Abdillayeva Şəfahət Yusif qızı**

# SİYASİ PSİXOLOGİYA

**dərslik**

**(bakalavr səviyyəsi üçün)**

**Azərbaycan Respublikasının Təhsil Nazirliyi**

**tərəfindən tısdiq edilmişdir (əmr No231, 26.02.2014)**

**Bakı 2024**

# Giriş

Siyasətdə psixoloji məqamlara qədim dövrlərdən diqqət yetirilsə də, siyasətin psixoloji tərəfini əks etdirən "siyasi psixologiya" ifadəsindən XX əsrin ortalarından geniş istifadə olunmağa başlandı. Bir elm kimi isə siyasi psixologiyanın tarixi 1968-ci ildə ABŞ Siyasi Elmlər Akademiyasında Siyasi Psixologiya şöbəsinin təsis olunması ilindən hesablanır. Belə az yaşı olmasına baxmayaraq siyasi psixologiya bu gün kifayət qədər populyardır. Siyasi psixologiya tətbiqi elmdir. Onun əldə etdiyi nəticələrdən seçki kompaniyalarında geniş istifadə edilir. Lakin siyasi psixologiya təkcə tətbiqi xarakterə malik olmayıb, eyni zamanda elmi-nəzəri xarakret də daşıyır. Siyasi psixologiya siyasi davranışın və siyasi şüurun qanunauyğunluqlarını fundamental şəkildə tədqiq edən elmdir. Siyasi psixologiyanın bir elm kimi yaranması zərurəti zamanın tələbindən irəli gəlmişdir. Sosiologiya, siyasi fəlsəfə, siyasi sosiologiya, politologiya, ümumi psixologiya və sosial psixologiyanın müasir inkişaf səviyyəsi onların kəsişmə nöqtəsində yeni bir elmin yaranmasını zəruri etmişdir. Siyasi psixologiyanın formalaşmasına sadalanan elmlərin təsiri böyük olsa da, o, əsasən iki elmin – politologiya və psixologiya, xüsusilə də sosial psixologiyanın əsasında yaranmış və bu gün də hələ formalaşmaqdadır.

2014-cü il

# I mövzu

# Siyasi psixologiya bir elm kimi
# Siyasi psixologiyanın predmeti və vəzifələri

**Qısa məzmun**. Siyasi psixologiya politologiya ilə sosial psixologiyanın kəsişməsindən yaranan bir elm kimi. Siyasi psixologiyanın əsas vəzifəsi: siyasətin psixoloji mexanizmlərini təhlil etmək və optimal təkliflər vermək. Siyasi psixologiyanın yaranması.

**Siyasi psixologiyanın psixoloji və politoloji kökləri.** Siyasətin psixologiyası - siyasətdə baş verən psixoloji momentlər və siyasətin psixoloji tərəfi kimi.

**Siyasi psixologiya -** vəzifəsi siyasətin psixoloji tərəfini öyrənməkdən ibarət olan xüsusi bir elm kimi.

**Siyasi psixologiyanın predmeti:** siyasət - xüsusi insan fəaliyyəti olan siyasət**.** A.N.Leontyevin "fəaliyyət nəzəriyyəsi". Siyasi psixologiyanın əsas vəzifələri: **a**nlama; nəticəni əvvəlcədəngörmə - proqnoz; modifikasiya. Siyasi psixologiyanın funksiyaları: analitik funksiya; proqnozlaşdırma funksiyası; nəzarət-idarəedici funksiya.

**1.1.** Siyasi psixologiya politologiya ilə sosial psixologiyanın kəsişməsindən yaranan elmdir. Onun əsas vəzifəsi siyasətin psixoloji mexanizmlərini təhlil etmək və optimal təkliflər verməkdən ibarətdir.

Siyasi psixologiyanın yaranması 1968-ci ildən, ABŞ Siyasi Elmlər Akademiyasında siyasi psixologiya şöbəsinin təsisi ilindən hesablanır.

Lakin buna baxmayaraq siyasi psixologiya ideyalarının, biliklərinin tarixi antik dövrlərdən başlanır və istər Qərbdə, istərsə də Şərqdə kifayət qədər nəzəri və empirik materiallar toplanmışdır.

Beləliklə, siyasi psixologiya həm yeni, həm də qədim elmdir. Aristoteldən günümüzə qədər gəlib çıxan və bu gün siyasətçiləri, psixoloqları, sosioloqları, alimləri düşündürən elmdir. C. Knutsa görə siyasi psixologiyanın predmetini insanın, sosial qrupların, xalqların siyasi davranışının komponentləri təşkil edir ki, onların tədqiqi siyasətin izahında psixoloji biliklərin tətbiqini mümkün edir.

Qərb ölkələrində siyasi psixologiya siyasətçinin praktik həyatına möhkəm daxil olmuşdur.

Siyasətin psixologiyası - siyasətdə baş verən psixoloji momentlərdir, siyasətin psixoloji tərəfidir.

Siyasi psixologiya xüsusi elm olub, vəzifəsi siyasətin psixoloji tərəfini öyrənməkdən ibarətdir.

Siyasi psixologiyanın kökləri bir tərəfdən psixologiya elminə, digər tərəfdən siyasi elmlərə aparıb çıxarır. Bundan başqa siyasi psixologiyanın kökləri həm də fəlsəfə və sosiologiyaya bağlıdır.

**1.2. Siyasi psixologiyanın psixoloji və politoloji kökləri.**

**Siyasi psixologiyanın psixoloji kökləri.** Siyasi psixologiyaya psixoloji kontekstdə yanaşdıqda onu, psixologiyanın bir sahəsi kimi qiymətləndirmək olar. Uzun bir müddət siyasi psixologiya sosial psixologiyanın tərkib hissəsi kimi nəzərdən keçirilirdi. Həm sosial psixologiya, həm də siyasi psixologiya kütlələrin öyrənilməsi zəminində yaranmışdır. Müəyyən vaxt sosial psixologiyanın vüsətli inkişafı səbəbindən siyasi psixologiya onun tərkibində (kölgəsində) qalsa da, bu gün sübut etməyə ehtiyac yoxdur ki, siyasi psixologiya öz obyekti və predmeti olan müstəqil bir elm kimi formalaşmışdır. Tarixən yeniyetmə psixologiyasının uşaq psixologiyasından ayrılıb müstəqil sahə kimi və ya hüquq psixologiyasının müstəqil tətbiqi elm kimi formalaşması da bu yolla olmuşdur.

Əlbəttə, siyasi psixologiyanı ümumi, sosial, individual psixologiyadan ayrı nəzərdən keçirmək mümkün detil, belə ki, siyasi psixologiya onların üzərində inkişaf etmişdir.

**Siyasi psixologiyanın politoloji kökləri.** Siyasi psixologiyanı politoloji aspektdən nəzərdən keçirəndə ona tarixi baxımdan yanaşmaq lazımdır.

Dünyada gedən siyasi proseslər mövcud elmlərlə yanaşı yeni elmlərin meydana gəlməsi üçün şərait yaratdı. Bunun nəticəsi kimi sosiologiya, siyasətin psixologiyası, siyasətin fəlsəfəsi kimi yeni elmlər yarandı. Lakin bu elmlər siyasətdə subyektiv faktorları izah edə bilmirdi. Daha yeni bir elmin yaranması zərurəti havadan asılı qalmışdı və buna uyğun olaraq yeni ifadə - "siyasətim psixologiyası" ifadəsi işlədilməyə başlandı. Və "siyasətin psixologiyası" sosial psixologiyanın bir tərkib hissəsi kimi inkişaf etməyə başladı.

D.V.Olşanskinin qeyd etdiyi kimi "siyasətin psixologiyası" bir növ analoji olaraq dinin psixologiyası,reklamın,modanın və s. psixologiyası kimi dar çərçivədə

işlədilirdi.Lakin vaxt keçdikcə "siyasətin psixologiyası" yeni istiqamətdə-politologiya çərçivəsində siyasi-psixoloji təhlil aparmaq istiqamətində inkişaf etməyə başladı. Beləliklə, politologiyanın strukturunda siyasətin psixoloji tərəflərini – subyektiv faktorları təhlil etmək artiq zəruri bir şərt kimi çıxış edirdi. D.V.Olşanskinin bənzətməsinə görə, politologiya hündür bir binadırsa,onun hər mərtəbəsi siyasətin bir aspektinə uyqun gəlir: "siyasətin sosiologiyası", "siyasətin fəlsəfəsi" və s. Və onun yuxarı mərtəbələrinin birində "siyasətin psixologiyası" yer almışdı. Beləliklə bu gün siyası kimi formalaşmış bir elm politologiya zəminində siyasətin psixologiyasını tədqiq edir. Yəni siyasi psixologiya siyasətin psixoloji tərəfini öyrənir.

Siyasi psixologiyanın spesifik xüsusiyyəti ondan ibarətdir ki, o, siyasəti öyrənir, lakin onda (siyasətdə) psixoloji komponentləri axtarır və əlbəttə ki, psixoloji metodlardan istifadə edir. Deməli, istifadə etdiyi əsas metodlara görə siyasi psixologiya psixoloji elmdir, lakin tədqiqat obyektinə görə siyasi elmdir.

**1.3. Siyasi psixologiyanın predmeti və vəzifələri.** Siyasi psixologiyanın predmeti siyasətdir - xüsusi insan fəaliyyəti olan siyasət. Bu elə siyasi fəaliyyətdir ki, özünün strukturu, subyekti və hərəkətverici qüvvələri vardır.

Siyasət, xüsusi fəaliyyət kimi A.N.Leontyevin fəaliyyətin ümumi konsepsiyası çərçivəsində təhlil oluna bilər. A.N.Leontyevin fəaliyyətin strukturunu əks etdirən sxemə nəzər salaq:

Fəaliyyət → subyekt → motiv
↓ ↓ ↓
Hərəkətlər → situasiya → məqsəd
↓ ↓ ↓
Əməliyyat → şərtlər → vəzifə

Bu sxemdən göründüyü kimi siyasət bir fəaliyyət kimi konkret hərəkətlərdən, onlar da öz növbəsində ayrı-ayrı əməliyyatlardan ibarətdir. Fəaliyyətə - motiv (insan davranışının idarə olunması); hərəkətlərə - konkret məqsədlər

(fərdlərin və ya qrupların maraqları); əməliyyatlara - vəzifələr uyğun gəlir.

Siyasi psixologiyanın predmetinin mərkəzi elementlərini siyasi fəaliyyətin subyekti təşkil edir. Siyasi fəaliyətin subyekti kimi ayrı-ayrı fərdlər (siyasətçilər), kiçik və böyük qruplar və idarə olunmayan kütlələr çıxış edir. Siyasi psixologiyanın predmetini siyasətin subyekti olan insanların siyasi davranışının daxili, birinci növbədə psixoloji mexanizmləri təşkil edir.

**1.4. Siyasi psixologiyanın əsas vəzifələri.** Siyasi psixologiyanın tarixi nəzəriyyəsi və praktikası onun əsas üç vəzifəsini müəyyən etməyə imkan verir. Siyasi psixologiyanın vəzifələri onun əsas funksiyaları ilə sıx bağlıdır.



Cədvəl 1.1 Siyasi psixologiyanın vəzifələri və funksiyaları



Cədvəl 1.2 Siyasi psixologiyanın vəzifə və funksiyalarının əlaqələri

Siyasi psixologiyanın vəzifələri aşağıdakılardır:

1.Anlama;

2.Nəticəni əvvəlcədən görmə - proqnoz;

3.Modifikasiya

Siyasi psixologiyamım funksiyaları aşağıdakılardır:

1.Analitik funksiya;

2.Proqnozlaşdırma funksiyası;

3. Nəzarət-idarəedici funksiya

Birinci vəzifəyə siyasətdə insan komponentini başa düşmək, siyasi proseslərdə insan faktorunun rolu, onların subyektiv tərəflərini anlamaq daxildir. Bu vəzifə analitik funksiya ilə bağlıdır.

İkinci vəzifə birincinin zəminində qurulur, yəni insan faktorunun ümumiyyətlə siyasətin bütün aspektlərində hansı rol oynayacağını əvvəlcədən görmək, xəbər verməkdən ibarətdir. Bu proqnozlaşdırma funksiyası ilə sıx bağlıdır. Belə ki, təkcə hadisələrin mahiyyətini başa düşmək kifayət deyildir, onun necə inkişaf edəcəyini proqnozlaşdırmaq zəruridir.

Üçüncü vəzifə əvvəlki ikisinin zəminində yaranır. O nəzarət - idarəedici funksiya ilə sıx bağlıdır. Hadisələri anlamaq, onları proqnozlaşdırmaq hələ kifayət deyildir, bundan başqa siyasi fəaliyyəti nəzarətdə saxlamaq, idarə etmək və hadisələri istədiyin istiqamətdə dəyişmək, modifikasiya etmək zərurəti yaranır.

Mövzuya aid suallar:

1. Siyasi psixologiyanın bir elm kimi səciyyəvi xüsusiyyətləri hansılardır?

2. Siyasi psixologiya nəyi öyrənir?

3. Siyasi psixologiyanın predmeti nədir?

4. Siyasi psixologiyanın hansı vəzifələri vardır?

5. Siyasi psixologiyanın hansı funksiyaları vardır?

Ədəbiyyat:

1. Гозман Л.Я., Шестопал Е.Б. Политическая психология. – Ростов-н/В.: Феникс, 1996. – с.3-4, 16-19

2. Леонтьев А.Н. Деятельность. Сознание. Личность. М., Политиздат, 1975, - с.102-107

3. Психология. Словарь /Под общ.ред. А.В.Петровского, М.Г.Ярошевского. – М.: Политиздат, 1990. – с.237, 281

4. Человек, политика, психология (Материалы круглого стола) // Вопросы философии, 1995, № 4, с.3-23

5. Шестопал Е.И. Политическая психология. ИНФРА-М, 2002, с.10-29, 51-55

6. Ольшанский Д.В. Политическая психология. СПб.:Питер, 2002, с.15-33

7. Handbook of Political Psycholoji //Ed.by Knutson J. – San-Francisco: Jossey-Bass, 1973 – 438

## II mövzu

**Qısa məzmun.** Siyasi psixologiyanin obyektlərinin əhatə etdiyi sahələr: daxili siyasi münasibətlərin siyasi psixologiyası; xarici siyasətin və beynəlxalq münasibətlərin siyasi psixologiyası; hərbi-siyasi psixologiya. **Daxili siyasi münasibətlərin siyasi psixologiyası** siyasi insanın şəxsiyyətini, onun siyasi sosiallaşma problemlərini və sosial yönəlişliyini öyrənir. Bundan başqa liderin siyasi proseslərdəki rolu, siyasi narazılıqlar, hökumətə qarşı çıxışlar, seçkilərdə müşahidə olunan davranışlar, irqi həyəcanlar və s. təhlil ounur.

**Xarici siyasətin və beynəlxalq münasibətlərin psixologiyası** lider şəxsiyyətinin siyasətdə rolunu, ictimai rəyin təbliğatı, situativ faktorları və onların yaratdıqları psixoloji faktorları, müxtəlif ölkələrin siyası elitasını tədqiq edir.

**Hərbi-siyasi psixologiya** çərçivəsində, adətən real və potensial düşmənlər, ordular, üsyançılar, terroristlərlə bağlı psixoloji məqamlar öyrənilir. **Siyasi psixologiyanin əsas problemləri:** 1. metodoloji problemlər; 2. kütləvi siyasi davranış formalarının psixoloji mexanizmlərinin problemləri; 3. kiçik qrupların psixoloji problemləri; 4. şəxsiyyətin siyasi proseslərin iştirakçısı kimi formalaşması problemləri.

**Siyasi psixologiyanın prinsipləri:** elmi obyektivlik prinsipi; aşkarlıq prinsipi; sosial psixoloji kontekstin nəzərə alınması prinsipi; yekun nəticəyə diqqət edilməsi prinsipi; neytrallıq prinsipi

**2.1. Siyasi psixologiyanın əhatə dairəsi** çox genişdir. Siyasətdə bütün "psixoloji aspekti" olan hadisələr və insan faktoru siyasi psixologiyanın obyektləri sırasına daxildir. Buraya liderliyin psixologiyasından tutmuş kütlə psixologiyasina, kiçik qrupda siyasi çəkişmələrdən partiyalararası siyasi intriqalara qədər hər bir şey aiddir. Siyasi psixologiyanın belə geniş əhatə dairəsinə baxmayaraq, onun konkret siyasi obyektləri üç əsas sahəni əhatə edir:

1). Daxili siyasi münasibətlərin siyasi psixologiyası;

2). Xarici siyasətin və beynəlxalq münasibətlərin siyasi psixologiyası;

3). Hərbi-siyasi psixologiya.

**Daxili siyasi münasibətlərin siyasi psixologiyası** siyasi insanın şəxsiyyətini, onun siyasi sosiallaşma problemlərini və sosial yönəlişliyini öyrənir. Bundan başqa liderin siyasi proseslərdəki rolu, siyasi narazılıqlar, hökumətə qarşı çıxışlar, seçkilərdə müşahidə olunan davranışlar, irqi həyəcanlar və s. təhlil olunur.

Siyasi insanın şəxsiyyətinin psixologiyası iki aspektdən araşdırılır. Birinciyə konkret olaraq hər hansı bir ölkənin siyasi və ya ictimai xadiminin psixoloji

xüsusiyyətlərinin öyrənilməsi daxildir. Yəni burada mərkəzi yeri liderin şəxsiyyəti tutur. Bu istiqamətin əsasını Z.Freyd qoymuşdur. O, ilk dəfə ABŞ-ın 28-ci prezidenti V.Vilsonun psixobioqrafik portretini yaratmışdır. Hal-hazırda bu sahədə təkcə psixoanalitik yanaşmadan deyil, həm də davranışın motivləri, qərarların qəbul edilməsi, siyasi təfəkkür tərzi, siyasi-psixoloji təsir mexanizmləri, liderin "cazibədarlığı" və s. yanaşmalardan istifadə edilir.

İkinci aspektdə siyasi proseslərin sıravi iştirakçısının və ya müəyyən sosial qrupun siravi bir üzvünün şəxsiyyəti araşdırılır. Burada bir sira problemlər həll olunur. Biribci növbədə bura "sıravi" insanın siyasətə hansı dərəcədə bağlandığı ayırd edilir: apatik, konform və ya siyasi aktivlik. Burada lider, tabe olan, icra edən, daha sonra, siyasi fəaliyyətdə iştirakın "keyfiyyəti" (yumşaqlıq, mövqenin soyuqluğu, yaradıcı yanaşma və s.) öyrənilir.

Sosial psixologiyada yönəlişliklər və stereotiplər siyasi davranışın aparıcı mexanizmləri kimi nəzərdən keçirilir və bu şəxsiyyətin siyasi situasiyanı qavramasının əsas elementi kimi qiymətləndirilir. Məlumdur ki, yönəlişliklər özündə koqnitiv oriyentasiyanı, emosional sahəni və müəyyən hərəkətlərə hazırlığı cəmləşdirir, yəni subyektin siyasi obyektlərə - partiyalara, hərəkatlara, siyasi xadimlərə və problemlərə akiv-hərəki mövqeyini formalaşdırır. Son dövrlərdə siyasi yönəlişliyin öyrənilməsində əsas fikir problemin sadəcə təsvirinə deyil, onun formalaşması mexanizmlərinin açılmasına, əvvəlcədən formalaşmanın hansı istiqamətdə gedəcəyini proqnozlaşdırmağa, istənilən istiqamətdə formalaşmağa nail olmaq üçün yol və vasitələrin seçilməsinə verilir.

**2.2. Xarici siyasətin və beynəlxalq münasibətlərin psixologiyası.** Siyasi psixologiya beynəlxalq münasibətlərdə nəzəriyyəsi və praktikasında məhdud da olsa, çox əhəmiyyətə malikdir. Bizim dövrdə lider şəxsiyyətinin siyasətdə rolunu, ictimai rəyin təbliğatı, situativ faktorları və onların yaratdıqları psixoloji faktorları nəzərə almamaq mümkün deyil. Onlar az və ya çox dərəcədə siyasi-psixoloji təhlilin obyektinə çevrilmişlər. Bu problemin mərkəzində müxtəlif ölkələrin siyası elitasının (beynəlxalq əhəmiyyət kəsb edən qərarlar qəbul edən şəxsiyyətlər və qrupların) öyrənilməsi durur. Bundan başqa elitaya təsiretmə gücünə malik olan

faktorlar kimi ictimaiyyət, böyük sosial və milli-etnik qruplar, bütövlükdə kütlələr də tədqiq olunur. Konfliktlər nəzəri və praktiki cəhətdən, xarici siyasətdə qərarların qəbul edilməsi müxanizmləri, ictimai rəyə təsiretmə prosesləri, danışıqların aparılması, ziddiyyətlərin nizamlanması və s. problemlər incəliklə tədqiq olunur. Belə tədqiqatlar tətbiqi xarakter daşıyır. Belə hüsab olunur ki, alınan nəticələr xarici siyasətdə insan faktorunun necə təzahür edəcəyini proqnozlaşdırmağa imkan verir. Beləliklə, bu istiqamətin predmetini beynəlxalq münasibətlərdə insan faktoru təşkil edir. Bu cür tədqiqat əsasən tətbiqi xarakter daşıyır. Çünki belə biliklər xarici siyasətdə insan faktorunun oynayacağı rolu proqnozlaşdırmağa imkan verir. Buna parlaq misal kimi C.Kennedi və N.Xruşovun Karib böhranını nizamlamaq mərhələsində Amerika psixoloqlarının hər iki ölkə liderinin davranışının çox uğurlu proqnozlaşdırmasını göstərmək olar. O zaman psixoloqlar çox faydalı məsləhətlər vermişdilər.

**2.3. Hərbi-siyasi psixologiya** çərçivəsində, adətən real və potensial düşmənlər, ordular, üsyançılar, terroristlərlə bağlı psixoloji məqamlar öyrənilir. Buraya liderin şəxsiyyəti, satqınlığın mexanizmi, xüsusi əməliyyatların təşkili, dindirilmənin taktika və texnikasının təkmilləşdirilməsi, psixoloji müharibələrin aparılması daxildir.

Siyasi psixologiyanın tədqiq etdiyi problemlər ayrılıqda nəzərdən keçiriləcəkdir. Burada onları sadalamaqla kifayətlənəcəyik.

Siyasi psixologiyanin əsas problemlərini dörd qrupa ayırmaq olar:

I qrupa metodoloji problemlər daxildir.

II qrupa kütləvi siyasi davranış formalarının psixoloji mexanizmləri problemləri daxildir.

III qrupa psixi proses və hadisələrin elementi kimi kiçik qrupların psixoloji problemləri daxildir.

IV qrupa şəxsiyyətin siyasi proseslərin iştirakçısı kimi formalaşması daxildir.

**2.4. Siyasi psixologiyanın prinsipləri:**

1. Elmi obyektivlik prinsipi;

2. Aşkarlıq prinsipi;

3. Sosial- psixoloji kontekstin nəzərə alınması prinsipi;

4. Yekun nəticəyə diqqət edilməsi prinsipi;

5. Neytrallıq prinsipi.

**Elmi obyektivlik prinsipi**: Siyasi psixologiyanin tədqiqat obyekti siyasi və psixoloji hadisələrin qovşağında olmalıdır. Problemin təkcə siyasi və ya psixoloji aspektdən öyrənilməsi nəinki nəzəri, hətta praktik cəhətdən təhlükəlidir.

**Aşkarlıq prinsipi**: Tədqiqatın mərkəzində cəmiyyətin diqqətini cəlb edən əhəmiyyətli və aktual problemlər durmalıdır və bu aşkar şəkildə edilməlidir ki, onlardan anti cəmiyyət məqsədilə istifadə edilməsin.

**Sosial psixoloji kontekstin nəzərə alınması prinsipi**: Yəni öyrənilən hadisədə siyasi və sosial kontekstə maksimal diqqətin ayrılması. Diqqət lazımı qədər olmadıqda alınan nəticələr şübhə doğurur və verilən təkliflər ictimai-siyasi təhlükəli nəticələrlə səbəblənə bilir. Əlbəttə ki, həddən artıq diqqət də təhlükəli ola bilər.

**Yekun nəticəyə diqqət edilməsi prinsipi**: Yəni təkcə siyasətə təsir göstərən psixoloji amillər deyil, həm də bu və ya da digər siyasi hadisə və prosesin formalaşması və onların inkişaf meyilləri də tədqiq olunmalıdır.

**Neytrallıq prinsipi**: Bu prinsip onu göstərir ki, siyasi psixologiya xarici və daxili siyasətdə müəyyən fikir söyləyirsə də, ideoloji planda neytral olmalıdır.




Cədvəl 2.1 Siyasi psixologiyanın əsas prinsipləri

Mövzuya aid suallar:

1. Siyasi psixologiyanın hansı obyektləri vardır?

2. Daxili siyasi münasibərlər nəyi öyrənir?

3. Xarici siyasi münasibətlər nəyi öyrənir?

4. Siyasi psixologiyanın hansı əsas problemləri vardır?

5. Siyasi psixologiyanın hansı prinsipləri vardır?

Ədəbiyyat:

1. Ольшанский Д.В. Политическая психология. СПб.:Питер, 2002, с.44-51

2. Ольшанский Д.В. Политико-психологический словарь. М.: Академ. Проект, 2002.с.56-74

3. Психология. Словарь /Под общ.ред. А.В.Петровского, М.Г.Ярошевского. – М.: Политиздат, 1990. – с.237, 281

4. Шестопал Е.И. Политическая психология. М., ИНФРА-М, 2002, с.55-72

5. Щепанский Я. Элементарная понятие социологии. М.,: Прогресс, 1969. - с.194-196

6.Katlin G. Systematik politics. –Toronto. The Free Press, 1962. –p.38

## III mövzu

## Siyasi psixologiyanin əsas anlayışları, kateqoriyaları və fenomenləri

**Qısa məzmun.** Siyasi psixologiyanın əsas anlayış, kateqoriya və fenomenləri: siyasi şüur; siyasi özünüdərk; siyasətdə kollektiv şüursuzluq; siyasi mədəniyyət; siyasətdə psixikanın üç bloku; siyasi yönəlişliklər və stereotiplər.

**Siyasi şüur** dedikdə subyekt tərəfindən özünün də iştirak etdiyi siyasi proseslərin qavranılması başa düşülür. Siyasi şüur siyasi mədəniyyətlə, siyasi davranışla və siyasi sistemlə sıx bağlıdır. Siyasi şüurun formaları: kütləvi şüur, qrup şüuru və fərdi siyasi şüur. Kütləvi siyasi şüur cəmiyyətin siyasi mədəniyyətinin səviyyəsini müəyyən edir. Qrupların siyasi şüurunun öyrənilməsi böyük və kiçik qrupların öyrənilməsini nəzərdə tutur. Böyük qruplara aiddir: sosial siniflər, stratlar, təbəqələr, milli-etnik qruplar və s. Kiçik qruplara aiddir: siyasi elita, hakim sinif, "hökumətin hərbi xuntası", hakim partiyanın siyasi bürosu, müxtəlif lobbilər, "təzyiq qrupları" və s. Fərdi siyasi şüur dedikdə siyasi həyatdan məqsədli hərəkət edən siyasəti qəbul edən və onu az və ya çox dərəcədə dəqiq qiymətləndirməyi bacaran konkret bir şəxsiyyətin xüsusiyyətləri və keyfiyyətləri başa düşülür.

**Siyasi özünüdərk** dedikdə sosial siyasi sistem daxilində və ondan kənarda siyasətin subyektləri və obyektləri ilə qarşılıqlı münasibətlərini və məqsədli davranışını quran subyektin özü haqqında nisbətən sabit təsəvvürlər sistemi yaradan proses nəzərdə tutulur. Siyasi özünüdərk özündə üç əsas kamponenti - koqnitiv, emosional və dəyərləndirici-iradi kamponentləri birləşdirir.

**3.1.** Başqa elmlər kimi siyasi psixologiya da öz quruluşuna malikdir. Bu quruluşa məntiqi və metodoloji anlayış və kateqoriyalar daxildir. Siyasi psixologiyanın əsas anlayış, kateqoriya və fenomenləri aşağıdakılardır:

1. Siyasi şüur;
2. Siyasi özünüdərk;
3. Siyasətdə kollektiv şüursuzluq;
4. Siyasi mədəniyyət;
5. Siyasətdə psixikanın üç bloku;
6. Siyasi yönəlişliklər və stereotiplər;
7. Siyasi davranı.

**Siyasi şüur** müasir siyasi psixologiyanın əsas kateqoriyalarındandır. Siyasi şüur dedikdə subyekt tərəfindən özünün də iştirak etdiyi siyasi proseslərin qavranılması başa düşülür.

**Siyasi şüurun məzmunu.** Əksər tədqiqatçılar siyasi şüuru çoxcəhətli, eyni cinsli olmayan "nəbz kimi vuran" daxilən ziddiyyətli, subyektin siyasət ilə tanışlığının və ona rasional münasibətinin ümumiləşmiş forması kimi nəzərdən keçirir.

Siyasi şüurun qnoseoloji izahı ondan ibarətdir ki, o, bütün başqa siyasi-psixoloji anlayış və kateqoriyalar ilə əlaqəlidir. Siyasi şüur siyasi mədəniyyətlə sıx bağlıdır. Siyasi mədəniyyətin tərkibində irsi siyasi şüur siyasi şüurun ən yüksək formasıdır. Siyasi şüur siyasi davranışla da sıx bağlıdır. Belə ki, o, davranışın rasional əsası kimi çıxış edir. Siyasi şüur həm də siyasi sistemlə bağlıdır. Bu bağlılıq özünü siyasi şüurun siyasi sistemin subyektiv fundamenti rolunda göstərir.

Siyasi şüur həm də başqa siyasi elmlər tərəfindən öyrənilir. Məsələn, siyasi fəlsəfə siyasi şüuru ictimai şüurun əsas kamponenti kimi nəzərdən keçirir. Siyasi sosiologiya isə siyasi şüuru sosial-siyasi gerçəklik aspektindən öyrənir və onda ideoloji kompanentləri müəyyənləşdirir.

**Siyasi şüur anlayışının və onun öyrənilməsi tarixi** kifayət qədər qədimdir. Siyasi şüur anlayışı XX əsrin ortalarında populyarlaşdı. Bunun səbəbi onda idi ki, biheviorist nəzəriyyələr öz məhdudluqları üzündən siyasi davranışı izah edə bilmirdilər. Qeyri-biheviorist yanaşmalar diqqətin davranışın subyektinin psixi sahəsinə, konkret olaraq siyasi şüura yönəlməsini zəruri hesab edirdilər.

Kütləvi, qrup halında və fərdi siyasi şüur - bunlar siyasi şüurun formalarıdır. Kütləvi siyasi şüur ümumilikdə cəmiyyətin və ya onun bir hissəsinini siyasi şüurunu ehtiva edir. Kütləvi siyasi şüur öz spesifik mexanizmləri olan və müəyyən muxtariyyətə malik olan alt sistem kimi nəzərdən keçirilir (ümumiyyətlə, özündə həm siyasi, həm də qeyri- siyasi komponentləri birləşdirən daha geniş kütləvi şüur sisteminin alt sistemi kimi).

Kütləvi şüur üç qrup faktorda təzahür edir:

1. İnsanların gözləmə səviyyəsi və özlərinin siyasi sistemə təsiretmə imkanlarının qiymətləndirilməsi;
2. Böyük cəmiyyətlərin (kütlələrin) sosial-siyasi dəyərləri, məsələn: ədalət, bərabərlik, demokratiya, stabillik və s.

3. Mövcud vəziyyətlə, hökumətlə, liderlərlə, konkret siyasi aksiyalarla bağlı tez-tez dəyişən fikirlər və əhval-ruhiyyələr.

Kütləvi siyasi şüur cəmiyyətin siyasi mədəniyyətinin səviyyəsini müəyyən edir. O, cəmiyyətin siyasi sisteminin tipik, kütləvi variantlarını şərtləndirir. Kütləvi siyasi şüuru öyrənməyin ən yaxşı üsulları - müşahidə və ictimai rəyin öyrəniləsində sosioloji və siyasi-psixoloji sorğuların aparılmasıdır.

Qrupların siyasi şüurunun öyrənilməsi böyük və kiçik qrupların öyrənilməsini nəzərdə tutur. Böyük qruplara aiddir: sosial siniflər, stratlar, təbəqələr, milli-etnik qruplar və s. Kiçik qruplara aiddir: siyasi elita, hakim sinif, "hökumətin hərbi xuntası", hakim partiyanın siyasi bürosu, müxtəlif lobbilər, "təzyiq qrupları" və s. Qrupların siyasi şüurlarının öyrənilməsində əsas diqqəti qrup nümayəndələrinin siyasi və ideoloji mövqelərinə yönəltmək lazımdır.

Fərdi siyasi şüur dedikdə siyasi həyatda məqsədli hərəkət edən, siyasəti qəbul edən və onu az və ya çox dərəcədə dəqiq qiymətləndirməyi bacaran konkret bir şəxsiyyətin xüsusiyyətləri və keyfiyyətləri başa düşülür. Bu zaman əsas maraq doğuran siyasətdə olan insanın şüurunun və davranışının subyektiv-psixoloji xüsusiyyətləri, tipik xarakteristikası, struktur kamponentləridir. Burada fərdi siyasi şüurun formalaşması prosesinin öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir. Buraya şəxsiyyətin sosiallaşması, fərd tərəfindən kütləvi və ya qruplarda üstünlük təşkil edən siyasi şüurun mənimsənilməsi üsullarının öyrənilməsi vəzifə kimi meydana çıxır. Fərdi siyasi şüurun tədqiqi üçün istifadə olunan ən geniş yayılmış üsul şəxsiyyətin hərtərəfli, təfərrüatlı psixoloji tədqiq edilməsi və şəxsiyyətin ümumiləşdirilmiş siyasi tipinin müəyyən edilməsidir.

**3.2. Siyasi özünüdərk** dedikdə sosial siyasi sistem daxilində və ondan kənarda siyasətin subyektləri və obyektləri ilə qarşılıqlı münasibətlərini və məqsədli davranşını quran subyektin özü haqqında nisbətən sabit təsəvvürlər sistemi yaradan proses nəzərdə tutulur. Bu, siyasətdə insanın özünü müstəqil subyekt kimi - hərəkətlərini, rolunu, məqsədlərini, maraqlarını, ideallarını, motivlərini və ümumiyyətlə davranışını qiymətləndirməsidir.

Siyasi özünüdərkin subyekti ayrıca insan da ola bilər. O özünü qavrayan, düşünən, şüurlu şəkildə hərəkət edən şəxsiyyət kimi hiss edəndə, bu zaman fərdi siyasi özünüdərkdən danışırlar, ancaq sosial-siyasi qrup da belə subyekt kimi çıxış edə bilər. Qeyd etmək lazımdır ki, qrupun ölçüsünün praktik əhəmiyyəti yoxdur. Siyasi özünüdərketmənin subyekti kimi həm kiçik, həm də böyük qruplar çıxış edə bilirlər. Reallıqda siyasi özünüdərketmə kiçik qruplarda klanların, çox da böyük olmayan parlament fraksiyalarının, hər hansı bir lobbinin və ya hakimiyyətə iddialı bir qrupun timsalında təzahür edir. Böyük qruparda isə bu, sosial təbəqə və ya siniflərin, millətlərin və ya xalqların timsalında təzahür edir.

Siyasi özünüdərk özündə üç əsas komponenti birləşdirir. Bunlar koqnitiv, emosional və dəyərləndirici-iradi kamponentlərdir.

Dar mənada koqnitiv komponent insanın siyasətdə özü haqqında və öz yeri haqqında dərk olunmuş rasional bilikləri bildirir. Geniş mənada koqnitiv komponent dedikdə insanı əhatə edən sosial-psixoloji mühitdə onun rolu, imkanları və qabiliyyətlərini təhlil etmək üçün lazım olan müəyyən informasiyanın olması başa düşülür. Şəxsiyyətin siyasi özünüdərki siyasi sosiallaşma prosesində formalaşır: sosial-psixoloji bilikləri mənimsədikcə fərd özünün siyasi həyata təsir edə bilmək imkanlarını araşdırır və konkret olaraq özünün səsvermə və bununla bağlı hüquqlarını başa düşür. Beləliklə, o şəxsiyyətə - “siyasi vətəndaşa” çevrilir. Deməli, siyasi şüurun koqnitiv aspekti iki böyük inkişaf mərhələsindən keçir: 1). Siyasi vətəndaş kimi özünün səs vermə və bununla bağlı başqa hüquqlarını dərk edənə qədər olan mərhələ və 2). Dərk etdikdən sonrakı mərhələ.

Siyasi özünüdərkin emosional komponenti, adətən, subyektin öz siyasi statusuna bəslədiyi emosional münasibətdə üzə çixir. Subyekt bu münasibətdən razı və narazı ola bilər. Siyasi status subyekt tərəfindən yuxarı və aşağı, əlverişli və əlverişsiz və s. kimi qavranıla bilər. Emosional aspekt siyasi özünəhörmət (adətən, bu siyasi sistemdə üstünlük təşkil edən hakim qüvvələrə xasdır) və ya əksinə özünü siyasi alçaldılmış hissi ilə (adətən, bu özünün sıxışdırılmış vəziyyəti ilə barışan fərd, qrup və ya sosial təbəqələrdə müşahidə olunur) bağlı olur. Bundan başqa emosional komponentə misal kimi siyasi özünüsevmək və özünə vurğunluğu göstərmək olar.

Bu şəxsi hakimiyyətə can atan siyasətçinin fərdi ambisiyalarında parlaq və kəskin şəkildə təcəssüm olunur.

Dəyərləndirici-iradi komponent emosional komponentlə sıx bağlı olub, siyasi özünü qiymətləndirməni yüksəltmək istəyində, siyasi hörmət qazanmaq, təsir gücünə malik olmaq, avtoritetini möhkımlətmək, son nəticə olaraq siyasi hakimiyyəti ələ almaq və ya öz siyasi hakimiyyətini artırmaqda təzahür edir. Bu müxtəlif formalarda baş verə bilər,məsələn, bir fərdin siyasi şüurunda – hər hansı bir namizədi seçkilərdə dəstəkləmək üçün aparılan mübarizə kimi; və qrup səviyyəsində - hər hansı bir lobbinin öz nümayəndələrini müdafiə etməsi kimi. Sosial makro səviyyədə bu, kütləvi cəhdlərdə, məsələn, əzilmiş sosial təbəqələrin inqilabi cəhdlərində özünü göstərir.

Mövzuya aid suallar:

1. Siyasi şüur nədir?
2. Siyasi şüurun hansı formaları vardır?
3. Kütləvi şüur nədə təzahür edir?
4. Siyasi özünüdərk nədir?
5. Siyasi özünüdərk özündə hansı komponenetləri birləşdirir?

Ədəbiyyat:

1. Галкин А.А.Становление полттической науки: от философии политики к политическому моделированию. М., 1991, с.8-12

2. Ольшанский Д.В. Социальная психологтя «винтиков» // Вопросы философии, 1989, N8, с.91-103

3. Ольшанский Д.В. Политическая психология. СПб.:Питер, 2002, с.57-72

4.Ольшанский Д.В. Политико-психологический словарь. М.: Академ. Проект, 2002.

5. Психология. Словарь /Под общ.ред. А.В.Петровского, М.Г.Ярошевского. – М.: Политиздат, 1990. – с.»81-282

6. Хвостов А.А. Психологические и логические основы политического мышления. М.: 1996. –с.18-20
7. Шестопал Е.И. Политическая психология. ИНФРА-М, 2002, с.51-72
8.Himmelweit H. et al. How voters decide? - L.:Akademic Press, 1981

**IVmövzu**

**Siyasətdə kollektiv şüursuzluq**

**Qısa məzmun.** Kollektiv şüursuzluq siyasi davranış subyektinin şüurunda təmsil olunmayan (kifayət qədər təmsil olunmayan), ancaq insan davranışına aktiv və bəzən müəyyənedici təsir edən psixi proses kimi. **K.Q.Yunqun kollektiv şüursuzluq haqqında təlimi.** Şüursuzluğun mahiyyəti: qeyri-şüuri sahəni təşkil edən daxili olan və vasitəsiz qəbul olunan komponentlət - mahiyyətcə özü-özlüyündə mövcud olan, hər yerdə olan, identik olan, dəyişməz keyfiyyətlərə malik olan *psixe perse.*

**Kollektiv şüursuzluğun srukturu:** kollektiv emosiyalar, hisslər, əhvallar, biliklər, dəyərlər və mühakimələr. Emosional şüursuz komponentlərin rasional elementlərdən fərqi. Kollektiv şüursuzluq və kütləvi davranış. Kütləvi davranışda kollektiv şüursuzluğun təzahürü: kütlədə emosional yoluxma, güclü emosiyalarin və emosional halətlərin insanları birləşdirici və ayirici təsiri.

**Kollektiv şüurun fərdi şüura təsiri:** fərdin şüurun irrasional xarakterli olması, intellektin kəskin aşağı düşməsi. **Kolektiv şüursuzluq və kütləvi davranış:** güclü emosiyalar, emosional halətlər insanları birləşdirir və ya əksinə, ayırır. Kollektiv şüurun fərdi şüura təsiri.

**4.1.** Siyasi psixologiyada siyasi şüur və siyasi özünüdərketmədən başqa kollektiv şüursuzluq da əsas yerlərdən birini tutur. İsveç psixoloqu K.Q,Yunqun elmə gətirdiyi "kollektiv şüursuzluq" terminindən başqa XIX əsrin sonunda fransız sosioloqu E.Dyurkheym "kollektiv təsəvvürlər" terminini elmə gətirmişdir. Kollektiv təsəvvürlər dedikdə eyni sosial qruplar və cəmiyyət üzvlərinin təcrübəsində toplanmış dəyərlər, biliklər, fikirlər və davranış normalarının məcmusu nəzərdə tutulur.

Rus psixiatrı V.M. Bexterev isə "kollektiv refleksologiya" terminini elmə gətirmişdir. O, göstərmişdir ki, kollektiv təsəvvürlər insanların fərdi şüurunu sıxışdırır və stereotip reaksiyalar doğurur. V.M.Bexterev bunu kollektiv refleksologiya adlandırmışdır.

Şüursuzluğun kollektiv forması belə müxtəlif adlandırılsa da, K.Q.Yunqun psixoanalitik təliminində irəli sürdüyü "kollektiv şüursuzluq" ideyasi yeni, dolğun və ətraflı şərh olunduğu üçün elmdə geniş yayıldı.

Kollektiv şüursuzluq siyasi davranış subyektinin şüurunda təmsil olunmayan (kifayət qədər təmsil olunmayan), ancaq insan davranışına aktiv və

bəzən müəyyənedici təsir edən psixi proseslərdir. Kollektiv şüursuzluq idarəolunmaz kütləvi formalarda təzahür edir.

Beləliklə, “kollektiv şüursuzluq” terminini XX əsrin əvvəllərində psixonaliz təliminin yaradıcısı olan Z. Freydin tələbəsi olmuş K.Q. Yunq elmə gətirmişdir. Yunqa görə şəxsi (fərdi) şüurşuzluqdan fərqli olaraq kollektiv şüursuzluq bəşəriyyətin filogenetik təcrübəsini əks etdirir. Kollektiv şüursuzluqda K.Yunq arxetipləri ayird edirdi və göstərirdi ki, arxetiplər ümümi xarakterə malik olub davranışın aprior sxemlərini bildirir. Məhz arxetiplər insanların davranışında ümumi, kollektiv olanı təyin edir (məs. etnosda).

Məlum olduğu kimi insan psixikasının təkcə şüurdan yox, həm də şüursuzluqdan ibarət olduğu empirik surətdə təsbit olunduqdan sonra (*Freyd),* eqo-nun şəxsiyyətin strukturundakı hakim mövqeyi laxladı. Aydın oldu ki, eqo şüurun mərkəzini təşkil etsə də, şəxsiyyətin mərkəzini təşkil etmir. Z.Freydin psixoanaliz təlimi sırf buna həsr edilmişdir. Bu haqda sonrakı mövzularda ayrıca bəhs edəcəyik. İndi isə siyasi psixologiyada kollektiv şüursuzluğun rolunu başa düşmək üçün K.Yunqun elmə gətirdiyi kollektiv şüursuzluq problemini bu çərçivədə ətraflı şərh edək.

Beləliklə, Yunqa görə şüursuzluq nədir?

Həyatda bizə məlum olan və məlum olmayan şeylər vardır. Məlum olmayanlar iki yerə ayrılır: 1). bizdən kənarda olanlar və hiss üzvləri ilə qəbul olunmayanlar və 2). daxildə olanlar və bilavasitə (vasitəsiz) qəbul olunanlar. Ikinci qrupa daxil olanlar qeyri-şüuri sahəni təşkil edir və *şüursuzluq* adlanır.

Birinci qrupa şəxsiyyətin individual komponenetləri daxildir və onlar şüurda təmsil oluna bilirlər. İkinci qrupa daxil olanlar mahiyyətcə özü-özlüyündə mövcud olan, hər yerdə olan, identik olan, dəyişməz keyfiyyətlərə malik olan *psixe perse-dir*.

Yunqa görə fərdlərdə psixi proseslərin ümumi cəhətlərinin olması, oxşarlığı ümumi qanunlara tabe olan ümumi, şəxssiz prinsiplərin də mövcudluğu haqda fikir irəli sürməyə imkan verir. Yunq yazır: “Əgər insanların bütün unikallığı şəraitində onların hansısa ümumi xassələri, cəhətləri (psixi proseslər) varsa, deməli, onları

birləşdirən daha dərin qatlar mövcuddur.” Bu dərin qatlar şüurda təmsil olunmasalar da, ümumilikdə psixikada (şəxsiyyətdə) təmsil olunurlar. Yunq bunları arxitiplər adlandırır (anima, animus, özül, mandala, siziqiya, kölgə). Arxitiplər insanın şüursuz halında (yuxuda, öncəgörmədə, ekstazda və s.) aktivləşirlər (təcəssüm olunurlar).

**4.2. Kollektiv şüursuzluğun strukturunda** kollektiv emosiyalar, hisslər, əhvallar, mövqelər, biliklər, dəyərlər və mühakimələr ayırd edilir. Emosional komponentlər dominantlıq təşkil edir. Emosional şüursuz komponentlərdən fərqli olaraq rasional elementlər tabeçi rolunda çıxış edirlər. Kollektiv şüursuzluqda mövcud olan rasional elementlər mühakimə yürütməyə xidmət etməyib əvvəlki (əvvəlki ümumi təcrübənin) dərk olunmaz təcrübənin məhsulu kimi çıxış edir. Məsələn, bu, dini və ideoloji kanon və doqmalarda, inamlarda, möhkəm streotiplərdə, ənənəvi görüş və təsəvvürlərdə, vərdiş şəklində olan davranış normalarında müşahidə olunur.

Kütləvi davranışda kollektiv şüursuzluq özünü iki növdə göstərir. Birinci növə kollektiv şüursuzluq əsasında fərdləri eynicinsli kütlədə birləşdirən eyni tipli dəyərlər və hərəkətlər aiddir. Bu o vaxt baş verir ki, sayca çox adamlar oxşar emosional halətlərə və kütləvi əhval- ruhiyyəyə yoluxurlar. Buna misal olaraq öz liderini görəndə ekstaz yaşayan, vəcdə gələn, onun ünvanına salamlar, şüarlar və s. söyləyən fanat kütlələri göstərmək olar.

Kollektiv şüursuzluqda əhəmiyyətli rol oynayan kütlə davranışının ikinci növü elə situasiya ilə bağlıdır ki, bu zaman güclü emosiyalar insanları birləşdirmir, əksinə onları bir birindən ayırır. Bu zaman ümumi deyil, müxtəlif, lakin müəyyən sayda insanlar üçün eyni olan davranış mexanizmləri hərəkətə gəlir. Çox sayda insanların qəfildən baş verən kritik, fövqəladə situasiyalara spontan eynicinsli reaksiyaları, davranışları müşahidə olunur. Buna misal təbii fəlakətləri, müharibələri, inqilabları göstərmək olar. Gözlənilməzlik, yenilik, proqnozlaşdırıla bilməmək - belə situasiyaların səciyyəvi xüsusiyyətləridir. Bu situasiyalarda insanın fərdi təcrübəsi şəraiti adekvat qiymətləndirmək üçün kifayət etmir və o, kollektiv şüursuzluğun diktəsilə hərəkət edir. Yəni onun hərəkətləri davranışın kütləvi bioloji

və ya sosioloji təcrübəsinə əsaslanır. Buna misal bütün idarəolunmaz (stixiyalı) davranışları, birinci növbədə kütləvi panikanı göstərmək olar.

**4.3. Kollektiv şüursuzluğun fərdi şüura təsiri.** Sözün əsl mənasında kollektiv şüursuzluq fərdi şüura sıxışdırıcı təsir göstərir. Kollektiv şüursuzluğun təsirinə məruz qalan insanların bütün hərəkətləri qaçılmaz şəkildə irrasional xarakterli olur. Fərdin rasional şüuru kollektiv şüursuzluğun sıxışdırıcı təsirindən, adətən, sönür. İnsanın intellekti kəskin şəkildə aşağı düşür (sıfıra bərabər olur). Öz hərəkətlərinə tənqidi münasibət kəskin şəkildə azalır. Hərəkətləri üçün hər hansı bir məsuliyyət hissi sürətlə yoxa çıxır. Bir anın içində qərar qəbuletmə mexanizmi yoxa çıxır. Kollektiv şüursuzluq şəxsiyyəti siravilәşdirir. Beləliklə, kütlə həmişə ən ağlasığmaz hərəkətlərində belə "siravi", "sadə" adamın tərəfində durur, çünki kütlə özü elə belə adamlardan ibarətdir. Kütləyə düşən ağıllı insan öz iradəsindən asılı olmayaraq bir anın içində siraviləşir.

Kollektiv şüursuzluq birləşdirmə xüsusiyyətinə malik olanda davranışı təşkil etmək imkanı ilə çixiş edir. Müasir praktikada bundan insan kütlələrinə manipulyasiya xarakterli təsir göstərmək üçün istifadə ounur. Məsələn, siyasi nümayişlər və mitinqlər zamanı bundan geniş istifadə ounur.

Əksinə, kollektiv şüursuzluq davranışın sosial-təşkilati formalarını dağıdanda, yəni rasional siyasətə qarşı duranda son dərəcə təhlükəli olur. D.Rid çox düzgün olaraq qeyd edir ki: "Zəif hökumət ilə üsyankar xalq arasında elə an gəlib çatır ki, hökumətin hər bir hərəkəti kütlələri daha da ümidsiz edir, onları qızışdırır, hökumətdən gələn hər bir etiraz cavabı onun ünvanına nifrəti artırır." Belə hallarda rasionallıq yoxa çıxır, sosial-siyasi destruksiyaya gətirib çıxaran xaotik psevdo-siyasi davranış üzə çıxır.

Mövzuya aid suallar:

1. Kollektiv şüursuzluq nədir?
2. Kollektiv şüursuzluq fərdi şüura necə təsir göstərir?
3. Kollektiv şüursuzluğun struktur komponentləri hansılardır?
4. Kütləvi davranışda kollektiv şüur özünü necə göstərir?

Ədəbiyyat:


1. Алиева М. Отношение к жизни и смерти в различных мировоззренческих системах. // Государственное управление: теория и опыт» //, №2 (6), 2004, с.69-84
2. Ахундова Э. Психологическая агрессия: Мифы или реальность. // Возрождение – XXI век//, №9, 2000, с.58 -64
3. Гаджиев К.С. Политическая философия. М., 1999

4. Ольшанский Д.В. Политическая психология. СПб.:Питер, 2002, с.72-76

5. Ольшанский Д.В. Массовые настроения в политике. М., Прин-Ду.2007, с.26

6. Психология. Словарь /Под общ.ред. А.В.Петровского, М.Г.Ярошевского. М.: Политиздат, 1990, с.38, 473

7. Шестопал Е.И. Политическая психология. ИНФРА-М, 2002, с.29-35

8. Рид. Десять дней, которые потрясли мир. М., 1923, с.56

9. Юнг К.Г. Либидо, его метаморфозы и символы. Восточно-Европейский Институт психоанализа. Санкт-Петербург, 1994

10. Юнг К.Г. Психологические типы. “Университетская книга”, Изд-во АСТ, Москва, 1998


## V mövzu

## Siyasi mədəniyyət

**Qısa məzmun. Siyasi mədəniyyət anlayışının məzmunu. Siyasi mədəniyyət tarixi. Siyasi mədəniyyətə müxtəlif yanaşmalar.** Siyasi mədəniyyət anlayışının dörd əsas qrupu: həmcins psixoloji anlayışlar; ümumiləşdirilmiş anlayışlar; obyektiv və ya obyektivlik bildirən anlayışlar; evristik anlayışlar.

**Siyasi mədəniyyətin baza strukturunun** üç əsas səviyyəsi: idraki oriyentasiya; emosional oriyentasiya; dəyərləndirici oriyentasiya.

**Siyasi mədəniyyətin əsas subyektləri:** fərd, qrup, partiya, region, ölkənin əhalisi və s. Siyasi mədəniyyətin obyektləri: siyasi sistem, hazırki siyasi proses, hakim siyasi rejim, ayrı-ayrı siyasi partiyalar və təşkilatlar, siyasi qruplar və siyasət yanındakı maraq qrupları, siyasi liderlər, siyasi dəyərlər və subyektin özü.

**Siyasi mədəniyyətin səciyyəvi xüsusiyyətləri:** homogenlik və ya heterogenlik və dinamiklik və ya inertlilik. Siyasi mədəniyyətin formalaşması, ötürülməsi və yeniləşməsi mexanizmləri.

**Siyasi mədəniyyətin əsas tipləri:** patriarxal tip; rəiyyət tipi; aktiv tip.

**5.1.** Hər bir elm öz köklərini tədqiq etmək üçün sərhədlərindən çıxır və başqa elmlərdə öz əsaslarını tapmağa çalışır. Siyasi psixologiya da siyasət fenomenini tədqiq edərkən siyasətdən kənara çıxır və üzünü ümumiyyətlə mədəniyyətə tutur. Rus politoloqu Y.B. Şestopalın fikrincə, baxmayaraq ki, siyasətin mədəni əsasları – onun siyasi substratı - artıq siyasətin özü deyildir, siyasi psixologiya öz əsas kateqoriyalarından biri olan siyasi mədəniyyəit mədəniyyət və siyasətin qovşağında yaranan fenomen kimi tədqiq edir. Siyasi mədəniyyət siyasi fəaliyyətin inkişaf səviyyəsini təyin edən və siyasi fəaliyyətin əsasını təşkil edən fenomendir.

Siyasi psixologiya siyasi mədəniyyəti, hər şeydən əvvəl, ayrıca götürülmüş bir insanın fərdi siyasi davranışı və siyasi şüuru ilə onun kütləvi siyasi davranışı və şüuru ilə əlaqəsi kontekstində nəzərdən keçirir.

**Siyasi mədəniyyət anlayışının məzmununa** siyasi davranışa təsir edən tarixi təcrübə, cəmiyyətlərin və ayrı-ayrı siyasi fərdlərin sosial yaddaşı və adətləri aiddir. Belə hesab edilir ki, məhz bu təcrübə, yəni onun psixoloji yaşantısı insanın və bütöv bir nəslin daxili və xarici siyasətə ümumi münasibətini təyin sdir. Siyasi

mədəniyyətin dəyəri, əhəmiyyəti ondadır ki, müxtəlif sosial-siyasi birliklərin və fərdlərin siyasi davranışının dərin psixoloji səbəblərini müəyyən etməyə imkan verir.

Siyasi mədəniyyət konsepsiyasının inkişafı sosial ziddiyyətlərin qarşısının alınması və stabil və konfliktsiz cəmiyyətin inkişafını təmin etmək istiqamətində aparılan tədqiqatlarla bağlıdır.Lakin siyasi sistemlərin tədqiqi istənilən nəticəni vermirdi və tədqiqatçılar siyasi davranışın sosioloji və psixoloji aspektlərinə fikir verməyə çalışırdılar. Bu istiqamətdə ilk tədqiqat aparan alimlərdən biri amerikalı Ç.Merriamdır. O, 1928-1938-ci illərdə ilk dəfə "Vətəndaşların formalaşması" adı altında müxtəlif ölkələrdə siyasi mədəniyyət və sosiallaşma prosesini müqayisəli şəkildə tədqiq etdi. Daha sonra keçən əsrin 50-60-cı illərində üçüncü dünya ölkələrində dekolonializasiya və demokratik əhval-ruhiyyənin artması ilə əlaqədar olaraq siyasi mədəniyyətə maraq artdı. Və nəhayət 80-ci illərdə Şərqi Avropada, o cümiədən Sovet İttifaqında baş verən demokratikləşmə prosesləri bu problemə diqqəti bir daha gücləndirdi. Əsasən Qərb ölkələrindən kopiyalanmış reformalar istənilən nəticəni vermirdi: eyni siyasi institutlar müxtəlif mədəniyyətli ölkələrdə müxtəlif nəticəni verirdi. Bu gün də inkişaf etmiş sənaye ölkələrində demokratiyanın və vətəndaş mədəniyyətinin yeni izahını tələb edən yeni siyasət formaları meydana gəlməkdədir. Bununla bağlı tədqiqat işləri hakimiyyət kontekstində mədəniyyət probleminə və siyasi dəyişikliklərdə mədəniyyətin roluna həsr olunurlar.

**5.2. Siyasi mədəniyyət anlayışının tarixi** konkret olaraq 1956-cı ildən hesablanır. Həmin ildə amerika politoloqu Q. Almond siyasi mədəniyyət anlayışını işlətmişdir. Onun anlamında siyasi mədəniyyət insanları siyasi hərəkətlərə yönəldən, bu və ya digər siyasi sistemin spesifikliyini əks etdirən xüsusi növ orientasiyadır. Bir tərəfdən siyasi mədəniyyət cəmiyyətin ümumi mədəniyyətinin bir hissəsidir, digər tərəfdən isə o, cəmiyyətdə hakim olan siyasi sistemlə bağlıdır.

Siyasi mədəniyyətə həsr olunmuş konseptual tədqiqatlar amerika politoloqları C.Verba, L.Pay, Q.Almond, R.Taker, C.Lipset və c.-yə aiddir. Onlarin fikrincə siyasi mədəniyyət elə mədəniyyət sistemidir ki, elə ruh, elə fondur ki, onun daxilində siyasi sistem fəaliyyət göstərir, siyasi hadisələr baş verir. "Siyasi mədəniyyət siyasi institutları nizamlayan və fərdi hərəkətlərə sosial məna verən

siyasi qərarların subyektiv tərəfidir.” (Almond Q., Verba S.). Politoloji təhlildə sosial və psixoloji “alətlərdən” istifadə edən tədqiqatçıların gəldiyi qənaət belədir ki, demokratik siyasi institutlar millətin siyasi mədəniyyətinə uyğun olmalıdır.

Qeyd etdiyimiz kimi, Q.Almond siyasi mədəniyyəti insanları siyasi hərəkətlərə yönəldən, bu və ya digər siyasi sistemin spesifikliyini əks etdirən xüsusi növ orientasiya kimi xarakterizə edir. L.Verbaya görə “cəmiyyətin siyasi mədəniyyəti dedikdə elə siyasi sistem başa düşülür ki, bu sistem onun üzvlərinin biliklərində, hiss və dəyərlərində öz əksini tapmışdır.” L.Pay siyasi mədəniyyəti siyasətin psixoloji ölçülməsidir ki, öz əksini ümumiləşdirilmiş ifadələrdə tapır.

Siyasi mədəniyyət anlayışının verdiyi mənaları dörd əsas qrupa bölmək olar:

1. Həmcins psixoloji anlayışlar kimi. Belə siyasi mədəniyyət hər şeydən əvvəl subyektin müxtəlif siyasi obyektlərə olan baza meyillərinin məcmusudur.
2. Ümumiləşdirilmiş anlayışlar kimi. Bu zaman siyasi mədəniyyət psixoloji faktorların birləşməsi, “kokteyli” kimi başa düşülür. Bu zaman siyasi mədəniyyət eyni vaxtda həm yönəlişlik, həm də davranış aktı kimi baxıla bilir.
3. Obyektiv və ya obyektivlik bildirən anlayışlar kimi. Siyasi mədəniyyət hər şeydən əvvəl hazırkı sistemdə davranışları müəyyən edən hakimiyyət institutu və strukturlarını ( obyektləri ) bildirir.
4. Evristik anlayışlar kimi. Bu zaman siyasi mədəniyyət alimlərin analitik məqsədlərlə yaratdığı hipotetik konstruktlar kimi nəzərdən keçirilir.

**5.3. Siyasi mədəniyyətin baza strukturu** ierarxiya münasibətində olan üç əsas səviyyədən ibarətdir:

1. İdraki oriyentasiya – buraya siyasi sistemdə qəbul olunmuş rollar, rolların icraçıları haqqında biliklər daxildir.
2. Emosional oriyentasiya – burada subyektin siyasi sistemə, onun funksiyalarına, iştirakçılarına və onun fəaliyyətinə bəslədiyi hisslər əks olunur.
3. Dəyərləndirici oriyentasiya – bu, siyasi sistemə və onun ayrı-ayrı komponentlərinə subyektin şəxsi münasibətini ifadə edir.

Siyasi mədəniyyətin baza strukturu

| | | |
|---|---|---|
| İdraki oriyentasiya | Emosional oriyentasiya | Dəyərləndirici oriyentasiya |

Cədvəl 5.1. Siyasi mədəniyyətin baza strukturu

Qeyd edək ki, Q.Almodt və S.Verb siyasi mədəniyyəti dörd komponentli struktur kimi nəzərdən keçirirlər – subyekt - yönəlişlik - fəaliyyət – obyekt.

**5.4. Siyasi mədəniyyətin əsas subyektləri və obyektləri** əsasən öz formatına görə seçilirlər. Q.Almond və S.Verbanın irəli sürdüyü və politoloqların istifadə etdikləri siyasi mədəniyyət elementlərinin sxeminə nəzər salaq:

subyekt→yönəlişlik→davranış(hərəkətlər) →obyekt

Ümumi qəbul olunmuş fikrə görə, siyasi mədəniyyətin subyekti fərd, qrup, partiya, region, ölkənin əhalisi və s. ola bilər. Siyasi mədəniyyətin hər bir subyekti öz xüsusiyyətinə malikdir. Lakin, onlar ümumi əlamətlərə də malikdirlər, çünki, eyni sistemə məxsus olub eyni obyektlərə qarşı eyni yönəlişliyə malikdirlər. Siyasi mədəniyyətin obyektləri içərisində, adətən, bütövlükdə siyasi sistem, eləcə də hazırkı siyasi proses, hakim siyasi rejim, ayrı-ayrı siyasi partiyalar və təşkilatlar, siyasi qruplar və siyasət yanındakı maraq qrupları, siyasi liderlər, siyasi dəyərlər və nəhayət subyektin özü nəzərdən keçirilir.

**5.5. Siyasi mədəniyyətin səciyyəvi xüsusiyyətləri** içərisində ən əhəmiyyətlisi onun homogen (həmcins) və ya heterogen (qeyri-həmcins) olmasıdır. Siyasi mədəniyyətin heterogenliyi hakim siyasi mədəniyyətlə yanaşı müxtəlif subkultur , hətta kontur kulturların mövcudluğuna imkan verir. Bir tərəfdən bu, siyasi mədəniyyətin sərhədlərini yuyur və onun yox olması ilə nəticələnə bilər. İkinci tərəfdən bu, demokratik inkişafın şərti olan pluralizmə aparır. Cəmiyyətdə mövcud olan dəmir, həmcins siyasi mədəniyyət qəti olaraq inkişafa mane olur və totalitarizmə aparıb çıxarır.

Bundan başqa siyasi mədəniyyətin səciyyəvi xüsusiyyəti kimi onun dinamikliyini və inertliyini göstərmək olar. Dinamiklik və inertlik bir-birilə sıx bağlıdır. Burada hər şey xarici faktorların təsiri ilə bağlıdır. Nəsillərdən nəsillərə ötürülən siyasi təcrübə xarici təsirlərə məruz qalır ki,bu da ya artıq formalaşmış

siyasi mədəniyyəti möhkəmlədir, ya da onu müəyyən qədər dəyişir. Deməli, bunlardan asılı olaraq siyasi mədəniyyət ya inert, ya da dinamik olur.

**Siyasi mədəniyyətin formalaşması, ötürülməsi və yeniləşməsi mexanizmləri** mürəkkəb xarakterə malikdir. Siyasi mədəniyyəti formalaşdıran faktorlara ölkənin xarici əhatəsi və daxili həyatındakı əlamətdar hadisələr aiddir. Bu faktorların içərisində həm də ənənələri və ritualları,aktiv siyasi institutları, birinci növbədə dövləti, daha sonra ordunu, dini qurumları, siyasi işgüzar dairələri, universitetləri və KİV–i göstərmək olar.

Siyasi mədəniyyətin ötürülməsinə nəsillərarası varisliyi göstərmək olar. Bu zaman hər hansı bir sistemin siyasi davranışının dəyərləri, norma və nümunələrinin vətəndaşların süurunda möhkəmlənmə prosesi baş verir.

Siyasi mədəniyyətin yeniləşməsi cəmiyyətdə elə dəyişiklikləri nəzərdə tutur ki, onlar insanların şüurunda mövcud olan inert norma və nümunələri dəyişdirə bilsin. Siyasi davranış təkcə forma olmayıb mədəniyyətin mövcudluğu üsuludur.

**5.7. Siyasi mədəniyyətin əsas tipləri.** Q.Almond və S.Verb siyasi mədəniyyətin üç əsas tipini müəyyənləşdirmişlər:

1. Patriarxal tip.
2. Rəiyyət tipi.
3. Aktiv tip.

**Patriarxal tip.** Bu tip siyasi sistemlər ənənəvi xarakter daşıyır. Belə sistemlər rəhbər tərəfindən tək idarə olunur və vətəndaşlar tərəfindən siyasətə heç bir maraq göstərilmir.

**Rəiyyət tipi.** Bu tipin fərqləndirici cəhəti odur ki, vətəndaşlar siyasi sistemə güclü meyllərə malik olsalar da, siyasətdə şəxsi iştirakları zəifdir. Bu tip əsasən feodal cəmiyyətlərdə, siyasi sistemlərin müxtəlif səviyyələrinin ierarxik münasibətlər zəminində formalaşması baş verən cəmiyyətlərdə müşahıdə olununr. Aşağı təbəqələr ənənəyə görə öz "ağasına" həmişə hörmətlə yanaşmalıdırlar. Belə "hörmətli" model indi də bir çox siyasi sistemlərdə hiss olunur. Qeyd etmək lazımdır ki, liderə göstərilən belə hörmət yüksək vətəndaş şüuru ilə paralel ola bilər. Məhz bu cəhətinə görə ikinci tip birincidən fərqlənir.

**Aktivist tip.** Bu tip əvvəlki iki tipdən onunla fərqlənir ki, vətəndaşlar siyasi işlərdə əhəmiyyətli rol oynamağa can atırlar. Onlar siyasətə, konkret olaraq siyasi sistemə böyük maraq göstərirlər, pozitiv aktiv münasibət nümayiş etdirirlər. Onlar dövlət işləri haqqında kompetent biliklərə malik olurlar. Burada əsas cəhət vətəndaşların siyasi iştirakının səviyyəsidir.

Real həyatda, demək olar ki, bu tiplərə xalis şəkildə rast gəlinmir. Onlar müxtəlif kombinasiyalarda müşahidə olunur.

Mövzuya aid suallar:

1. Siyasi mədəniyyət deyəndə nə başa düşülür?
2. Siyasi mədəniyyət anlayışı hansı mənalarda başa düşülür?
3. Siyasi mədəniyyətin baza strukruru nədən ibarətdir?
4. Siyasi mədəniyyətin əsas subyektləri hansılardır?
5. Siyasi mədəniyyətin əsas obyektləri hansılardır?
6. Siyasi mədəniyyətin hansı səciyyəvi xüsusiyyətləri vardır?
7. Siyasi mədəniyyətin hansı tipləri vardır?

Ədəbiyyat:


1. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. 4 kitab, Bakı, 2010
2. Xəlilov N. Diplomatiya mədəniyyəti və natiqlik sənətinin kateqoriyaları. I cild, Bakı, 1994
3. Naxçıvanlı A. Siyasətin fəlsəfi problemləri. Bakı, 1998
4. Алиева М. Отношение к жизни и смерти в различных мировоззренческих системах. // Государственное управление: теория и опыт» //, №2 (6), 2004, с.69-841.
5. Баталов Э.А. Политическая культура современного общества. М., Наула, 1990

7. Гозман Л.Я., Шестопал Е.Б. Политическая психология. – Ростов-н/В.: Феникс, 1996. – с.25-37
8. Еникеев М.И. Психологический энциклопедический словарь М.: Проспект, 2006, -с.324
9. Лебон Г. Психология социализма. Литературное обозрения. 1991, Н 6, с.80-83
10. Ольшанский Д.В. Политическая психология. СПб.:Питер, 2002, с.76-81
11. Человек, политика, психология(Материалы круглого стола) // Вопросы философии, 1995, № 4, с.3-23
12. Шестопал Е.И. Политическая психология. ИНФРА-М, 2002, с.192-221
13. Юнг К.Г. Психологические типы. "Университетская книга", Изд-во АСТ, Москва, 1998
14. Handbook of Political Psycholoji //Ed.by Knutson J. – sanFrancisco: Jossey-Bass, 1973 – 438
15.Almond G., Verba s. Civic Culture. Political Attitudes and Demokracy in Five Nations. Prinseton:bUniv.press, 1963
16. Pye L., Verba S. (eds.). Political Culture and Political Development.: Prinseton: Univ. Press., 1965, p.7

## VI mövzu

## Siyasi qavrayış, siyasi təfəkkür, siyasi emosiyalar

**Qısa məzmun.** Siyasi psixika siyasi fəaliyyətin tərəfi kimi. Siyasətədə siyasi psixikanın üç bloku: siyasi qavrayış,siyasi təfəkkür, siyasi emosiyalar.

**Siyasi qavrayış bloku** - siyasətin, xüsusilə də siyasi informasiyanın qavrayışı.

**Siyasi təfəkkür bloku** - qavranılan siyasi informasiyanın dərk edilməsi və siyasi qərarların verilməsi. Siyasi təfəkkürdə məntiqi mexanizmlərin zəifliyinin səbəbi.

**Siyasi emosiyalar bloku** - siyasi təfəkkürün gəldiyi nəticəyə emosional münasibət, yəni nəticənin emosional qiymətləndirilməsi. Siyasi emosiyaların siyasi qavrayışa təsiri.

**Psixi proseslərin inertliyi.**

**6.1.** Siyasi fəaliyyətin daxili tərəfi kimi siyasi psixika üç əsas blokdan ibarətdir:

1. Siyasi qavrayış bloku;
2. Siyasi təfəkkür bloku;
3. Siyasi emosiyalar bloku.

**Siyasi qavrayış bloku** ümumiyyətlə siyasətin, xüsusilə də siyasi informasiyanın qavrayışı deməkdir.

**Siyasi təfəkkür bloku** qavranılan siyasi informasiyanın dərk edilməsi və siyasi qərarların verilməsindən ibarətdir.

**Siyasi emosiyalar bloku** siyasi təfəkkürün gəldiyi nəticəyə emosional münasibətdir ( nəticənin emosional qiymətləndirilməsidir).

Bunların yekunu kimi siyasi davranış formalaşır.

**6.2. Siyasi qavrayış.** Hələ XX əsrin 20-30-cu illərində “New Look” Amerika psixoloji məktəbinin çoxsaylı ekperimental tədqiqatları sübut etdi ki, qavrayış yönəlişliklərdən və stereotiplərdən asılıdır. Siyasi aspektdə bunu belə demək olar: Siyasi qavrama siyasi şüurdan, siyasi özünüdərkdən və siyasi mədəniyyətdən asılıdır. Və bunlar şüursuz səviyyədə təzahür edir. Məsələn, maşın və at fiqurlarını üst-üstə qoyub konturlarını qaralasaq və alınan konturları amerikalı və meksikalıya göstərsək, əksər amerikalı burada maşın, əksər meksikalı burada at görəcəkdir. Və yaxud başqa bir misal: skripka və avtomatın üst-üstə qoyulmuş konturlarını avropalı və fələstinliyə göstərsək, avropalı skripka, fələstinli avtomatı görəcəkdir.

Məlumdur ki, qavrama seçici xüsusiyyətə malikdir. Deməli siyasi qavrama da seçici xüsusiyyətə malikdir. Belə seçicilik xüsusiyyəti böyüməkdə olan nəslin siyasi dünyaya “girməsi” ilə, yəni onun sosializasiya prosesi ilə formalaşır. Artıq formalaşmış qavrayış xüsusiyyətləri insanın siyasi mədəniyyəti, siyasi şüuru, siyasi

özünüdərki və başqa psixi proseslərlə bağlı olub ümumilikdə bütün davranışa təsir göstərir.

**6.3. Siyasi təfəkkür** insan beynində onu əhatə edən siyasi reallığın mühakimələr, qərarlar, əqli nəticələr şəklində əks olunması prosesidir. Deməli, siyasi təfəkkür siyasi reallığın əksidir. Siyasi təfəkkürün fərqləndirici cəhəti ondan ibarətdir ki, onda koqnitiv mexanizmlərlə yanaşı emosional mexanizmlər də yer alır, müəyyən statusa malik olur. Siyasi təfəkkürün məzmununu bir o qədər də məntiqi mexanizmlər deyil, siyasi şüuru və siyasi mədəniyyəti formalaşdıran yönəlişliklər, məqsədlər, dəyərlər müəyyən edir. Mənz bu səbəbdən siyasi təfəkkürün spesefik xüsusiyyəti kimi onun məntiqdən üzaq olması, hətta əksər hallarda qeyri-məntiqi olması göstərilir. Politologiyanın klassiklərindən sayılan M.Veber siyasi təfəkkürə tənqidi yanaşaraq "onun terminlərinin mənalandırılmasının çətinliyini", hətta "ümumiyyətlə heç bir təhlilə gəlmədiyini" qeyd edirdi. S.İ.Povarnin isə "anlayışlarından tutmuş mühakimələrlə əqli nəticələr arasındakı əlaqələrinə qədər siyasi təfəkkürün məntiqi cəhətdən zəif " olması qənaətinə gəlmişdir. Qeyd etdiyimiz kimi siyasi təfəkkürün məzmununu yönəlişliklər, məqsədlər, dəyərlər müəyyən edir. Onlar bir tərəfdən siyasi mədəniyyəti və siyasi şüuru formalaşdırır, və siyasi mədəniyyət və siyasi şüur da öz növbəsində yönəlişlikləri, məqsəd və dəyərləri formalaşdırır. İkinci bir tərəfdən siyasi təfəkkür həm də siyasi şüura və siyasi mədəniyyətə təsir göstərən qavrayış materiallarından – obrazlar, miflər, inanclardan və bunun kimi başqa elementlərdən istifadə edir.

**6.4. Siyasi emosiyalar** insanın onu əhatə edən siyasi reallığın hadisə və proseslərinə verdiyi affektiv qiymətlər və reaksiyalardır. Ümumiyyətlə, siyasi psixikada emosional və koqnitiv komponentləri ayırmaq çətindir. Siyasi emosiyalar siyasi reallığın hissi formada əks olunmasıdır və adətən, şüursuz şəkildə baş versə də, böyük effektə malik olur. Geştalt psixologiyanın klassiklərindən olan K.Levin çoxsaylı faktorları şərh edərkən göstərirdi ki, nə qədər ki, qavrayış qeyri-dəqiq olur, "formasız" sərhədlərə malik olur, o, bir o qədər də emosiyaların təsirinə məruz qalır. Emosiyaları eksperimental şəkildə tədqiq edən Polşa psixoloqu Y.Reykovskinin fikrincə: "Siyasi hadisələr arasındakı münasibətlər, onları yaradan ideoloji, sosiolji,

iqtisadi səbəblər arasındakı münasibətlər o qədər mürəkkəbdir ki, onları başa düşmək deletant üçün qeyri-mümkündür... Belə vəziyyət hadisələrə emosional münasibətlərin dominantlığına gətirib çıxarır.”

Qavrayış, emosiya və təfəkkürün səciyyəvi xüsusiyyətləri çoxdan məlumdur, lakin onların elə spesifik xüsusiyyətləri vardır ki, onlar parlaq şəkildə ancaq siyasətdə üzə çıxır və siyasi fəaliyyətə xüsusi spesifiklik verir.

**6.5. Psixi proseslərin inertliyi**. Psixi proseslərin inertliyi psixikanın başlıca xüsusiyyətidir**.**

İnersiya latın sözü *inertia*-dan tərcümədə tərpənməz, fəaliyyətsiz mənasını verir. İnersiya, birinci növbədə sükut halını və ya bərabər düzxətli hərəkəti saxlamaq xüsusiyyətidir. Bu, hər hansı bir xarici səbəbin (hadisə, proses, situasiyanın) ona təsir edə biləcəyinə qədər davam edir. İkincisi, artıq onu dəyişən səbəbin olmamasına baxmayaraq, o bu səbəbə hələ də reaksiya verməkdə davam edir.

**Qavrayışın və təfəkkürün inertliyi** daxili və xarici siyasətdə baş verən hadisələrə baxış bucağının dəyişdirilməməsi və bununla bağlı yeni nəticələr əldə edilə bilməməsində özünü göstərir. Yəni siyasi qərarların qəbulundakı adət olunan mexanizmdən əl çəkilmir, qərarlar və siyasi addımların xarakteri dəyişdirilmir. Belə yanaşma totalitar və avtoritar cəmiyyətlərdə üstünlük təşkil edir.Təfəkkürün inersiyalılığı totalitarizmin bir xüsusiyyəti olub özünü həm sosial-siyasi (siyasi qərarların qəbul edilməsində monopolizm), həm də siyasi-psixoloji (avtoritar şəxsiyyətin düşüncə tərzində) sahələrdə göstərir.

“Köhnə” siyasi təfəkkürün əsasında inersiyalı təfəkkür dayanır.

İnersiyalı psixika siyasətdə konkret olaraq “inadkarlıq eskalasiyası”nda özünü göstərir. Onu bəzən tərslik eskalasiyası da adlandırırlar. Bu fenomenin mahiyyəti ondan ibarətdir ki, əvvəlcədən bilərəkdən və ya bilməyərəkdən qəbul olunan səhv istiqamət, düzgün olmayan qərar sonradan onun səhvliyi aydın olsa da dəyişdirilmir. Bəzən başladığı işdə səhvlərin etiraf edilməsi qorxusu bu fenomeni yaradır.

Bu fenomen bəzən obyektiv səbəblərdən yaransa da, əsasən subyektiv səbəblərdən yaranır. Belə səbəblərdən biri və əsası kimi səhv qərar ucbatından itirilmişlərin kompensasiya edilməsi meylini göstərmək olar.

İkincisi, yuxarıda qeyd etdiyimiz kimi qərarın səhv olduğunu etiraf etmək qorxusudur. Bu zaman yeni, radikal dəyişikliklər etmək əvəzinə siyasətçi özünü doğrultmayan, səhv kursu davam etdirmək üçün daha böyük enerji və maddi vəsait sərf etmək məcburiyyətində qalır.

Üçüncüsü, qəbul edilmiş səhv qərar cəmiyyət üçün nə qədər böyük əhəmiyyət daşıyan məsələ ilə əlaqəlidirsə, artıq formalaşmış ictimai rəy həmin qərarın dəyişilməsində əngəl rolunu oynayır.

Dördüncüsü qərar qəbulunda konkret adamlar məsuliyyət daşıdıqca və buna görə sərt sanksiyalar nəzərdə tutulduqca inersiya dərinləşir. Belə ki, qərar qəbul edən vəzifəcə, tutduğu müvqecə böyük olduqca, səhvi etiraf etmək də bir o qədər çətin olur.

Beşinci, inersiya informasiyanın təhrif olunmuş şəkildə qavranması ilə artır. Adətən, qərarın səhv olduğunu gizlətmək üçün, onun düzgünlüyünü göstərmək üçün ancaq pozitiv informasiya buraxılır, neqativ informasiya gizlədilir.

Altıncısı, inersiya zamanla da əlaqəlidir. Uzun müddət səhv kurs yeridildikcə, bir o qədər də onu geri döndərmək və ya dəyişmək mümkün olmur: artıq həm hər şey təşkilatlanıb, institutlaşıb, həm də insanlarda buna uyğun şüur formalaşıbdır.

Siyasətdə psixikanın inersiyalılığı özünü fərdi və qrup səviyyəsində biruzə verir. Fərdi səviyyədə bu, konkret bir siyasi xadimin fəaliyyətində özünü göstərir və əgər siyasi xadim yüksək hakimiyyətə malikdirsə və az nəzarət olunursa, böyük zərərvermə gücünə malik olur. Qrup səviyyəsində inersiya özünü “qrup təfəkküründə” göstərir. Bunun əsasında qrup konformizmi dayanır: qərarla və ya onun ayrı-ayrı bəndlərilə razılaşmayan qrup üzvləri güclü liderə qarşı çıxa bilmirlər. Buna misal kimi strateji əhəmiyyətli, ancaq səhv olan Hitler rejimi ilə müqavilə bağlayan Münhen razılaşmasından tutmuş, ABŞ admunistrasiyasının Kuba və Vetnama, keçmiş SSRİ-nin Əfqanıstana soxulmasına qədər olan çoxlu nümunə göstərmək olar.

Psixikanın inersiyalılığı kimi daha ümumi şəkildə siniflərdə, təbəqələrdə, etnik qruplarda və bütövlükdə cəmiyyətdəki inersiyanı göstərmək olar, hansıki

məhz onlar totalitarizmin və avtoritarizmin yaranmasının başlıca səbəbləri kimi çıxış edirlər.

Mövzuya aid suallar:

1. Siyasətdə psixikanın üç bloku dedikdə nə nəzərdə tutulur?
2. Siyasi qavrayış nədir?
3. Siyasi təfəkkür nədir?
4. Siyasi təfəkkürdə məntiqi mexanizmlərin zəifliyinin səbəbi nədir?
5. Siyasi emosiyalar siyasi qavrayışa necə təsir göstərir?
6. Psixi inertlik nədir?

Ədəbiyyat:


1. Xəlilov S. Lider. Dövlət. Cəmiyyət. Bakı, 2001
2. Алиева М. Отношение к жизни и смерти в различных мировоззренческих системах. // Государственное управление: теория и опыт» //, №2 (6), 2004, с.69-84
3. Ахмедов Анар. Этнические стереотипы поведения в политической плоскости. //Возрождение – XXI век //, № 7-8, 2002. с. 179 – 184
4. Дилигенский Г.Г. Социально-политическая психологию М.: Наука, 1994, с.134, 193-195
5. Еникеев М.И. Психологический энциклопедический словарь. М.: Проспект, 2006
6. Ольшанский Д.В. Политическая психология. СПб.:Питер, 2002, с.82-87
7. Рейковский Я. Эксперементальная психологии. М.: Прогресс, 1979, с.87-93
8. Саморегуляция и прогнозирование поведения личности. Под. ред. Ядова В.А. –Л.: Наука, 1979, с.24
9. Шестопал Е.И. Политическая психология. ИНФРА-М, 2002, с.309-313
10. Handbook of Political Psycholoji //Ed.by Knutson J. – San-Francisco: Jossey-Bass, 1973, p.438

## VII mövzu
## Siyasi yönəlişliklər və stereotiplər
## Siyasi davranış

Qısa məzmun. **Yönəlışlık anlayışı.** Siyasi psixologiyada yönəlişlik.

**Yönəlışliyin funksiyaları.** Yönəlişliyin üç səviyyəsi: məna yönəlişlikləri, məqsəd yönəlişlikləri, əməliyyat yönəlişlikləri. Məna yönəlişlikləri - subyektin onun üçün əhəmiyyət kəsb edən obyektlərə münasibəti. Məna yönəlişliklərinin üç komponenti: 1. Koqnitiv ( insanın dünyaya baxışı, can atdığı şeylər haqqında təsəvvürləri); 2. Emosional( əhəmiyyətli obyektlərə simpatiya və antipatiya); 3. Konativ (fəaliyətə hazırlıq). Məqsəd yönəlişlikləri - qarşıya qoyulan məqsədlər üzərində qurulan yönəlişliklər. Əməliyyat yönəlişlikləri - fərdin sistemin norma və dəyərlərinə daxil olması.

**Stereotiplər** sosial-siyasi həyatın dəyərləndirilməsi üsuludur. Stereotipin strukturu: koqnitiv-informasion, emosional-hissi, motivasion-təhrikedici komponentlər. Stereotiplərin formalaşması.

**Siyasi davranış.** Siyasi addımlar siyasi davranışın ən yüksək səviyyəsi kimi.

### **7.1.** Siyasi psixologiyada siyasi yönəlişliklər və onlarla bağlı stereotip-

lər əhəmiyyətli rol oynayır. Onlar siyasi şüurda və özünüdərkdə, kollektiv şüursuzluqda, siyasi mədəniyyətdə, psixikanın 3 blokunda və siyasi davranışda özlərini göstərirlər.

Yönəlişlik subyektin bu və ya başqa hadisəyə verəcəyi reaksiyaya hazırlıq vəziyyətidir. Lap əvvəllər qavranılan situasiyanın keçmiş təcrübədən asılılığını (C. Lanqe) və qavrayışın bəzi illuziyalarını (Q.Muller, T. Şuman) öyrənmək üçün aparılan təcrübələrdə subyektin reaksiyasının sürətini öyrənmək üçün yönəlişlik anlayışından istifadə etmişlər. Sonralar sosial yönəlişlik və ya fərdin, qrupun və ya cəmiyyətin sosial davranışa təsir edən dəyərlərə subyektiv orientasiyasını ifadə etmək üçün istifadə ediilmişdir (U.Tomas və F.Znanetski, 1918). Keçən əsrin 30-cu illərində gürcü psixoloqu D.N.Uznadze yönəlişlik fenomenini ətraflı örənmişdir.

Siyasi psixologiyada yönəlişlik anlayışı şəxsiyyətin siyasi obyektlərə, nizamlama mexanizmlərinə, sosializasiya proseslərinə, davranışdakı dəyişikliklərə bəslədiyi münasibəti ifadə etmək üçün istifadə edilir.

**7.2. Yönəlişliyin funksiyaları.** Üç əsas funksiyası vardır:

1. Yönəlişlik fəaliyyətin ardıcıllığını, məqsədyönlüyünü təyin edir. Yəni onun stabilliyini qoruyir. Məsələn, dəyişkən situasiyalarda fəaliyyətin istiqamətini saxlamağa xidmıət edir.

2. Yönəlişlik standart situasiyalarda subyekti prosesə nəzarət etməkdən və yeni qərarlar qəbul etməkdən azad edir.

3. Yönəlişlik inersiya üçün imkan yaradır və yeni situasiyaya adaptasiya etməyi çətinləşdirir.

Davranışın nizamlanmasının dispozision konsepsiyası (N.Rokiç) fəaliyyətin nizamlanmasında ierarxik münasibətdə olan üç səviyyəni ayırd edir:

I səviyyə - məna yönəlişlikləri;

II səviyyə - məqsəd yönəlişlikləri;

III səviyyə - əməliyyat yönəlişlikləri.

Sosial psixologiyada ən çox əhəmiyyət daşıyan məna yönəlişlikləridir.

Davranışın nizamlanmasının üç səviyyəsi

| Məna yönəlişlikləri | Məqsəd yönəlişlikləri | Əməliyyat yönəlişlikləri |
|---|---|---|

Cədvəl 7.1. Davranışın nizamlanmasının dispozision konsepsiyası (N.Rokiçə görə)

**Məna yönəlişlikləri.** Məna yönəlişlikləri subyektin onun üçün əhəmiyyət kəsb edən obyektlərə münasibətini ifadə edir. Onlar sosial-siyasi yönəlişliklərin zəminində yaranır. Bu yönəlişliklər üç komponentli struktura malikdir:

1.Koqnitiv ( insanın dünyaya baxışı, can atdığı şeylər haqqında təsəvvürləri);

2.Emosional( əhəmiyyətli obyektlərə simpatiya və antipatiya);

3.Konativ (fəaliyətə hazırlıq).

**Məqsəd yönəlişlikləri** adından da göründüyü kimi qarşıya qoyulan məqsədlər üzərində qurulur və hərəkətlərin sabitliyini təmin edir. Məqsəd yönəlişlikləri qırıldıqda yarımçıqlıq effekti ( Zeyqarnik effekti) yaranır.

**Əməliyyat yönəlişlikləri.** Bunun vasitəsilə fərd sistemin norma və dəyərlərinə daxil olur – bu, onun əməliyyat funksiyasıdır. Əməliyyat funksiyası gərgin situasiyada psixoloji müdafiə funksiyasını yerinə yetirir. Konkret bir fəaliyyətdə yaranan əməliyyatlar oxşar situasiyalarda təkrarlandıqca, ümumuləşmiş yönəlişliklərə çevrilir və xarakter keyfiyyətləri kimi təzahür edir.

**7.3. Stereotiplər.** Stereotip anlayışı iki yunan sözündən ibarətdir: *ste- reos* tərcümədə bərk və *tupos* – tip mənasını verir. Stereotip bu iki anlayışın sintezindən ibarətdir. Poliqrafiyada stereotip klişe, qəlib mənasında, fiziologiyada şüurda və davranışda möhkəmlənmiş reflekslər mənasında işlənilir.

Siyasi psixologiyada stereotip emosional tonlu, hər hansı sabit xarakterli sosial-siyasi obyektin, hadisə və ya proseslərin standartlaşmış, sxematikləşmiş, sadələşdirilmiş, sıxlaşdırılmış, adiləşdirilmiş formasıdır. Geniş mənada stereotip fikirlərin, qavrayışın, davranışın ənənəvi kanonları, şablonlarıdır. Bəzən onlar həddən artıq ümumiliyə malik olub qeyri-dəqiq, irrasional olurlar.

İlk dəfə stereotip anlayışını 1922-ci ildə kütləvi informasiya vasitələrini tədqiq edən amerika psixoloqu U.Lippman milli-etnik, sosial-siyasi və peşəkar qruplarda qabaqcadan mövcud olan yanlış (önyarqı) fikirləri ifadə etmək üçün

işlətmişdir. Stereotip sosial-siyasi hadısə və proseslərin dəyərləndirilməsi üsuludur. O, həm pozitiv, həm də neqativ rol oynayır. “İnsan psixikası qənaətcildir” (D.V.Olshanskiy). Stereotiplər bir tərəfdən şüur və davranış üçün “qənaət” rolunu oynayır, dünyada baş verən proseslərin qısaldılmış şəkildə qavranılmasını təmin edir. Gündəlik həyatda insan həyatın qanunlarını - ənənələri, norma və dəyərləri, sosial psixoloji davranışın qaydalarını və s. “beynindən keçirtmək”, yəni tənqid-təhlil etmək imkanina malikdir. İnsan bu norma və qanunlar, adət-ənənələr, baş verən hadisələr haqqında tam informasiyaya malik olmur. Lakin onlar haqqında fikir söyləməli olur. Məhz buna görə də o, mövcud stereotiplərdən istifadə etməli olur. Başqa tərəfdən, sosial-psixoloji idrakı (informasiyanı) sadələşdirməklə stereotiplər primitiv siyasi şüurun yaranmasına gətirib çıxara bilirlər. Bəzən obyektiv təhlil, müstəqil qərar qəbulunu tələb edən situasiyalarda standart davranışlar neqativ rol oynayır. Məsələn, stereotiplər beynəlxalq münasibətlərdə, etnik qruplarda yaranan problemlərdə neqativ rol oynayırlar.

**Stereotiplərin formalaşması** bir tərəfdən fərdi və ya qrup təcrübəsi, o biri tərəfdən KİV-in və siyasi təbliğatın əsasında baş verir.

**Stereotipin strukturu:**

1. Koqnitiv- informasiyon komponentlər;

2.Emosional-hissi komponentŞəxsiyyətin siyasi sosiallaşmasılər;

3. Motivasyon-təhrikedici komponentlər.

Stereotiplər siyasətdə fərdlər, qruplar və kütlələrlə manipulyasiya etməkçün güclü vasitədir. Bu məqsədlə deklarasiya edilərək insanlara standart düşüncə tərzi, sosial-psixoloji hadisələrə standart yanaşmalar təlqin edilir. Bu, necə deyərlər, ictimai-siyasi kanonlar, həqiqətlər kimi siyasi elita təəfindən təqdim olunur və təbliğat vasitələri, xüsusilə də KİV-lə möhkəmləndirilir. Belə stereotiplərin məcmusu cəmiyyətin ideya-siyasi məcmusunun əsasını təşkil edir. Stereotiplər “həqiqi” - yəni bizimki və “yalan” - bizim olmayan deyə iki yerə bölünürlər.

Sosial-psixoloji sistemlər məhz insanların şüurunun və davranışının stereotipləşməsi səviyyəsinə görə biri-birindən fərqlənir. Əgər totalitar cəmiyyətdə dar çərçivədədirlərsə və onlara əməl etmək məcburidirsə - onlara qarşı çıxmaq

cəzalandırılırsa, demokratiyada əksinə, stereotiplərin pluralizasiyalaşmasına imkan yaradılır.

**7.4. Siyasi davranış.** Siyasi davranış siyasi psixologiyada əsas anlayışlardan biri kimi nəzərdən keçirili,r çünki son nəticə kimi ancaq davranış insan haqqında, onun siyasi- psixoloji keyfiyyətləri haqqında fikir yürütməyə imkan verir. Buna baxmayaraq, siyasi davranış siyasi fəaliyyətin ancaq, xarici tərəfi olub, məhdud xarakterlidir.

Siyasi davranış insanın siyasətdə fəaliyyətinin yüksək mərhələsidir. Siyasi davranış həm fərdlərə, həm də qruplara, təşkilatlara, kütlələrə aid edilir. Geniş mənada siyasi davranışın üç səviyyəsi: yuxarı, orta, aşağı səviyyələri fərqləndirilir. Orta səviyyədə bu, fərdin maraqlarında və onları siyasi nümayiş etdirməsində üzə çıxır (siyasi partiya aktivlərində təzahür edir). Aşağı səviyyədə bu elə fəaliyyətdir ki, fərd siyasi sistemin norma və dəyərlərini mənimsəyir, siyasi mədəniyyətə daxil olur. Bu, çox məhdud olub epizodik xarakter daşıyır. (Totalitar cəmiyyətdə üsyan və inqilablarda, demokratik cəmiyyətdə səsvermə zamanı müşahidə olunur). Yüksək səviyyə cəmiyyətin peşəkar siyasətçilərini, birinci növbədə cəmiyyətin siyasi liderlərini xarakterizə edir.

**Siyasi davranışın oyanması və nizamlanması** şəxsin ünsiyyət prosesində mənimsədiyi nitqlə sıx bağlıdır.

Siyasi davranışın ən yüksək səviyyəsi atılan addımlardır. Addım dərk olunmuş motivlər əsasında atılan və sosial dəyərləndirilən davranış aktıdır. Addım sosial və siyasi davranışın əsas vahididir. İnsan, xüsusilə da siyasətçi məhz atdığı addımlarda təzahür edir, formalaşır. Bir qayda olaraq, atdığı addımlara görə siyasətçinin müstəqilliyi, iradi keyfiyyətləri, konformluğa qarşı müqavimət imkanları haqqında fikir irəli sürürlər. Addım atılmamışdan əvvəl, adətən, daxilən plan qurulur, şüurlu şəkildə cəhdlər nəzərdə tutulur, nəticə haqda proqnoz verilir. Addım təkcə fəaliyyəti nəzərdə tutmur, mövqenin bildlrilməsi, münasıbəti əks etdirən jest, baxış, səsin tonu da addım sayila bilər.

Mövzuya aid suallar və tapşırıqlar:

1. Yönəlişliyin mahiyyətini açın.

2. Siyasi psixologiyada yönəlişlik hansı aspektlərdən tədqiq olunur?

3. Yönəlışliyin hansı funksiyaları vardır?

4. Yönəlışliyin hansı səviyyələri vardır?

5. Stereotiplər nədir və onlar necə formalaşır?

6. Stereotiplərin strukturuna nə daxildir?

7. Siyasi davranışın hansı səviyyələri vardır?

8. Siyasi addım nədir?

Ədəbiyyat:

1. Xəlilov S. Lider. Dövlət. Cəmiyyət. Bakı, 2001
2. Алиева М. Отношение к жизни и смерти в различных мировоззренческих системах. // Государственное управление: теория и опыт» //, №2 (6), 2004, с.69-84
3. Ахмедов Анар. Этнические стереотипы поведения в политической плоскости. //Возрождение – XXI век //, № 7-8, 2002. с. 179 – 184
4. Андреев С.С. Политическое сознание и политическое поведение // Социально-политический журнал, 1998, N-2, с.34-35
5. Ольшанский Д.В. Политическая психология. СПб.:Питер, 2002, с.82-87
6. Саморегуляция и прогнозирование поведения личности. Под. ред. Ядова В.А. –Л.: Наука, 1979. с.24
7. Шестопал Е.И. Политическая психология. ИНФРА-М, 2002, с.309-313
8. Узнадзе Д.Н. Эксперементальные основы психологии установки // Психологические исследования. М., 1966

## VIII mövzu
## Siyasi psixologiya tarixi

**Qısa məzmun. Siyasi psixologiyanın qədim kökləri**. Qədim Yunanıstan. Qədim Roma. Qədim Şərq.

**İntibah dövrü** və insan faktoru. N.Makiavellinin "Dövlət" əsəri və onun siyasi psixologiyanın inkişafındakı rolu.

**Maarifçilik dövründə siyasi psixologiya:** T.Hobbs, C.Lokk, J.Russo, Ş.Monteskyö.

**XIX əsrdə siyasi psixologiya:** Q.Tard, Q.Lebon, Ş.Siqele, "Xalq psixologiyası" məktəbi və V.Vundt.

**8.1. Siyasi psixologiyanın qədim kökləri.** Siyasi psixologiyanın tarixəqədərki dövrü zəngindir.

Insanları həmişə hakimiyyət məsələləri düşündürmüşdür. Intriqalar, sui-qəsdlər, qətllər, danışıqlar, çevrilişlər həmişə hakimiyyətlə bağlı tarixi müsayiət etmişlər. Bu tarixin predmeti insan və hakimiyyətdir. Bu gün siyasi psixologiya adlandırdığımız predmet keçmişdə siyasi elitanın gündəlik praktikası olmuşdur. Və etiraf etmək lazımdır ki, bu bilgilər əsrlərdən keçərək bu günkü elmdə də müəyyən qədər bərqərar olmuşdur.

**Qədim Yunanıstan** bütün elmlərin beşiyidir. O vaxt siyasətçiləri əvəz edən natiqlər kütləyə təsiretmə müxanızmləri haqda düşünmüşlər. Misal üçün Demosfeni

nəzərdən keçirək. Demosfen siyasətə praktikadan gəlmişdi. Dil qüsuru olan Demosfen saatlarla dəniz kənarında məşq etmiş, dalğaların səsini batıracaq dərəcədə qışqıraraq nitq söyləmişdir. Demosfenə görə iki cür kütlə vardır: 1). emosiyaların təsiri altına düşənlər və 2). ağılın təsiri altına düşənlər. Birinci qrupa aid olan kütlə natiqin dediklərinə tənqidi münasibət bəsləmir. Onlara təsir etmək üçün emosiyaların yoluxma xüsusiyyətindən istifadə etmək lazımdır. Ikinci qrupa aid olan kütlə ilə, əksinə, rasional səviyyədə iş qurmaq lazımdır. Bu zaman natiq kütləyə düşünmək üçün material verməkdən ötrü məntiqi arqumentlərdən istifadə etməlidir. O, deyirdi ki, afinalılar müstəqil düşünməyə adət ediblər, ona görə də onlarla hisslər dilində danışmaq əbəsdir.

Qədim Yunanıstandakı siyasi təcrübəni ümumiləşdirib, orada iki istiqamətin olduğunu görmək olar: demokratik və aristokratik (elit) istiqamətlər. Aristokratik istiqamətin tərəfdarları kimi Platonu, Sokratı və Ksenofontu göstərmək olar. Platona görə siyasətlə, ümumiyyətlə seçilmiş adamlar məşğul ola bilər.

Aristotel ilk olaraq problemə hakimiyyət və ona tabe olanlar müstəvisindən toxunmuşdur. O, kütlə həyəcanlarını, üsyançıları başa düşməyə çalışmış, ilk öncə üsyançıların əhval-ruhiyyəsinə diqqət yetirməyin vacibliyini göstərmişdir. Beləliklə, Aristotelin zamanında artıq kütlənin psixologiyasında baş verən dəyişikliklərin təhlil olunmasının zəruriliyi, konkret olaraq, itaətedici vəziyyətdən üsyankarlığa qədər olan dinamikanın təhlil olunmasının vacibliyi haqda biliklər formalaşmaqda idi.

**Qədim Roma** daha da irəli getmişdi. Qədim Yunanıstanda sosial-psixoloji məsələlərlə epizodik məşğul olduqları halda, Romada Plutarx və Svetoniy liderlik fenomeni ilə məşğul olurdular. Onlar siyasi liderlərin psixologiyasını araşdırırdılar. Demək olar ki, bu, XX əsrdə avtbioqrafik metodun əsasını qoymuşdur.

Siyasətə psixoloji təsirlərin öyrənilməsində Siseronun böyük əməyi vardır. Siseron natiqlik sənətində psixoloji məqamları nəzərə almağı məsləhət görürdü. O, yazırdı ki, natiqin çıxışı gərgin və ehtiraslı olub, auditoriyanın əhval-ruhiyyəsini dəyişdirməyə yönəlməlidir. Siseron vurğulayırdı ki, bu zaman natiq özü hamıdan çox həyəcanlı olmalıdır.

**Qədim Şərqdə** Konfutsinin fikirləri diqqətə layiqdir. O, belə hesab edrdi ki, ölkədə qayda-qanunların əsasında mərasimlər, rituallar, hörmət durur. Konfutsi yazırdı ki: "Rituala üyğun gəlməyənə baxmaq olmaz, rituala uyğun gəlməyəni danışmaq olmaz, rituala uyğun olmayanı etmək olmaz." Qədim Çin sosial psixologiyasının əsasını aşağıların yuxarılara, rituallara, taleyə itaətkarlığı təşkil edir.

**8.2. İntibah dövrünün** alimlərinin əsərlərində insana, onun ağlına və iradəsinə inam mərkəzdə dururdu. Bu dövrdə birinci növbədə N.Makiavellinin "Dövlət" əsəri böyük diqqətə layiqdir. Bu əsər, şübhəsiz, o dövrdə, sosial-psixoloji baxımdan aparıcı əsərlərdən biri idi. Bu əsərdə başqa şeylərdən əlavə, monarxın siyasi davranışının pardəarxası psixoloji mexanizmləri çox yaxşı açılmışdır. Makiavelli insanlar haqda, onların təbiəti haqda aşağı fikirdə idi. O, yazırdı: "İnsanlar naşükür, qeyri-stabil, yalançı və ikiüzlüdürlər. Onları ancaq varlanmaq düşündürür." Onlar məqsədlərinə çatmaq uğrunda hər vasitədən istifadə edirlər. "Məqsəd vasitələrə haqq qazandırır" sözləri Makiavelliyə məxsusdur. Makiavelliyə daha bir məşhur deyim də aiddir: "Rəhbər iki heyvana oxşamalıdır: şirə və tülküyə. Şir tələdən qorxur, tülkü isə canavarlardan. Tülkü kimi olmaq lazımdır ki, tələlərdən qaçasan, şir kimi olmaq lazımdır ki, canavarları qorxudasan." Makiavellinin "Dövlət" əsəri bu gün də fəaliyyətə yeni başlayan siyasətçilərin stolüstü kitabıdır.

**8.3. Maarifçilik dövründə** soial-psixoloji məsələrdən yazanlardan T.Hobbsu, C.Lokku, J.Russonu, Ş.Monteskyönü göstərmək olar.

T.Hobbsa görə insan təbiətinin əsas konflikti onun şöhrətpərəstliyi ilə təbii qorxusu arasındadır. Bu, çoxlu siyasi problemlər yaradır. O dövrdə belə fikirlərin geniş yayılmasına baxmayaraq, insanlar haqqında pozitiv fikirlər üstünlük təşkil edirdi. Məsələn, C.Lokka görə insan təbiəti etibarı ilə ağıllı, azad varlıqdır. O, belə hesab edirdi ki, ədalətli cəmiyyəti cəmiyyətin üzvləri arasında əldə olunan "ictimai müqavilə" əsasında qurmaq olar. Lakin qeyd etmək lazımdır ki, "ictimai müqavilə" (saziş) real həyatda möhkəmlənə bilməsə də, belə sazişə nümunə nadir də olsa nümunə göstərmək mümkündür. (Məsələn, İspaniyada "Monkloa paktı").

J.J.Russo bir az da irəli gedərək "bütün insanların az və ya şox dərəcədə ədalətli və xeyirxah olduqlarını" söyləyirdi. O, yazırdı ki, "vicdan insanın əsas ilahi instinktlərindən biridir."

Dövrünün görkəmli mütəfəkkirlərindən olan Ş.Monteskyö siyasi institutları və prosesləri təhlil edərək belə bir fikrə gəlir ki, kütlənin psixologiyası siyasi proseslərə əhəmiyyətli təsir göstərə bilir. Müasirlərindən fərqli olaraq Monteskyö təkcə siyasi-psixoloji fenomenləri təsvir etməklə kifayətlənməyib, onların meydana gəlmə səbəblərini də göstərmişdir.

**8.4. XIX əsridə siyasi psixologiya.** XIX əsrdə, fransız inqilabından sonra iki böyük siyasi-psixoloji problem diqqəti çəkdi: 1). kütlənin psixologiyası; 2). siyasi rejimlərin psixologiyası. Bu problemlərin tədqiqi üç böyük alimin - Q,Tard, Q,Lebon və Ş. Siqelenin adı ilə bağlıdır.

Q.Tard kütləyə "nə isə canlı bir şey (vəhşi, heyvani) kimi" baxmış və ona səbirsizlik, güc sahibi olmasını hiss etmək kimi xüsusiyyətləri aid etmışdir. Tarda görə iki cür kütlə mövcuddur: "diqqətli və gözləmə müvqeyi tutan" və "fəaliyyət göstərən və tələblər irəli sürən."

Ş.Siqeleyə görə "kütlədə hər şey ehtirasları qızışdıran və başqalarını emosiyaları ilə yoluxduran adamların sayından asılıdır." Başqalarından fərqli olaraq, o, daha konkret şeylərdən bəhs edirdi. Məsələn, əgər natiq coşmuş kütləni sakitləşdirmək istəyirsə, uğursuzluqla üzləşəcəkdir, çünki axırda dayanan insanlar onu eşitmədliklərindən onun jestlərini düzgün qavramayacaqlar.

Öz fikirlərini Q.Tardın və Ş.Siqelenin fikirləri üzərində quran Q.Lebon yazırdı: "Kütləyə daxil olan insan sivilizasiya şkalası ilə bir neçə dərəcə aşağı düşmüş olur." Q. Lebon şəxsiyyətə deyil, kütləvi hərəkətlərə (fəaliyyətə) üstünlük verən nəzəriyyələri qəbul etmirdi və bu səbəbdən də demokratiyanı və sosializmi kəskin tənqid edirdi. O, sosializmə nifrət edirdi. Sosializmin sosial-psixoloji təbiətini təhlil edən Lebon onu dini inancla müqayisə edirdi. Dini inanclarda imamlara uyğun olaraq Lebon sosialist "imamların" – rəhbərərin ümumıləşdirilmiş sosial-psixoloji portretlərini verirdi.

Siyasi rejimlərin sosial-psixoloji təhlilini verən Lebon xəbərdar edirdi ki, “iradəsiz, mənəviyyatsız, enerjisiz xalqlarda demokratiyanı acı nəticələr gözləyir, ... belə ki, onun sonu diktatura ilə nəticələnir.”

XIX əsrin ortalarında **Almaniyada “Xalqların psixologoyası”** adlı cərəyan meydana gəldi. Bu məktəbin yaradıcıları alman tədqiqatşıları M.Latsarus və X.Şteyntal olmuşlar. “Xalq psixologiyası” məktəbinin mərkəzi ideyası ondan ibarət idi ki, tarixin əsas gücü xalqdır və ya tarix “bütövün ruhudur”, hansı ki, psixologiyada, mədəniyyətdə, incəsənətdə, dində, dildə, miflərdə, adət-ənənələrdə təzahür edir. Fərdin şüuru bu bütövün məhsulu olub, ümumi sosial-psixoloji əlaqələrin bir halqasıdır. Bu məktəbin vəzifəsi xalq ruhunun mahiyyətini, onun ruhi həyatının qanunlarını açmaqdan ibarət idi. Bu ideyaların mənbəyini Hegelin, Herbartın, Leybnisin fikirləri təşkil edirdi.

Daha sonralar V.Vundt bu ideyaları inkişaf etdirmiş və sistemləşdirmişdir. O, “xalq psixologiyasına” daha real baxmış və dilləri, mifləri, adət-ənənələri öyrənən empirik proqram təklif etmişdir.

“Xalq psixologiyası” məktəbinin xidməti ondan ibarət idi ki, o, xalqların psixologiyasının öyrənilməsində milli-psixoloji problemləri üzə çıxarırdı və onların həllində başqa elmlərin - psixologiyanın və tarixin, etnoqrafiyanın və linqvistikanın nailiyyətlərindən istifadə edirdi.

Mövzuya aid suallar və tapşırıqlar:

1. Qədim Yunanıstanın və Romanın siyasi psixologiyanın inkişafına təsirini izah edin.
2. İntibah və maarifçilik dövründə siyasi-psixoloji ideyaların vüsət almasının səbəblərini göstərin.
3. XIX əsrin kütlə psixologiyasının mahiyyəti nədən ibatətdir?

Ədəbiyyat:

1. Макиавелли Н. Государь. М., Планета, 1990, с.50-54

2. Макиавелли Н. История Флоренции. Л., 1973, с.99-100
3. Монтескье Ш. Персидские письма. Письмо LXXX. Элиста, 1988, с.148-205
4. Ольшанский Д.В. Политическая психология. СПб.:Питер, 2002, с.100-111
5. Фролов Э.Д. Огни Диосскуров. Античные теории переустройства общества и государства. Л.:1984, с.30-68
6. Ротенбург В.И. Жизнь и творчество Макиавелли. Д.: 1973.
7. Шестопал Е.И. Политическая психология. ИНФРА-М, 2002, с.29-35

## IX mövzu
## Z.Freydin psixoanalizi və
## XX-XXI əsrlərdə siyasi psixologiya

**Qısa məzmun. Z.Freydin psixoanalizi** və siyasi psixologiya. Siyasi psixobioqrafiyalar və psixotarixi metod. Kütlə fenomenin izahı.

**Çikaqo məktəbinin formalaşması.** Q.Lassuelin siyasi-psixoloji görüşləri. Siyasi psixologiyanın inkışafında Q.Lassuel yaradıcılığının rolu. Siyasi psixologiyanın bir elm kimi formalaşması.

**Siyasi psixologiyanın müasir vəziyyəti** və əsas istiqamətləri.

**9.1. Z.Freydin psixoanaliz nəzəriyyəsi** siyasi psixologiyanın inkişafına əhəmiyyətli təsir göstərmişdir. Psixoanaliz insanın strukturunda irrasional komponentləri önə çəkir və insanın inkişafında onun rolunu ifrat dərəcədə şişirdir. Nevrozların izahı və müalicəsi kimi meydana gələn bu təlim getdikcə insan, cəmiyyət və mədəniyyət haqqında ümumi konsepsiyaya çevrilmiş və böyük təsir gücünə malik olmuşdur. Yarandığı vaxtdan böyük tənqidə məruz qalmış, sonralar öz zirvəsini yaşamış, daha sonralar, hətta öz nümayəndələri tərəfindən də tənqid edilmiş və iflasa uğradığı etiraf edilmişdir, bir müddət, necə deyərlər, "dəbdən düşmüş" və adiləşmişdir. Müasir dövrdə baş verən dəyişikliklərlə, məhz siyasi dəyişikliklərlə bağlı yenidən diqqətə gəlmişdir.

Z.Freyd belə qənaətə gəlir ki, bir çox xəstəliklərin səbəbi şüurdan sıxışdırılıb çıxarılmış və xəstə tərəfindən dərk olunmayan qeyri-şüuri komplekslərdir. Belə qənaət əsasında o, insanın davranışında qeyri-şüuri sahəni şəxsiyyətin strukturunda əsas - mərkəzi yerə qoyurdu. Şüurun strukturunda şüuraltı, şüurönü və şüuru ayırd edən Z.Freyd şəxsiyyətin strukturunda İdi, Eqonu və Surer-Eqonu aylrd edirdi. Z.Freydə görə insan davranışının əsasında onun şüursuz istinktiv motivlərinin (Eros və Tanatos) və Eqo, Super-Eqo-su ilə İd arasındakı mübarizə dayanır. Z.Freyd şəxsiyyətin və qrupların siyasi davranışına da psixoanaliz baxımından yanaşırdı. O, kütlənin psixologiyasından danışanda oradakı insanın hipnoz halında olduğunu göstərirdi. Bu zaman onun psixikasının dərinliklərindən Super-Eqonun nəzarət edə bilmədiyi İd baş qaldırır və onlar arasında balanslaşdırıcı rolunu oynayan Eqo tarazlığını itirir. Insan şüurun nəzarətindən çıxır, başqalarına məxsus fikir və affektlərlə yaşayır, onda şüursuzluq halları dominantlıq təşkil edir. Nəticə etibarılə insan hər cür gözlənilməz hərəkətlər etməyə meylli olur. Bunun əsasında seksual enerjidən ibarət olan “kollektiv libido” dayanır. Z.Freyd həyatda iki yüksık şəkildə təşkilatlanmış süni kütlənin olduğunu göstərirdi: kilsə və ordu. Kilsə və ordu “kollektiv libidoya” malikdirlər. Z.Freydin fikrincə bunların hər ikisinin əsasında libido durur: Xristosa olan sevgi və rəhbər-hərbçiyə olan sevgi. O,yazırdı: “Kütlədəki insan bir tərəfdən rəhbər-hərbçi ilə, digər tərəfdən kütlənin üzvləri ilə libidioz əlaqələrə malik olur. Əgər rəhbərlə olan bu əlaqə pozularsa, kütlə dağılacaqdır.” Kütlədəki insanlar tərəfindən liderin ideallaşdırılması nəticəsində onlarda identifikasiya yaranır. “Kütlənin rəhbəri onların atası rolunda çıxış edir...insanların hamısı ona qarşı qorxu hissi yaşayır. Kütlə avtoritet axtarır, o, idarə olunmaq istəyir,... Rəhbər hipnozçudur: o, öz metodlarından istifadə edərək subyektdə arxaik irsi oyadır.., uşaqda valideynə qarşı, ibtidai dövrdə ulu atasına qarşı münasibətdə təzahür edən (qorxu və sevgi) hisslərini....”

Insanın psixoloji təbiətini təhlil edən Z.Freyd belə qənaətə gəlirdi ki, fərdlə cəmiyyətin məqsədləri prinsip etibarı ilə heç vaxt üst-üstə düşmür. Freydə görə sivilizasiyanı inkişaf etdirən Eros əvvəl ayrı-ayrı insanları, sonra ailələri, irqləri, xalqları, millətləri libidioz əlaqələrlə böyük birliklərdə birləşdirir. Lakin insanda

olan Tanatos (ölüm Allahı) başlanğıcı dağıdıcı gücə malikdir və sivilizasiyaya qarşı aqressiv, destruktiv münasibətdədir. Cəmiyyət belə aqressiv instinktlərə nəzarət etməli, lazım gələrsə onları məhv etməlidir, bu rolu Super-Eqo Equnun köməkliyi ilə yerinə yetirir. Bu da öz növbəsində insan psixikasına destruktiv təsir göstərir.

Belə destruktivlik, Freydin fikrincə, insanın özünə və başqalarına qarşı münasibətində sadizm və mazaxizm şəklində üzə çıxır və nevrozla nəticələnir.

Z.Freyd sosial həyatda, konkret olaraq siyasətdə kütlə fenomenini "reqressiv halət" kimi qiymətləndirirdi.1933-cü ildə nasistlər hakimiyyətə gələndə Berlində Freydin əsərlərini yandırdılar. Bu xəbəri eşidən Freyd demişdir: "Necə böyük proqresdir – orta əsrlər olsa idi onlar məni yandırardılar, indi isə əsərlərimi yandırmaqla kifayətlənirlər." Lakin o, heç ağlına gətirə bilməzdi ki, cəmi bir neçə il keçəcək və Osvensim və Maydaneka düşərgələrində milyonlarla insan, o cümlədən onun dörd bacısı da kütləvi şəkildə yandırılacaqlar.

Z.Freydin elmə gətirdiyi yeniliklərdən biri də psixobioqrafik və psixotarixi metodlardır. Bu metodların köməyi ilə ayrı-ayrı şəxsiyyətlərin siyasi-psixoloji keyfiyyətləri və tarixi proseslərin gedişatının psixoloji səbəbləri haqqında biliklər əldə etmək mümkündür. Z.Freyd (Uilyam Bullitlə birgə) psixobioqrafik metodla ABŞ-nın 28-ci prezidenti olan Vudro Vilsonu psixoloji təhlil etmişdir. Z.Freyd onun simasında fanatikliyi və infantilizmi pisləmişdir. Bundan başqa 1943-cü ildə U.Langer Hitlerin, sonralar isə dugər psixoloqlar, demək olar ki, Amerikanın bütün prezidentlərini psixobioqrafik metodla təhlil etmişlər. Psixoanalizin zəminində psixotarixi metod inkişaf etdi. Bu metodun tətbiqi Z.Freyddən başlasa da, sonralar əsasən onun tələbələri olan K.Yunq və E.Fromm tərəfindən inkişaf etdirilmişdir. Psixotarixi metod psixobioqrafik metoda oxşar olub, belə demək mümükünsə, tarixin, epoxanın tərcümeyi-halını təhlil edir.

**9.2. Çikaqo məktəbinin formalaşması.** Siyasi psixologiya elminin tarixində Çikaqo məktəbinin əhəmiyyətli yeri vardır. O, 1920-ci illərdə Çikaqo universitetinin siyasi elmlər fakültəsində bir sıra tədqiqatçı tərəfindən yaradılmışdır. Onların nəzəri-metodoloji yanaşmasının əsasında Z.Freydin psixoanalizinin və C.B.Uotsonun biheviorizminin əsas ideyaları dururdu.

Çikaqo məktəbinin görkəmli nümayəndələri kimi Ç.Merriamı, X,Qossnelli, Q.D.Lassueli, L.Uaytı, E.Froyndlı və başqalarını göstərmək olar. Çikaqo məktəbi fəal surətdə irqlərarası qarşılıqlı münasibətləri, kütləvi kommunikasiyaları, həyat tərzlərini tədqiq edirdi. Çikaqo məktəbinin əsas xidmətlərindən biri siyasi psixologiyada metodoloji dayaq rolunu oynayan "siyasətə davranış yanaşması" nəzəriyyəsini işləyib hazırlamağı oldu. Bu nəzəriyyə özündə siyasi, psixoloji və sosialoji bilikləri birləşdirərək siyasəti konstruktiv-praqmatik dəyərləndirdi.

Çikaqo məktəbinin inkişafında Q.Lassuellin görüşlərinin böyük rolu olmuşdur. Q.Lassuel Freydin tələbəsi olmuşdur. O, ilk dəfə psixoanalizlə (daha dəqiq desək, psixopatologiya ilə) tətbiqi siyasi elmləri birləşdirməyə cəhd etmişdir. Bu əsasda yaranan hipotez aşağıdakı kimi səslənir: Siyasətçi öz deprivasiyasını kompensasiya etmək (*deprivasiya* orqanizmin sensor və sosial tələbatlarının ödənilməməsidir) üsulu kimi hakimiyyətə can atır, o, "elə ehtimal edir ki, (şüursuz şəkildə) hakimiyyət onun aşağı özünüqiymətləndirməsinin öhdəsindən gəlmək üçün ən yaxşı vasitədir." Qeyd edək ki, Q.Lassuelə qədər Z.Freydin digər tələbəsi A.Adler "komplekslər" nəzəriyyəsini yaratməş və onu siyasi həyata tətbiq edərək göstərmişdir ki, insanlar öz daxili komplekslərini kompensasiya etmək üçün siyasətə gəlirlər. Q.Lassuel bu fikirlərlə tanış idi. Lakin ilk dəfə o, siyasətə gəlişin səbəbi kimi aşağı özünüqiymətləndirməni önə çəkdi. Tədqiqatçının fikrincə daxilən pozulmuş psixikanın təmin edilməsi fərdin siyasətə gəlişinin motivi kimi çıxış edir. Q.Lassuel bu fikirlərini "Psixopatologiya və siyasət" əsərində geniş şərh etmişdir. Q.Lassuelə görə belə daxili problemdən əziyyət çəkən insan üçün siyasət ən yüngül və effektli çıxış yoludur. Öz nəzəriyyəsini yekunlaşdıran Q.Lassuel belə nəticəyə gəlir ki, "bütün insanlar siyasətçi kimi doğulurlar, lakin sonra əksəriyyəti yekəlib bundan (bu vəziyyətdən ) çıxırlar. Insanın siyasətə kəskin istəyi uşaqlığın qurtarmadığını göstərir."

Q.Lassuel təsvir etdiyi siyasi tipi (həm də nəzəriyyəsinin mahiyyətini) aşağıdakı düsturla ifadə edirdi: $P = Pf\ DfR$ - burada P-siyasi insan; P-şəxsi motivlər; D-ictimai obyektlər; R-rasionallaşma; *f*-transformasiya prosesini bildirir. Yəni Lassuelə görə: "Siyasi adam elə şəxsi motivlərə malikdir ki, onları ictimai

obyektlərə yönəldərək öz siyasi maraqlarını ictimai maraqlardan keçirərək rasionallaşdırır.”

Kütləni tədqiq edən Q.Lassuel belə qənaətə gəlmişdir ki, kütlə hərəkatları şəxsi affektlərin cəmiyyətə köçürülməsi sayəsində mümükün olur. Bu zaman insanlarda əvvəlcədən mövcud olan primitiv motovlər baş qaldırır. Onun fikrincə məhz “qarışıq” dövrlərdə “insannın və cəmiyyətin reqressiv primitiv meylləri – sadizm və ehtirasları oyanır...”

Q.Lassuelin əsərlərinin təhlili onu göstərir ki, o dövrdə hələ siyasi psixologiyanın adı bir elm kimi çəkilməsə də Q.Lassuel sırf siyasi psixoloji problemlərlə məşğul olmuş, yeni ideyalar irəli sürmüş və haqlı olaraq o, siyasi psixologiyanın banilərindən biri hesab olunur.

**9.3. Müasir siyasi psixologiya.** 1960-cı illərdə ABŞ-da siyasi psixologiya geniş vüsət aldı. O dövrdə biheviorizm o qədər inkişaf etmişdi ki, hətta psixoanalizi sıxışdırıb səhnədən çıxarmışdı. “Davranış yanaşması” siyasi psixologiyanın inkişafı üçün çox əlveişli idi. 1968-ci ildə Amerika Siyasi Elmlər Assosiasiyasında (*Amerikan Association of Political*) müstəqil olaraq siyasi psixologiya şöbəsi (*Research Committee in Political Psychology*) yaradıldı. 1978-ci ildə isə onun əsasında Beynəlxalq siyasi psixologiya cəmiyyəti (*İnternational Society of Political Psychology, ISPP*) yaradıldı. Hal-hazırda onun 1000-ə yaxın tədqiqatçısı müxtəlif ölkələrdə fəaliyyət gösrərir. Onlardan ABŞ və Kanadada fəaliyyət göstərən tədqiqatçılardan M.Hermanı, R.Siqeli, D.Sirsi, S.Renşonu, F.Qrinstaynı, A.Corcu, R.Takeri, T.Adornonu və başqalarını, Almaniyadan A.Aşkenazini, P.Şmidti, Q.Ledereri, X.-D.Klinqemannı, Fransada A.Perşeronu, C.Moskoviçini, Böyek Britaniyadan H.Heytsi, M.Billinqi,A.Samueli göstərmək olar.

78 ölkənin universitetlərində  siyasi psixologiya kursları keçirilir. Siyasi psixologiyanın əldə etdiyi nailiyyət kimi 1973-cü ildə C.Knutsun redaktorluğu ilə çapdan çıxan “Handbook of Political Psycholoji” kollektiv monoqrafiyasını və 1986-cı ildə M.Hermannın redaktorluğu ilə işıq üzü görmüş “Political Psycholoji: Contemporary İsseues” monoqrafiyasını göstərmək olar. Bundan başqa Tətbiqi sahələrdə də siyasi psixologiya xeyli nailiyyətlər əldə etmişdir. Onlardan konflikt

situasiyaların həll edilməsində, məsələn, Karib böhranı zamanı, İzraillə Misir arasında Kemp-Devid razılaşmasını, 1999-cu ildə tərtib olunan psixoloji portet sayəsində (psixoloq Cerri Post) Nyu-Yorkda partlayışlar törədən cinayətkarın tutulmasını, Avropada və Amerikada siyasi liderlərin parlament və prezident seçkilərinə hazırlıq mərhələsində psixoloqların xidmətlərini göstərmək olar.

Son ədəbiyyatın təhlili siyasi psixologiyada müxtəlif yanaşmalarln olduğunu deməyə imkan verir. Belə müxtəlifliyə baxmayaraq, onları iki böyük qrupda birləşdirmək olar: pozitivist və antipozitivist. Aparılan təhlili ümumiləşdirərək demək mümkündür ki, bu gün siyasi psixologiya beş əsas istiqamətdə inkişaf edir:

1.Siyasi sosiallaşma problemləri üzrə;

2.Siyasi fəaliyyətin siyasi şüurla əlaqəsi problemi;

3.Siyasi hakimiyyət və vətəndaş cəmiyyəti problemi;

4.Siyasi lider problemi;

5.Konkret siyasətin ümumi siyasi mədəniyyətlə əlaqəsi problemi

Mövzuya aid suallar və tapşırıqlar:

1. Z.Freydin psixoanaliz nəzəriyyəsinin siyasi psixoloji fenomenlərin mahiyyətinin izahındakı rolunu izah edin.

2. Psixobioqrafik və psixotarixi metodların mahiyyətini izah edin.

3. Siyasi psixologiya tarixində Q.Lassuelin rolu.

4. Müasir siyasi psixologiya hansı istiqamətlərdə inkişaf edir?

Ədəbiyyat:

1.Гаджиев К.С. Политическая философия. М., 1999

2. Ольшанский Д.В. Политическая психология. СПб.:Питер, 2002, с.119-126; 132-134

3. Фрейд З., Буллит У. Томас Вудро Вилсон. 28-й президент США. Психологическое исследование. Москва, Прогресс, 1992

4. Фрейд З. Массовая психология и анализ человеческого «Я». Кн.1. Тбилиси, Мецниереба, 1991, с.94-97; 113-123

5. Фрейд З. Психоаналитические этюды. Минск, Попурри, 1996, с. 370-525

6. Чулков Г.И. Императоры. Психологические портреты. М., Планета, 1991

7. Шестопал Е.И. Политическая психология. ИНФРА-М, 2002, с.29-50
8. Lasswell N.D. Power and Personality/ -N-Y: Free Press, p.20-25; 161-265

## X mövzu

## İnsan və siyasət

## Şəxsiyyətin siyasi psixologiyası

**Qısa məzmun. İnsan və siyasət.** İnsana obyektiv və subyektiv yanaşmalar. **Siyasi sosiallaşma:** fərd, fərdiyyət, şəxsiyyət. Siyasi sosiallaşmanın mexanizmləri: ümumsosial, sosial-psixoloji və fərdi.

**Siyasi sosiallaşmanın mərhələləri**: Birinci mərhələ: uşaq və yeniyetməlik dövrü; İkinci mərhələ: uşağın məktəbə getməsi; Üçüncü mərhələ: yeniyetməlik dövrü. Siyasi təfəkkür siyasi şüurun əsas elementi kimi. Siyasi şüurun əsas elementi olan siyasi təfəkkürün genezisi. C.Adelsonun tədqiqatları. Siyasi təfəkkürün xüsusiyyətləri.

**Siyasi sosiallaşmanın üç sistemi**: birbaşa, məqsədli sosiallaşma; qeyri-formal birliklər; autososializasiya – özünütərbiyə və özünütəhsil. Siyasi sosiallaşmanın nəticələri: siyasi fəallıq, siyasi passivlik, siyasi özgələşmə.

**Siyasi iştirak**: vətəndaş mövqeyi. Siyasi iştirakın əsas motivləri.

**10.1.** Son dövrlərdə siyasətdə şəxsiyyət problemi tədqiqatçıların diqqətini daha çox cəlb edir. Lakin bu, həmişə belə olmayıb. Əvvəllər politoloqların hədsiz təsiri altında olan psixoloqlar “ obyektiv elm ” qurmağa çalışırdılar. Buna görə də subyektiv obyekt olan - şəxsiyyət lazımı qədər öyrənilməmişdir. Artıq görkəmli şəxsiyyətlər, dövlət və ictimai xadimlər, siyasi şəxsiyyətlər, xüsusilə də liderlər ətraflı şəkildə tədqiq olunur və onların tarixə göstərdikləri təsir öyrənilir. Lakin bu zaman “ parlaq “şəxsiyyətlər, görkəmli siyasətçilər öyrənilirdi, “sıravi” insan onun siyasi mənada şəxsiyyət kimi necə formalaşması diqqətdən kənarda qalırdı.

**Siyasi sosializasiya: fərd, fərdiyyət, şəxsiyyət.** Aydındır ki, insan nə filosof, nə siyasətçi kimi, yəni şəxsiyyət kimi doğulmur. Dövlət və ya cəmiyyət onu tərbiyə edib, şəxsiyyət kimi formalaşdırır. Şəxsiyyət dəyərləri və məqsədləri qəbul etməli, qəbul etdiyi normalara uyğun olaraq sosial-siyasi rollarını düzgün yerinə

yetirmək bacarığına malik olmalıdır. Bütün bunlara insan siyasi sosializasiya prosesində yiyələnir. Geniş mənada sosializasiya əvvəlki nəsillərin mədəniyyətdə möhkəmlənmiş təcrübəsini mənimsəmək, qəbul etdiyi sistemin sosial rollarına yiyələnməklə insanın şəxsiyyətə çevrilmə prosesidir.

İngilis dilində *personality* (tərcümədə şəxsiyyət) maska mənasını verir. Əgər insan maskasını dəyişib sosial rolları oynaya bilirsə, deməli, o şəxsiyyətdir. Əgər bacarmırsa, deməli, sosializasiya prosesi hələ başa çatmayıb. Ümumi psixologiyada insanın inkişafında üç mərhələ ayırd edilir:

1. fərd;
2. fərdiyyət;
3. şəxsiyyət.

İnsan doğulanda fərd kimi doğulur. Sosializasiya prosesində şəxsiyyətə çevrilir. Fərdiyyət isə şəxsiyyətin keyfiyyətlərinin özünəməxsus şəkildə birləşməsinin məcmusudur.

**Siyasi sosiallaşma anlayışı.** Siyasi sosiallaşma siyasi sistemin təcrübəsi əsasında yaranan dövlətin siyasi mədəniyyətdə möhkəmlənmiş təcrübəsinin fərd tərəfindən mənimsənilməsi prosesidir. Yəni, insanın onu vətəndaşa çevirən sistemə uyğunlaşmasıdır. Fərdin siyasi sistemlə qarşılıqlı təsiri iki istiqamətdə baş verir. Bir tərəfdən sistem ona daxil olan insanları öyrədir, özünə uyğunlaşdırır, və beləliklə özünü istehsal edir. Siyasi sistem siyasi dəyərlərin və məqsədlərin saxlanılması rolunu oynayır. Siyasi sistem siyasətin nəsillərdən nəsillərə ötürülməsini təmin edir. O biri tərəfdən, qarşılıqlı təsir nəticəsində siyasi sistemin dəyərləri fərdi psixikanın stukturuna köçürülür. Onlar şəxsiyyətin siyasi xüsusiyyətlərinə çevrilir. Yəni, onun siyasi maskası olur. Nəticə etibarilə siyasi sosiallaşma siyasi şüuru və siyasi davranışı formalaşdırır. Siyasi sosiallaşma siyasi tərbiyə anlayışından daha genişdir. O özündə təkcə hakim siyasi institutların və siyasi proseslərin insana təsirini deyil, həm də sistemdən kənar (stixiyalı) qurumları birləşdirir. Bundan başqa siyasi sosiallaşma insanın onu əhatə edən siyasi dünyaya yönəlmiş aktivliyini də ehtiva edir.

**Siyasi sosiallaşmanın mexanizmləri bir** neçə mərhələdə baş verir. Ümumuiyyətlə, ümumsosial, sosial - psixoloji və fərdi mexanizmləri ayırd edirlər.

Ümumsosial səviyyədə insana saysız-hesabsız makrososial və makro siyasi faktorlar təsir edir. İnsan onları dəyərləndirir və bu əsasda özündə cəmiyyətə və onun siyasi sisteminə münasibət formalaşdırır.

Sosial-psixoloji səviyyədə cəmiyyətin siyasi məqsəd və dəyərləri fərdin daxil olduğu böyük və xüsusilə kiçik qruplar vasitəsilə insana translyasiya olunur. İnsanın siyasi sistemin elementləri ilə belə birbaşa ünsiyyəti onda başqa adamlara emosional münasibət formalaşdırır.

Fərdi səviyyədə fərdi-psixoloji strukrurlar siyasi sosiallaşmanın mexanizləri kimi çıxış edir ki, bunların əsasında sonralar siyasətdə insanın şüurunu və davranışını idarəedəcək tələbatları və motivləri, yönəlişlik və stereotipləri formalaşır.

**10.2. Siyasi sosiallaşmanın əsas mərhələləri** insanın yaş xüsusiyyətləri ilə bağlıdır. **Birinci mərhələdə** uşaqlıq dövründə siyasi sosiallaşmanın ilkin əsasları qoyulur. Müasir cəmiyyətdə 3-4 yaşındakı uşaq ailəsindən, onu əhatə edən yaxın adamlarından və KİV-dən siyasət haqqında müəyyən informasiya alır. Belə informasiya uşaq tərəfindən dərk olunmur, mənalandırılmır, ancaq uşağın alt şüuruna təsir edərək öz nəticələrini verir. Uşaq məktəbə gedəndə **ikinci mərhələ** başlayır. Məktəb yaşında siyasətə şüurlu münasibət başlayır. **Üçüncü mərhələ** olan yeniyetməlik dövründə uşaqlara həm də qeyri-formal qruplar və ümumiyyətlə, gənclik subkulturası təsir edir.

**Siyasi şüurun əsas elementi olan siyasi təfəkkürün genezisi.** C.Adelson əsərlərində siyasi şüurun əsas elementi olan siyasi təfəkkürün genezisini izləmişdir. 1960-cı ildə o, ilk dəfə olaraq J.Piajenin uşaq şüurunun yaş dəyişiklikləri ideyasını siyasi təfəkkür timsalında yoxlamışdır. C.Adelson və onun komandası AFR-də, İngiltərə və ABŞ-da 11-18 yaş arasında olan uşaqların siyasi təfəkküründə baş verən dəyişiklikləri izləmişdir. Aydın olmuşdur ki, siyasi təfəkkür müxtəlif yaşlarda müxtəlif cür və müxtəlif xüsusiyyətlərə malik olur. **Birinci xüsusiyyət:** 11-13 yaşında böyük sürətlə siyasi təsəvvürlər formalaşır. **İkinci xüsusiyyət:** 16-18 yaşında inkişafın sürəti azalır.

11 yaşlı uşaqların təfəkkürü personalitik və eqosentrikdir. Eksperimentlər göstərmişdir ki, “təhsil” dedikdə onlar ancaq müəllimi və məktəb direktorunu nəzərdə tuturlar. “Qanun” dedikdə polisi, cinayətkarı, məhkəməni, “hökumət” dedikdə karalevanı, naziri nəzərdə tuturlar.

15 yaşından etibarən uşaqlar mücərrədləşdirmə, formal məntiqi təfəkkürə malik olurlar. C.Adelson belə qənaətə gəlir ki, insanın ümumi koqnitiv inkişafına uyğun olaraq onun siyasi təfəkkürü də dəyişir - mücərrəd səviyyəyə çatır. Siyasi təfəkkürün əsas xüsusiyyəti zamanla bağlıdır. Yeniyetmə uşaqdan fərqli olaraq keçmişdə baş verən siyasi hadisələrin bu günə və gələcəyə ola biləcək təsirini dərk etməyə başlayır. Yəni o, səbəb-nəticə əlaqələrini dərk etməyə başlayır.

**Üçüncü xüsusiyyət** sosiosentrizmdir. Yeniyetmə siyasi hadisələrin göstərdiyi nəticəni ayrı-ayrı insanlara görə qiymətləndirə bilir. O, hələ siyasi hadisələrin qrup və cəmiyyət üçün əhəmiyyətini dərk etmir. **Dördüncü xüsusiyyət:** mühakimələrin xarakterinin dəyişməsi. Yeniyetməliyin ilk mərhələlərində fərd hissi, praqmatik təfəkkürə malik olur. Sonralar o, deduksiya qabiliyyətinə malik olur. **Beşinci xüsusiyyət** biliklərin həcminin çoxalmasıdır. Bu zaman fərd siyasi bilikləri, ənənəvi siyasi görüşləri, stereotipləri sürətlə qavrayır. **Altıncı xüsusiyyət** - prinsiplərin yaranması. Yeniyetməlik dövrünün ortalarında uşaqda etik–siyasi prinsiplərin şəxsi avtonom sistemi yaranır. Uşaq siyasəti qiymətləndirərkən öz mühakimələrində prinsipial mövqe nümayiş etdirə bilir. **Yeddinci xüsusiyyət** - uşaq avtoritarizminin aşağı düşməsi. 11-12 yaşında uşaq qanuna, dövlətə tabe olmağı təbii sayır. 14-15 yaşında isə uşaq tənqidi fikrə malik olur. **Səkkizinci xüsusiyyət** - sosial məqsədlərin yaranması. Yeniyetmələrin əksəriyyəti utopik və idealist məqsədlərə tənqidi yanaşır, onlarda sosial məqsədlər yaranır.

Siyasi sosiallaşma müxtəlif formalarda insanın ömrü boyu baş verir.

**10.3. Siyasi sosiallaşmanın əsas sistemləri.** Siyasi sosiallaşmanın üç sistemi vardır və onlar insana kompleks şəkildə təsir edirlər:

1 .Birbaşa. Məqsədli sosializasiya. Buraya dövlət qurumları, siyasi institutlar, partiya, təşkilatlar və ictimai hərəkatlar daxildir.

2. Qeyri-formal birliklər. Onlar hakim siyasi mədəniyyətə konturkultur mövqedədirlər.

3. Özünütərbiyə və özünütəhsil – autososializasiya. Bu sistem subyektin aktivliyini, müstəqilliyini əks etdirir.

**Siyasi sosiallaşmanın nəticələrinin** aşağıdakı üç variantını nəzərdən keçirək:

1. Siyasi fəallıq - siyasi və ya siyasi-iqtisadi, sosial-siyasi institutları inkişaf etdirmək və ya dəyişmək məqsədilə siyasi qrupların və ya fərdlərin fəaliyyətidir.

2. Siyasi passivlik – siyasətə qarşı laqeydlik, siyasi həyatda iştirak etməmək. Siyasi passivlik cəmiyyətin bu və ya başqa təbəqələrinin siyasi inkişaf etməməsini göstərir.

3. Siyasi özgələşmə - siyasi həyatın həddən artıq bürokratikləşməsinin siyasi-psixoloji nəticəsi kimi meydana gəlir. Hələ M.Veber göstərirdi ki, bürokratizm insanın təşəbbüskarlığını və azadlığını boğur, onu təşkilatın və ya dövlətin sadəcə icraçısına çevirir. Nəticə etibarilə sıravi vətəndaş hakimiyyətin subyektinə çevrilə bilmir və qəbul olunan qərarlara təsir edə bilmir.

**10.4. Siyasi iştirak: vətəndaş mövqeyi.** Siyasi iştirak - özündə sosial siyasi prosesləri əks və təzahür etdirən real davranışdır. Siyasi iştirak onu göstərir ki, siyasi sistem fərdi ələ ala bilib, yoxsa yox.

Vətəndaşların siyasətdə könüllü sürətdə iştirak etməsi siyasi sistemlərin vəziyyətini, onlarda demokratiyanın səviyyəsini göstərir. İnkişaf etmiş ölkələrdə belə iştirak ümumi xarakter daşıyır. Siyasətdə iştirak vətəndaşlar üçün öz məqsəd və maraqlarına çatmaq, özünü təsdiqetmə tələbatlarını ödəmək üçün bir vasitədir.

**Müxtəlif sistemlərdə siyasi iştirakın xüsusiyyətləri:**

1. Avtoritar cəmiyyətlərdə elə situasiya yaradılır ki, əhalinin müəyyən hissəsi siyasətdə iştirak etməkdən uzaqlaşdırılır. Belə cəmiyyətlərdə "bir çoxlarının hakimiyyəti" qələbə çalır.

2. Totalitar cəmiyyətdə elə şərait yaradılır ki, əhali guya siyasətdə iştirak edir. Buna kvaziiştirak deyilir. Bu zaman kütlələr hakim rejimi dəstəkləmək üçün ritual hərəkətlər edirlər.

3. Demokratik cəmiyyətdə elə şərait yaradılır ki, insanlar şüurlu şəkildə siyasətdə iştirak etsinlər. Demokratik cəmiyyətdə müəyyən etiraz formalarına yer verilir və hesab edilir ki, onlar cəmiyyəti inkişaf etdirirlər.

**Siyasi iştirakın əsas motivləri:**

1.Bəzi insanlar üçün siyasət sadəcə maraq kəsb edir.

2. İdrak motivləri – siyasi sistem insana dünyanın sabit mənzərəsini yaratmağa kömək edir. Siyasi biliklər insanlara başqaları üzərində öz üstünlüyünü hiss etdirir.

3. İnsanlar üzərində hakim olmaq motivi.

4. İdeoloji motiv –bu zaman insanın öz dəyərləri siyasi sistemin ideolji dəyərləri ilə üst-üstə düşür və o ideya dəyərlərini gerçəkləşdirmək istəyir.

5. Dünyanı dəyişmək motivi. Bu, dünyanın təkmil olmamasından irəli gələn güclü motiv olub onu yaxşıya doğru dəyişməyə yönəlib. Adətən belə motiv siyasətlə peşəkar məşğul olmaq istəyənlərdə olur.

6. Ənənəvi motiv. Bəzən insanlar siyasətdə ona görə iştirak edirlər ki, belə qəbul olunub, onların qohumları, dost- tanışları belə edirlər.

7. Merkantil motivlər- unutmaq lazım deyil ki,siyasət də başqa sahələr kimi ödənişli əməkdir.

8. Yalançı motivlər. Bu kvazemotivlər olub, bəzi şüarları təbliğ edir.

Siyasi içtirakın əsas formaları bunlardır: mobil iştirak və immobil iştirak.

**Mobil iştirak:**

a. Müşahidəçinin sadə reaksiyaları;
b. Seçkilərdə hüquqların həvalə edilməsi;
c. Cəmi bir dəfə siyasi strukturların tapşırığını yerinə yetirmək;
d. Siyasi strukturların daimi üzvü olmaq;
e. Etiraz aksiyalarında periodik olaraq iştirak etmək;
f. Qeyri-institut strukturlarda idarəedici (rəhbər) fəaliyyət.

**İmmobil iştirak:**

1. Tam siyasi passivlik;
2. Siyasətin bürokratikləşməsi kimi özünütəcrid;
3. Siyasi sistemin qəbul edilməməsinin nəticəsi kimi apatiya;

4. Düşmən sistemi şüurlu şəkildə baykot etmək.



Cədvəl 10.1. Siyasi iştirakın formaları

Mövzuya aid sual və tapşırıqlar:

1. Siyasi sosiallaşma nədir?

2. Fərd, fərdiyyət, şəxsiyyət anlayışlarını izah edin

3 .Siyasi sosiallaşma hansı mexanizmlərlə həyata keçir?

4 .Siyasi sosiallaşmanın mərhələlərini sadalayın.

5. C.Adelsona görə siyasi təfəkkürün hansı xüsusiyyətləri vardır?

6. Siyasi sosiallaşmanın hansı sistemləri vardır?

7. Siyasi iştirak nədir və onun hansı xüsusiyyətləri vardır?

8. Siyasi iştirakın motivlərini izah edin.

Ədəbiyyat:

1.Azərbaycanı qələbələrə aparan lider. Bakı, 2004, I kitab

2.Azərbaycanı qələbələrə aparan lider. Bakı, 2004, II kitab

3.Böyük insan haqqında. Bakı, 2004

4.Heydər Əliyev. XXI əsrin və üçüncü minilliyin ayrıcında; AR Prezidenti H.Əliyevin Azərbaycan xalqına müraciəti. Bakı, 2001
5.Axundova E. Heydər Əliyev. Şəxsiyyət. Zaman. Bakı, 2002
6.Xəlilov S. Lider. Dövlət. Cəmiyyət. Bakı, 2001
7.Naxçıvanlı A. Siyasətin fəlsəfi problemləri. Bakı, 1998
8.Böyük insan haqqında. Bakı, 2004
9. Вятр Е. Социология политических отнощений. М., Прогресс, 1979, с.98-154
10.Ольшанский Д.В. Политическая психология. СПб.:Питер, 2002, с.142-161;
11. Шестопал Е.И. Политическая психология. ИНФРА-М, 2002, с.256-261; 273-282
12.Шестопал Е.Б. Личность и политика. М., Мысль, 1988, с. 54-91
13. Adelson J., Green B., O-Neil R/ Grouwth of idea of low in adolescence//Developmental Psycholocy. N-1, 1969, p.195-332

## XI mövzu

## Siyasi təşkilatlanma.

## Liderin meydana gəlməsi

**Qısa məzmun. Siyasi təşkilatlanma**: liderin meydana gəlməsi. **Liderliyin üç səviyyəsi**: Kiçik qrupun lideri: işgüzar lider, itellektual lider, ünsiyyət lideri; İctimai hərəkatın, təşkilatın lideri; Siyasi lider**.**

**Siyasi lider və onun funksiyaları**: məqsədlərin müəyyənləşdirilməsi; ətrafındakı adamları məqsədə çatmaq vasitələri ilə təmin etmək; qrupun tamlığını hifz etmək.

**Liderin nüfuzu.** Nüfuzun iki tərəfi: rəhbərin tabeliyində olan insanlara təsiri və insanların bu təsirə tabe olması. Dominantlıq və tabeçilik liderliyin əsası kimi. Dominantlığın formaları. Həqiqi və yalançı nüfuz. Yalan nüfuzun növləri.

**Liderin psixoloji xüsusiyyətləri.** Liderliyin psixoloji mexanizmlərinin formaları. Liderin fərdi stili. Liderin şəxsiyyətinin srukturu.

**11.1. Siyasi təşkilatlanma: liderin meydana gəlməsi.** Siyasi sosiallaşma prosesi özünəməxsus təbəqələşməyə gətirib çıxarır. Fərdlərin bəziləri aktiv, bəziləri isə passiv vətəndaşa çevrilirlər. Dövlət belə vətəndaşların üzərində bərqərar olur. Siyasi aktiv vətəndaşlar cəmiyyətin siyasi liderinə çevrilirlər. Siyasətdə, adətən, liderlər üç səviyyədə fəaliyyət göstərə bulirlər:

1. Kiçik qrupların liderləri;
2. İctimai hərəkatların, təşkilatların liderləri;
3. Siyasi liderlər.

**Kiçik qrupun lideri** qrupdaxili hakimiyyətə malik olur. Belə liderin ətrafında əsasən onun şəxsi keyfiyyətlərini dəyərləndirən insanlar yığılır. Belə liderlər özləri tipə ayrılırlar:

1. İşgüzar lider;
2. İtellektual lider;
3. Ünsiyyət lideri .

İşgüzar liderə təşkilati xüsusiyyətlər, praqmatizm xasdır. İntellektual lider mürəkkəb məsələləri həll etmək, qeyri-standart qərarlar qəbul etmək bacarığına malikdir. Ünsiyyət liderinə ünsiyyətcillik, psixoloji komfort, qrupdaxili gərginlikləri aradan qaldırmaq qabiliyyəti xasdır.

**İctimai təşkilatların, hərəkatların lideri** elə şəxsiyyətdir ki, konkret sosial təbəqələr (və ya qruplar) öz maraqlarının təmin olunmasını ona həvalə edirlər. O, öz şəxsi keyfiyyətlərinə görə ictimai fikrə təsir edə bilir. Məhz bu keyfiyyətinə görə kütləvi şüurda həmişə liderə tələbat olur.

**11.2. Siyasi lider və onun funksiyaları.** Siyasi lider o şəxsiyyətdir ki, hakim münasibətlər sistemində rəsmi şəkildə ona liderlik həvalə olunur və o, müxtəlif sosial qrupların maraqlarını müdafiə edir. Ümumu anlamda siyasi lider dövlətin, nüfuzlu bir qrupun, böyük partiyanın, ictimai-siyasi təşkilatın, kütləvi hərəkatın formal və ya qeyri-formal rəhbəridir. Bu lider siyasi kursu - məsələn, yeni ya reformaları, ya inqilabi dəyişiklikləri, ya da konservatizmi - təyin edir. Siyasi liderin üç əsas funksiyası müəyyənləşdirilmişdir:

1. Məqsədlərin müəyyənləşdirilməsi;

2. Ətrafındakı adamları (ardınca apardığı adamları) məqsədə çatmaq vasitələri ilə təmin etmək;

3. Ardınca apardığı adamlara onların fəaliyyətində və qarşılıqlı münasibətlərdə daim kömək göstərmək, ardınca apardığı qrupun tamlığını hifz etmək.




Cədvəl 11.1. Siyasi liderin funksiyaları

Bir sözlə desək, funksiyaları lider planlaşdırır, paylaşdırır, koordinasiya edir və nəzarət edir. Əslində o, öz səviyyəsində hakimiyyəti həyata keçirir: qanunverici, icraedici və məhkəmə funksiyalarını yerinə yetirir.

**11.3. Liderin nüfuzu və nüfuzun növləri.** Liderin əsas siyasi-psixoloji xüsusiyyətlərindən biri onun nüfuzlu olmasıdır. Nüfuz başqa insanları idarə etmək üçün rəhbərə zəruri olaraq lazım olan hakimiyyət formasıdır. Nüfuzun olmaması rəhbərin və liderin mövcudluğunu mümkünsüz edir. Hakimiyyətdə olduğu kimi nüfuzun da iki tərəfi vardır:

1. Rəhbərin tabeliyində olan insanlara təsiri;

2. İnsanların bu təsirə tabe olması.

F.Engels bu haqda yazırdı: "Hər bir mürəkkəb fəaliyyət təşkilatlanmalıdır. Bu nüfuzsuz mümkün deyil, ona görə ki, iradə başqalarına qəbul etdirilməli, bu iradəyə tabe olunmalıdır."

Nüfuz həqiqi və yalançı olur. Yalan nüfuzun aşağıdakı növləri vardır:

1 .Tabeliyində olanları sıxışdırmaq;

2. Liderin ardınca apardığı adamlarla xüsusi şəkildə yaradılmış distansiya yaratmaq;

3 .Liderin özünü "çəkməsi";

4. Daimi öyrətmək arzusu;

5. Pulla və ya başqa bir şeylə ələ almaq;

6. "Öz adamı", qardaşlıq nüfuzu;

7. Yalançı xeyirxahlıq və liberalizm.

Yalançı nüfuz rəhbərlə rəhbərlik etdiyi insanların maraqlarının uyğunsuzluğu zəminində yaranır. Öz şəxsi maraqlarını qoruyan lider yuxarıda sadaladığımız psixoloji üsullarından istifadə edir.

Həqiqi nüfuz elə hakimiyyətdir ki, insanların həqiqi marağına elə təsir edir ki, onlar bu hakimiyyəti könüllü surətdə qəbul edirlər.

**11.4. Liderin psixoloji xüsusiyyətləri.** Liderlik subyektlər arasında dominantlıq və tabe olmaqla səciyyələnən qeyri-bərabər təsir prosesidir. Lider şəxsiyyətin, qrupun və ya cəmiyyətin məqsədlərini həyata keçirmək üçün "dominant-tabe olmağın" müxtəlif formaları vasitəsilə qarşılıqlı münasibətlərin nizamlanması prosesinin subyektidir.

Lider həmişə aktivdir və insanları öz ardınca aparır. Tənha lider ağlasığmazdır. Mütləq subyekt-subyekt strukturu olmalıdır. Bu, lider və qrupun qalan üzvləri, lider və ardıcılları, lider və ardınca apardığı adamlardır. Aparılan adamların səciyyəvi xüsusiyyəti ondan ibarətdir ki, onlar özlərini aparmağa izin verirlər. Siyasi dillə desək, onlar öz hüquqlarını liderə həvalə edirlər.




Cədvəl 11.2. Lider dominantlığının formaları

Dominantlıq və tabe olmaq liderliyin əsasını təşkil edir. Dominantlıq və liderlik dörd formada özünü göstərir:

1. Nüfuz təsiri – psixoloji dominantlığın müxtəlif variantları;
2. Güc dominantı - zorakılığın müxtəlif formalarında özünü göstərir;
3. İqtisadı dominantlığın müxtəlif formaları - satın almaq;
4.Siyasi dominantlığın müxtəlif formaları - konkret siyasi hakimiyyət

**Liderliyin psixoloji mexanizmləri dörd əsas formada özünü göstərir:**

1. Yoluxdurma - insanlar tərəfindən şüursuz şəkildə qavranılan emosional təsirdir.

2. Təlqinetmə - insanlar tərəfindən qeyri-tənqidi qavranılan emosional iradəyə məqsədyönlü təsirdir.

3. İnandırma – insanlar tərəfindən şüurla qavranılan rasional, verbal təsirdir.

4. Təqlid – insanlar tərəfindən qavranılması nəzərdə tutulan konkret davranış nümunələridir.

**Liderliyin fərdi stili.** Lider həmişə bilərəkdən və ya bilmədən ardınca apardığı insanlarla manipulyasiya edir. Sözün geniş mənasında manipulyasiya insanlara təsiretmə üsullarının məcmusudur. Liderdə belə bacarıqların, vərdişlərin olması onun fərdi stilini göstərir. Liderliyin fərdi stili liderə xas olan forma, üsu lvə metodların məcmusudur.

**Lider şəxsiyyətinin strukturu:**

1. Bioloji səviyyə. Buraya yaş, irsiyyət, temperament, cins, sağlamlıq vəziyyəti aiddir.

2. Psixoloji səviyyə. Buraya psixi proseslər – iradə, emosiya, qavrayış, yaddaş, qabiliyyətlər, xarakter xüsusiyyətləri aiddir.

3. Sosial –psixoloji səviyyə. Buraya liderin məqsədləri, qrup dəyərləri, maraqları, dünyagörüşü, motivləri, norma və stereotipləri və s. aiddir.

4. Siyasi – psixoloji səviyyə. Buraya onun siyasi sosiallaşması, siyasi dəyərləri, siyasi seçimi və s. aiddir.

5. Sosial səviyyə. Buraya ümumsosial mövqelər, liderin cəmiyyətə və ümumiyyətlə dünyaya baxışları aiddir.

Mövzuya aid sual və tapşırıqlar:

1. Lideliyin üç fəaliyyət səviyyəsini izah edin.
2 .Siyasi lider kimdir və onun hansı funksiyaları vardır?
3. Liderin nüfuzu aşlayışını izah edin.
4. Nüfuzun hansı növləri vardır?
5. Liderliyin əsasını təşkil edən dominant-tabeçilik fenomenin izah edin.
6. Liderin psixoloji xüsusiyyətlərini sadalayın.
7. Liderliyin psixoloji müxanizmləri hansı formada özünü göstərir?
8. Lider şəxsiyyətinin strukturuna hansı komponentlər daxildir?

Ədəbiyyat:

1.Azərbaycanı qələbələrə aparan lider. Bakı, 2004, I kitab
2.Azərbaycanı qələbələrə aparan lider. Bakı, 2004, II kitab

3.Böyük insan  haqqında. Bakı, 2004
4.Heydər Əliyev. XXI əsrin və üçüncü minilliyin ayrıcında; AR Prezidenti H.Əliyevin Azərbaycan xalqına müraciəti. Bakı, 2001
5.Axundova E. Heydər Əliyev. Şəxsiyyət. Zaman. Bakı, 2002
6.Xəlilov S. Lider. Dövlət. Cəmiyyət. Bakı, 2001
7.Naxçıvanlı A. Siyasətin fəlsəfi problemləri. Bakı, 1998
8.Böyük insan haqqında. Bakı, 2004
9. Вебер М. Изобранные роизведение. М., 1990, с.646-690
10. Ольшанский Д.В. Политическая психология. СПб.:Питер, 2002, с.161-175;
11. Шестопал Е.И. Политическая психология. ИНФРА-М, 2002, с.256-261; 273-282
12.Шестопал Е.Б. Личность и политика. М., Мысль, 1988, с. 359-383
13. New Directions in Political Sosialization. N-Y, 1975, p.232-246
14. Greenstein F. Ptrsonality and Politics/ Princeton, Univ.press, 1985
15.Handbook of Political Psycholoji //Ed.by Knutson J. – san-Francisco: Jossey-Bass, 1973

## XII mövzu

## Liderliyin siyasi psixologiyası

**Qısa məzmun. İlkin liderlik nəzəriyyələri**: "Qəhrəmanlar" və "Keyfiyyətlər" nəzəriyyəsi. Mühit nəzəriyyələri. Şəxsi-situativ nəzəriyyə. Qarşılıqlı təsir-gözləmə nəzəriyyəsi. Humanistik nəzəriyyələr. Mübadilə nəzəriyyəsi. Ambisiyalar nəzəriyyəsi.

**Ümumi tipoloji yanaşmalar.** Liderliyin ilkin tipologiyası: E.Boqardusun, F.Bartlettin və V.Bell, R.Hill və C.Millzin tipologiyaları. M.Veberin tipologiyası: "leqal", "ənənəvi", "xarizmatik" legitimlik. Liderliyin əsas siyasi-psixoloji tipologiyası: Q.Lassuelin psixo-patoloji tipologiyası. D.Rismanın tipologiyası. "Makiavelli şəxsiyyətləri" tipologiyası. C.Barberin tipologiyası.

**Müasir tipologiyalar:** liderliyin üç stili. M.Germanın tipologiyası.

**12.1.** Liderlik fenomeni siyasi psixologiyada əsas yerlərdən birini tutur. Siyasi elmlər üçün əsas problem hakimiyyətdirsə, siyasi psixologiya üçün əsas problem bu hakimiyyətdə təcəssüm olunan insan faktorudur. Bunun iki tərəfi vardır. Hakim olan subyektin (liderin, siyasi institutun və ya rejimin) özünə tabe etdirə bilmək bacarığı və aşağıların yuxarılara tabe olmaq hazırlığı.

**Liderlik haqqınnda ilk nəzəriyyələr.** "**Qəhrəmanlar" nəzəriyyəsi və "keyfiyyətlər" nəzəriyyəsi.** Hələ lap qədim dövrlərdə insanlar qəhrəman obrazları yaradır və onlara müxtəlif müsbət xüsusiyyətlər aid edirdilər. Məsələn, Homerin "İlliada" əsərində qəhrəmanlara xas olan dörd zəruri keyfiyyət göstərilir: ədalət (Aqamemnon), müdriklik (Nestor), hiyləgərlik (Odissey), igidlik (Axill). XX əsrdə **"**qəhrəmanlar" nəzəriyyəsinin nümayəndələri kimi T.Karlaylı, E.Cenninksi, C.Daudu və başqalarını göstərmək olar. Onlar liderin kütləleri ardınca apara bilmək qabiliyyətini və irsən keçən keyfiyyətləri araşdırmışlar. "Keyfiyyət" nəzəriyyəsinin (nümayəndələri L.Bernard, V.Binham, O.Ted və başqaları) yaradıcıları bu zəmində liderin psixoloji keyfiyyət və xüsusiyyətlərini müəyyənləşdirmişlər. Onlar liderləri müəyyən keyfiyyətlər prizmaslndan (ağıl səviyyəsi, nitq qabiliyyəti, təhsili, fiziki göstəriciləri, məsuliyyət hissi, akivliyi, sosial-iqtisadi mövqeyi, situativ keyfiyyətləri və s.) təhlil edirdilər.

Bu nəzəriyyəyələrə görə lider üçün zəruri olan keyfiyyətləri ümumiləşdirsək aşağıdakıları sadalaya bilərik:

1. Başlanılan işin yekunlaşdırılmasına və cavabdehliyə güclü meyl;

2. Məqsədə çatmaq üçün enerji və inadkarlıq, problemlərin həllində risk və orijinallıq;

3. Təşəbbüskarlıq;

4. Özünəinam;

5. Ətrafdakıların davranışına təsir edə bilmək və sosial münasibətləri stukturlaşdıra bilmək qabiliyyəti;

6. Bütün hərəkətləri və qərar qəbulunu öz üzərinə götürmək istəyi;

7. Frustrasiyaya qarşı dayanmaq və qrupun dağılmasının qarşısını ala bilmək bacarığı

1979-cu ildə ABŞ-da dövlət departamentinin sifarişilə aparılan tədqiqatlar göstərmişdir ki, müasir siyasi liderin üçün zəruri olan keyfiyyətlər bunlardır: qeyri-formal təşkilati vərdişlər, bürokratik yanaşmalardan qaça bilmək, frustrasiyaya dözümlülük, mühakimələrin birbaşa olması, başqalarının fikrinə qulaq asa bilmək bacarığı, enerjililik, inkişaf resurslarının olması və yumor hissi.

M.Veberin də "keyfiyyətlər" araşdırması maraq doqurur. Onun fikrincə lider üçün üç əsas keyfiyyətin olması zəruridir: ehtiras, məsuliyyət və ölçü hissi.

Qeyd etmək lazımdır ki, "qəhrəmanlar və keyfiyyətlər" nəzəriyyəsi elmi cəhətdən az məhsuldar idi və araşdırmalar başqa istiqamətdə inkişaf edirdi, yeni nəzəriyyələr yaranmağa başlayırdı.

**Mühit nəzəriyyələri.** Nümayəndələri: E.Boqardus, V.Hokkinq, X.Person,A.Merfi, C.Şneyder və b. Bu qrupa daxil olan nəzəriyyələrin ana xəttini insanların davranışında mühitin müstəsna rolunun olması təşkil edir. Bu nəzəriyyələrə görə liderlik müəyyən zamanın, məkanın və şəraitin yaratdığı fenomendir. Vaxtilə C. Şneyder tapmışdır ki, İngiltərədə generalların sayı hərbi konfliktlərin sayı ilə düz mütənasibdir. Bu mühit nəzəriyyəsi üçün parlaq nümünədir. A. Merfi demişdir: Situasiya probllemi həll etmək aləti kimi lideri yaradır. Yəni, situasiya öz yerində, amma lider də müəyyən keyfiyyətlərə malik olmalıdır.

**Şəxsi-situativ nəzəriyyələr.** Nümayəndələri: S. Kaze, P.Stoqdill, C.Şartl, C.Millz və b. Şəxsi-siyuativ nəzəriyyələr mühit və lider haqqında olan nəticələri özündə birləşdirir. Bu nəzəriyyə həm liderin psixoloji keyfiyyətlərini, həm də onu

meydana gətirən səbəbləri tədqiq edir. S.Kazeyə görə liderlik üç əsas faktorla müəyyənləşir: liderin şəxsi keyfiyyətləri, ardıcıllarından ibarət qrup və yaranan situasiya ilə.

**Qarşılıqlı təsir-gözləmə nəzəriyyələr.** Nümayəndələri: C.Homans, C.Hemfild, P.Stoqdill və b. Bu nəzəriyyəyə görə üç əsas şeyə diqqət vermək lazımdır: hərəkətlər, qarşılıqlı təsir və əhval ruhiyyə. Yəni qarşılıqlı təsir nəticəsində və ümumi fəaliyyət prosesində iştirak qarşılıqlı simpatiya hissini yaradır. Bu prosesdə lider qarşılıqlı təsirin təşəbbüskarı kimi çıxış edir.

**Humanist nəzəriyyələr.** Nümayəndələri: D. Mak -Qreqor, S. Argiris, R.Likert və b. Bu nəzəriyyənin əsasında effektiv təşkilatlanma dayanır. Humanist nəzəriyyənin tərəfdarları belə hesab edirdilər ki, insan təbiəti etibarilə "motivlidir". Liderliyin əsas funksiyası fərdlərin potensialının gerçəkləşdirilməsi vasitəsilə onların azadlığının təmin edilməsi, təşkilatın məqsədlərinin həyata keçirilməsi, öz ehtiyaclarını ödəmək məqsədilə təşkilatın modifikasiya edilməsidir.

D.Mak-Qreqor iki nəzəriyyə irəli sürmüşdür: 1). X nəzəriyyəsi – bu nəzəriyyəyə görə fərdlər adətən passiv olurlar. Təşkilatın ehtiyaclarına qarşı dururlar, deməli, onları istiqamətləndirmək və motivləşdirmək lazımdır; 2). Y nəzəriyyəsi - bu nəzəriyyəyə görə fərdlər motivasiyaya malikdirlər və məsuliyyətə meyillidirlər, buna görə onları elə təşkil etmək lazımdır ki, onlar həm öz məqsədlərini, həm də təşkilatın məqsədlərini gerçəkləşdirsinlər. Bu nəzəriyyələr əslində təşkilatın inkişafının 2 mərhələsini əks etdirir.

**Mübadilə nəzəriyyələri:** Nümayəndələri: C.Homans, C.Març, X.Saymon, T.Cakobs, X.Kelli və b. Bu nəzəriyyəyə görə ictimai münasibətlər xüsusi mübadilə formasıdır ki, bu zaman qrup üzvləri təkcə real yox, həm də psixoloji pay verirlər və bunun əvəzində psixoloji "gəlir" əldə edirlər. Belə qarşılıqlı mübadilə, iştirakçılar bunu özləri üçün faydalı sayana qədər davam edir. T.Cakobs öz mübadilə variantını belə formulə edir: Qrup məqsədə çatmaq bacarığının əvəzində liderə status və hörmət təqdim edir.

**Motivasiya nəzəriyyələri.** Nümayəndələri: V.Stoun, D.Şlezinger, C.Atkinson, C.Ştern, A.Maslou və b. Bu nəzəriyyəyə görə, ilkin tələbatlardan asılı

olmayaraq (hakimiyyətə canatma, nufuz, özünüifadə etmək) şüurlu insanın motivasiyası onun imkanları ilə bağlıdır. Həddən artıq motivasiya qavrayışı təhrif edə bilər. Məsələn, həddən artıq güclü motivasiyalı namizəd, baxmayaraq ki, uğur qazanmaq şansı obyektiv olaraq çox azdır, seçkilərdə qalib gələcəyinə kor-koranə inanır. Lakin əslində fərd kifayət qədər qələbə şansının, vərdişlərinin və ciddi dəstəyin olduğunu dərk edəndə öz namizədliyini irəli sürməlidir. Bu qrupa daxil olan "ambisiyalar" nəzəriyyəsinin tərəfdarlarından olan C.Ştern motivasiyanın aşağıdaki düsturunu vermişdir:

Motivasiya = motiv + gözləmə + stimul

Motiv = hakimiyyət, uğur, hörmət;

Gözləmə = siyasi sistemdən gözlədikləri, siyasətçi olandan sonra açılan imkanlar, öz bacarıqlarını qiymətləndirmə;

Stimul = əlində qalacaq "priz", başqa sözlə desək, üç şey – gələcək nufuz, hakimiyyət və maaş - siyasətçinin ambisiyalarını müəyyənləşdirir.

Qeyd edək ki, imkanlarsız motiv özü-özlüyündə heç nədir. Humanist psixologiyanın tərəfdarı A.Maslou özünün ierarxik tələbatlar nəzəriyyəsində göstərirdi ki, liderliyin kökləri insan istəklərinin (motivlərin və onlardan yaranan hisslərin) sosial meyllərə, kollektiv gözləmələrə və siyasi tələbatlara transformasiya prosesində yaranır. A.Maslou tələbatlar ierarxiyasında üç səviyyəni ayırd edirdi: aşağı səviyyədə fizioloji tələbatlar, orta səviyyədə təhlükəsizliyin təminatı, yuxarı səviyyədə affektiv tələbatlar.

**12.2. Ümumi tipoloji yanaşmalar. Liderlərin ilkin tipologiyası.** Hələ lap qədim dövrlərdən alimlər insanları müxtəlif meyarlarla qruplaşdırmağa cəhd etmişlər. Bunun nəticəsi kimi elmdə insanların müxtəlif tipologiyası yaranmışdır. Siyasi psixologiyada da liderlərin müxtəlif tipologiyaları özünə yer almışdır. Onlardan XX əsrin əvvəllərində yaranan tipologiyalara nəzər salaq.

İlk olaraq liderliyin tipoloji təsnifatını verənlərdən biri E.Boqardusdur. E.Boqardus liderin dörd tipini müəyyənləşdirmişdir: 1). avtokratik (güclü

təşkilatlarda); 2). demokratik (qrupun maraqlarını qoruyan nümayəndə); 3). icraçı; 4). refleksiv-intellektual (iri miqyaslı qruplara rəhbərlik edə bilməyən).

E.Boqardusdan bir az sonra F.Bartlett başqa təsnifat verdi. O, liderin üç tipini müəyyənləşdirdi:

1. İnstitutlaşmış tip (tutduğu vəzifənin nüfuzuna görə lider olan);
2. Dominant tip (öz mövqeyini güc və təzyiqlə saxlayan);
3. İnandırıcı tip (tabeliyində olanların əhval-ruhiyyəsinə təsir etməklə onları fəaliyyətə təhrik edən).

V.Bell, R.Hill, C.Millz liderin dörd tipini müəyyənləşdirmişlər:

1. Formal (rəsmi vəzifədə olan);
2. Məşhur (ictimaiyyətdə tanınan);
3. Təsir gücünə malik olan (real gücü olan);
4. İctimai (özfəaliyyət təşkilatlarında aktiv iştirak edən)

M. Veberin tipologiyası:

1.Leqal legitimlik – Bu, “kreslonun” hakimiyyətidir. Bürokratik tipdir. İnsanlar belə bürokrata ona görə tabe olurlar ki, onun vəzifəsinin verdiyi hakimiyyət qarşısında özlərini aciz hesab edirlər.

2.Ənənəvi legitimlik - onun əsasında qədim ənənələrə və ənənəvi hakimlərə inam, şəxsi sədaqət durur (məsələn, monarx).

3.Xarizmatik legitimlik – onun əsasında liderin qeyri-adi keyfiyyətlərə malik olduğuna inam durur. Bu halda insanlar liderin ardınca yox, xarizmanın ardınca gedirlər. Xarizmatik liderin hakimiyyəti simvolların hakimiyyətidir - kütlənin başı üzərinə qaldırılmış simvoların hakimiyyətidir. Bu, parlaq insanın hakimiyyətidir. Lakin bu parlaqlıq insanın özündən çox, kütlənin ona və başı üzərinə qaldırdığı bayrağa məhəbətdən yaranır. Situasiya dəyişdikdə kütlə xarimatik liderini də dəyişir.

**Liderliyin əsas siyasi-psixoloji tipologiyası. Q. Lassuellin psixo-patoloji tipologiyası.** Bu tipologiyaya əsasən yerinə yetirdiyi funksiyalara görə siyasi liderin aşağıdakı tipləri vardır:

1. Təbliğatçı – bu tipin əsas funksiyası öz baxışlarını vətəndaşlar arasında yaymaqdan ibarətdir. Onlar ritorikanı, jestləri yüksək qiymətləndirirlər. Belə liderlərin əsas məqsədi gözə soxulmaq, yadda qalmaq, opponentləri alçaltmaqdan ibarətdir. İnzibati funksiyalar onlarda frustrasiya doğurur. Bu tip liderlər əhalini öz ardınca apara bilən çağırışlara və parlaq entuziazma malik olurlar. Onlar üçün əsas şey auditoriyanın emosional əks-sədasına nail olmaqdır. Psixoloji nöqteyi-nəzərdən Q.Lassuel təbliğatçıları "narsist " hesab edirdi. "Təbliğatşılar" keçmişdə neqativ emosiyaları içində boğan nümunəvi uşaqlar olmuşlar. Yaxın ətrafında çıxış tapmayanda belə "sadizm" cəmiyyətə köçürülür.

2. İinzibati tip – təbliğatçılardan fərqli olaraq onlar öz affektlərini bütövlükdə cəmiyyətə yox, yaxın və mücərrəd olmayan obyektlərə yönəldirlər. Onlar təşkilatın vəzifələrinə şəxsi maraq və emosiya nümayiş etdirmədən müəyyən qrupla manipulyasiya etməyə çalışırlar. Onları emosiyasız adlandırmaq olmaz, sadəcə onlar daha soyuqqanlıdırlar və hisslərini tarazlamağı bacarırlar.

3. Nəzəriyyəçi – onları uzaq məqsədlər cəlb edir. Onlar yüksək mücərrədləşdirə bilmək qabiliyyətinə malik olurlar. Mücərrədləşdirmə onlara öz şəxsi emosional problemlərinin həlli üçün lazımdır. İnzibatiçılardan fərqli olaraq nəzəriyyəçilər affektlərin olmamasından əziyyət çəkirlər, çünki, öz inkişaf proseslərində çoxlu frustrasiya yaşayıblar. Onların intellektuallaşması vaxtilə şəxsi emosional problemlərini həll edə bilməməsinə cavab kimi meydana gəlmişdir.

**D. Rismanın tipologiyası.** D.Risman üç çür cəmiyyət fərqləndirirdi və buna uyğun olaraq üç tip lider müəyyənləşdirirdi:

1. Laqeyd tip – belə adam siyasətə heç bir aidiyyatı olmayan adamdır. Onlar siyasətə görə şəxsi cavabdehlik hiss etmirlər.

2. Moralizator tip – belə adamın davranışı güclü affektlərlə və aşağı kompetensiya ilə səciyyələnir. Bu, ya kamilləşməyə, institutları təkmilləşdirməyə

yönəlmiş idealistdir, ya da yaxşının əldə olunmasına yox, pisin əldə olunmamasına yönəlmiş pessimistdir.

3. Daxili müşahidəçi tip – belə adam siyasətin daxilində qalmağa can atır. Onlar ya tam emosiyasız olurlar, ya da öz emosiyalarına yaxşı nəzarət edə bilirlər. Siyasətdən əyləncə və faydalanmaq üçün istifadə edirlər.

**“Makiavelli” şəxsiyyətləri.** R.Kristi və F.Hays N.Makiavellinin “Dövlət” əsəri üzrə “Makiavelli şəxsiyyətlərinin M – şkalas”ını tərtib etmişlər. Onlar “makiavelli şəxsiyyəti”nin iki tipini ayırd etdilər:

1. Yüksək Mak - əmsallı;
2. Aşağı mak - əmsallı

Qeyd etmək lazımdır ki, bu əmsallar İQ əmsallarından asılı deyildir. Yüksək Mak əmsallı tip soyuqqanlılıqla xarakterizə olunur. Belə şəxs sosial təsirlərə qarşı dayana bilir. O, yeni struktur yaratmaq və onlara nəzarət etməyə meyilli olur. Aşağı Mak əmsallı tip sadəlövlüyü ilə səciyyələnir. Bu tip sosial təsirlərə tez məruz qalır. Başqa adamları qəbul edir.

**C.Barberin prezidentlər tipologiyası.** C.Barber tarixi və bioqrafik materiallar üzrə Amerika prezidentlərinin tipologiyasını yaratmışdır. O, liderin fərdi stilini, dünyayagörüşünü, xarakterini, hakim münasibətlərinin xüsusiyyətlərini və gözləmələrini öz tipologiyasının əsası kimi götürmüş və əsasən iki meyardan istifadə etmişdir: 1). aktivlik-passivlik və 2). pozitivlik-neqativlk. Və bununlara əsasən prezidentlərin dörd tipini təqdim etmiıdir:

1 .Aktiv-pozitiv;
2. Aktiv-neqativ;
3. Passiv-pozitiv;
4. Passiv-neqativ.

Aktiv-pozitiv tipin məqsədi nəticə əldə etməkdir. C.Barber bu tipə T.Jeffersonu, F.D.Ruzvelti, H.S.Trumeni, J.F.Kennedini aid edirdi.

Aktiv-neqativ tipin məqsədi hakimiyyətə çatmaq və onu saxlamaqdır. C.Barber bu tipə J.Adamsı, V.Vilsonu, H.Hooveri, L.B.Jonsonu, R.M.Niksonu aid edirdi.

Passiv-pozitiv tipin məqsədi ətrafdakıların məhəbbətini qazanmaqdır. C.Barber J.Madisonu, V.Taftı, V.G.Hardinqi bu tipə aid edirdi.

Passiv-neqativ tipin məqsədi öz vətəndaş şücaətini göstərməkdir. C.Barber bu tipə G.Vaşinqtonu, S.Kulidci, D.D.Eisenhoveri aid edirdi.

**12.3. Liderlik fenomeninə müasir yanaşmalar.** K.Levin, R.Lippid və R.Uayd bütün nəzəriyyələri yekunlaşdıraraq liderliyin üç növünü müəyyənləşdirmişlər:

1. Avtoritar;
2. Demokratik;
3. Libera.l

Birinci tip liderlikdə qrupdaxili gərginlik, aqressiya yaşanır. Çünki avtoritar lider hər şeyə, hətta üzvlərarası qarşılıqlı münasibətlərə də nəzarət edir. Demokratik liderli qruplarda hamı özünü "biz" hiss edir. Üçüncü tip qrupda özbaşınalıq hökm sürür.

**M.Germanın tipologiyası:**

1.Tütəkçi – bu tip lider qarşısına məqsəd qoyur, istiqamətləri müəyyənləşdirir, söz verir və insanları cəzb edir. Baş verənlər üçün cavabdehlik daşıyır. Bu əsil liderdir.

2. Ticarətçi – bu tip lider insanlar nə lazım olduğunu bilir və onlara kömək əlini uzadır. İnsanların ehtiyaclarını bilmək və onlara kömək etmək heç də onları inandırmaqdan az əhəmiyyətli deyil. Bu proses mübadilə nəzəriyyəsi əsasında baş verir.

3. Marionet (əl kuklası) – bu zaman istiqaməti qrup təyin edir. Lider qrupun adından danışan nümayəndə kimi çıxış edir.

4. Yanğınsöndürən – baş verən hadisəyə cavab reaksiyası kimi nəzərdən keçirilir. Burada situativ nəzəriyyə özünü göstərir.

Mövzuya aid sual və tapşırıqlar:

1. Liderlik haqqında hansı ilkin nəzəriyyələri tanıyırsınız?
2. Siyasi psixologiyada liderliyin tipologiyasının çoxluğunun səbəbini izah edin.

3. M.Veberin tipologiyası haqqında danışın.

4. Q.Lassuelin tipologiyası haqda danışın.

5. Müasir tipoloji yanaşmaları izah edin.

Ədəbiyyat:


1.Azərbaycanı qələbələrə aparan lider. Bakı, 2004, I kitab

2.Azərbaycanı qələbələrə aparan lider. Bakı, 2004, II kitab

3.Böyük insan haqqında. Bakı, 2004

4.Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. 4 kitab, Bakı, 2010

5.İlham Əliyev. İnkişaf məqsədimizdir. Bakı, 2010

6.Heydər Əliyev. XXI əsrin və üçüncü minilliyin ayrıcında; AR Prezidenti H.Əliyevin Azərbaycan xalqına müraciəti. Bakı, 2001

7.Axundova E. Heydər Əliyev. Şəxsiyyət. Zaman. Bakı, 2002

8.Xəlilov N. Diplomatiya mədəniyyəti və natiqlik sənətinin kateqoriyaları. I cild, Bakı, 1994

9.Xəlilov S. Lider. Dövlət. Cəmiyyət. Bakı, 2001

10.Böyük insan haqqında. Bakı, 2004

11. Гозман Л.Я., Шестопал Е.Б. Политическая психология. – Ростов-н/В.: Феникс, 1996. – с.123-199

12. Вятр Е. Социология политических отнощенийю М., Прогресс, 1979, с.330-339

13. Леонтьев А.Н. Деятельность. Сознание. Личность. М., Политиздат, 1975, -с.102-107; 234-250

14. Ольшанский Д.В. Политическая психология. СПб.:Питер, 2002, 177-214, 219-252

15. Психология. Словарь /Под общ.ред. А.В.Петровского, М.Г.Ярошевского. – М.: Политиздат, 1990. – с.230

16. Человек, политика, психология (Материалы круглого стола) // Вопросы философии, 1995, № 4, с.3-23

17. Шестопал Е.И. Политическая психология.Ь., ИНФРА-М, 2002, 78-123
18. Handbook of Political Psycholojy //Ed.by Knutson J. – san-Francisco: Jossey-Bass, 1973
19. Katz D. Patterns of leadership// Handbook of Political Psycholojy. p.203-233

## XIII mövzu

## Siyasətdə kiçik qruplar

**Qısa məzmun. Qrup siyasətin subyekti kimi**. Qrupun növləri. **Siyasətdə kiçik qrupların** xüsusiyyətləri. Kiçik qrupun növləri. İntrovert və ekstrovert qruplar. Homogen və heterogen qruplar. Formal və qeyri-formal qruplar. İlkin və ikincili qruplar. İştirak, referent və neqativ referent qruplar. Avtoritar, demokratik və oxlokratik qruplar.

**Siyasətdə kiçik qrupların formalaşması.** Siyasi qrupların yaranmasının mərhələləri. Nominal qrup mərhələsi. Assosiasitiv qrup mərhələsi. Kooperativ qrup mərhələsi. Korporativ qrup mərhələsi. Kollektiv mərhələ.

**Siyasətdə kiçik qrupların formalaşmasının meyarları:.**Baxış və əlaqələrin birliyi prinsipi. Kompetentlik prinsipi. Liderə şəxsi sədaqət prinsipi. Siyasi qrupun yaranmasının daxili mexanizmləri: Tanışlıq. İlkin mikroqrupların yaranması. Qrup konsolodasiyası. Lider və qrup (komanda). Qohum-tayfa münasibətləri əsasında qurulan komanda. "Güclü (zalım) mərkəz" komandası. Qeyri-rəsmi münasibətlər əsasında qurulan komanda. "İstedadlar nazirliyi" komandası. **Liderin üç komanda qanunu.**

**13.1.** Siyasi liderin siyasi həyatda oynadığı önəmli rola baxmayaraq, siyasətin inkişafı prosesində liderin, xüsusilə də xarizmatik liderin rolu getdikcə azalmaqdadır. Müasir dünyamızda siyasət xarizmatik liderin təkbaşına fəaliyyəti ilə yox, qrup halında həyata keçirilir və qrup siyasətin subyekti rolunda çıxış edir. Sosial psixologiyada qrup ümumi dəyərlərə malik olan və ümumi münasibətlər sisteminə daxil olan sabit sayda insan birliyidir.

Siyasi psixologiyada qrup dərk edilmiş məqsədə çatmaq üçün insanların qarşılıqlı təsir göstərdiyi birlik kimi nəzərdən keçirilir. Qrup obyektiv olaraq siyasi reallıq kimi, subyektiv olaraq öz tamlığı ilə başqa birliklərdən ayrılan siyasi subyekt kimi çıxış edir.

**Qrupların növləri.** Qruplar nominal və real qruplara bölünürlər. Real qruplar: 1). kiçik və 2). böyük qruplara bölünürlər. Böyük qruplar 1). sosial qruplara və 2). milli qruplara bölünürlər.






Cədvəl 13.1. Qrupların növləri

**Kiçik qrupun növləri. Fəaliyyətinin əsas istiqamətinə görə** kiçik qruplar iki növə ayrılır: ekstrovert və introvert qruplar. Ekstrovert qrupların fəaliyyəti əsasən xaricə (qrupdan xaricə) yönəlmiş olur: hökumətdə yer almaq, elektoral kütlələrə yiyələnmək və s. Introvert qrupların fəaliyyət istiqaməti qrup daxilinə yönəlmiş olur: qrup üzvlərinin maariflənməsi, partiyadaxili intizamın yüksəldilməsi və s.

**Daxili strukturuna görə** qruplar formal və qeyri-formal növlərə ayrılır. Formal qruplarda hər bir üzvün öz statusu və ona uyğun vəzifələri müəyyənləşmiş olur. Adətən üzvlərin hüquq və vəzifələri nizamnamələrdə öz əksini tapır. Müasir dövrdə formal qruplara klassik nümunə kimi orduları göstərmək olar. Belə qruplarda insan faktoru ikinci plana, münasibətlərin formal strukturu birinci plana keçir. Qeyri-formal qruplarda əlaqələr şəxsi münasibətlər əsaında qurulur. Xarici reqlamentlə tənzim edilməyən bu əlaqələr dostluq, yoldaşlıq, ümumi maraqlar, fikirlər, baxışlar əsaında qurulur.

**Mütəşəkillik dərəcəsinə görə** qruplar homogen və heterogen növlərə bölünürlər. Üç parametrə - baxışların, məqsədlərin və hərəkətlərin eyniliyinə görə birləşən qruplar homogen qruplardır. Əksinə, baxışlarında, məqsədlərində və hərəkətlərində mütəşəkillik, həmrəylik müşahidə olunmayan qruplar heterogen qruplardır.

**Əlaqələrinin formasına görə** qruplar ilkin və ikincili qruplara bölünür. Əvvəlcə bilavasitə əlaqədə olan ilkin qruplar yaranır. Sonra onların əsasında ikincili – reqional qruplar və s. yaranır.

**Üzvülüyün əhəmiyyət dərəcəsinə görə** qrupların iştirak, referent və neqativ referent növləri vardır. Adından da göründüyü kimi iştirak qrupunda onun üzvü sadəcə iştirak edir, əslində isə başqa qrupun üzvü olmağı arzulayır. Referent qrup elə qrupdur ki, onun üzvləri könüllü şəkildə onun bütün norma və dəyərlərini qəbul edirlər. Neqativ referent qrup isə elə real və ya virtual qrupdur ki, insan onun norma və dəyərləri ilə yaşamaq istəmir.

**Qərar qəbuletmə üsuluna görə** qruplar üç yerə ayrılırlar: avtoritar, demokratik və oxlokratik. Avtoritar qrupda (məsələn, orduda) onun üzvləri qərar qəbulunda iştirak etmirlər. Demokratik qruplarda üzvlər qərarın qəbulunda kifayət qədər iştirak etmək imkanına malk olurlar. Oxlokratik qrupda isə qərarı "hamı" qəbul edir, eyni vaxtda da heç kim qəbul etmir.

Real həyatda qrupların strukturunda müxtəlf növlərin kombinasiyası müşahidə olunur.

### 13.2. Siyasətdə kiçik qrupların formalaşması.




Cədvəl 13.2. Siyasi qrupların yaranma mərhələləri

**Siyasi qrupların yaranmasının mərhələləri.** Siyasi hərəkətlər nəticəsində qrup yaranmağa başlayanda insanların siyasi davranışında eyni psixoloji mexanizmlər işə düşür. Bu mexanizmlər təkcə həmcins partiyalar üçün deyil, həm də müxtəlif partiyalar üçün ümumi xarakter daşıyır. Çoxsaylı tədqiqatlar qrupların yaranması və formalaşması prosesində beş əsas mərhələni ayırd etməyə imkan verir:

1. Nominal qrup mərhələsi. Bu mərhələdə müəyyən qrup insan könüllü və ya məcburi surətdə təsadüfən bir yerə yığışaraq siyasi fəaliyyətlə məşğul olurlar. Bu mərhələnin əsas funksiyası tanışlıqdır. Adətən bu ümumi siyasi mövzularda diskussiya, manifestlərin yazılması, müxtəlif müraciətlərin imzalanması və s. şəklində olur.

2. Assosiativ qrup mərhələsi. Bu mərhələlərdə qrup üzvləri arasında ilkin əlaqələr, assosiasiyalar yaranır. Artıq təşkilatın ilkin əlamətləri formalaşmağa başlayır. Bunlar formal əlaqələr şəklində olur, məsələn, ilkin və ya regional təşkilatlar yaradanda.

3. Kooperativ qrup mərhələsi. Bu mərhələdə ümumi maraqlar, məqsədlər, hərəkətlər formalaşmağa başlaylır. Ilkin qrup təcrübəsi yaranmağa başlayır. Məsələn, ilkin iclaslar, müxtəlif siyasi aksiyaların keşirilməsi, nümayişlərdə iştirak etmək və s.

4. Korporativ qrup mərhələsi. Bu mərhələdə artıq ümumi maraqlar, məqsədlər, hərəkətlər, affektlər kifayət qədər sabit xarakter daşıyır. Bəzən qrupda eqoizm və individualizm özünü göstərsə də ümumilikdə intellektual, emosional və iradi səviyyədə qrup bütöv halda fəaliyyət göstərir.

5. Kollektiv mərhələ. Bu mərhələdə təkcə sabit, ümumi maraqlar, məqsədlər, hərəkətlər deyil, onların yüksək səviyyədə dərk edilməsi, qrup üzvlərinin konsolidasiyası müşahidə olunur.

**13.3. Siyasətdə kiçik qrupların formalaşmasının meyarları:**

1. Baxış və əlaqələrin birliyi prinsipi – bu prinsip üstünlük təşkil edəndə kifayət qədər sıx birləşmiş, siyasi effektli, lakin heç də həmişə yüksək peşəkarlığa malik olmayan qrup yaranır. Onlar öz baxışlarına dərin inam bəsləyir və öz ideologiyalarının əsirinə çevrilirlər.

2. Kompetentlik prinsipi – bu zaman sıx birləşmiş, effektli, yüksək peşəkar qrup yaranır və ciddi nəticələr əldə edilir. Con Kennedinin komandasından başlamış bu günə qədər ABŞ prezidentlərinin komandaları buna misal ola bilər.

3. Liderə şəxsi sədaqət prinsipi – bu üstünlük təşkil edəndə çoxsaylı problemlər yaranır. Bu zaman hamı liderə tabe olur və onun iradəsini icra edir. Bu prinsiplə yaranan qruplarda həmişə çoxlu konflikt yaranır.

**Siyasi qrupun yaranmasının daxili mexanizmləri.** Siyasi qruplar yaranarkən daxili psixoloji proseslər – insanların bir-biri ilə qarşılıqlı münasibətləri qrupun yaranıb-yaranmamasında böyük əhəmiyət kəsb edir. Onlar əsasən ilkin mərhələdə özünü parlaq çəkildə göstərir.

**Tanışlıq.** Qrupun yaranmasının bu mərhələsində insanlar hələ bir-birinə və liderə baxırlar, öyrənirlər. Bu zaman insanlar rəsmi münasibətlərdə olurlar.

**İlkin mikroqrupların yaranması.** Bu mərhələdə bir-birini öyrənmək başa çatır və simpatiya, maraqların üst-üstə düşməsi, xarakterlərin uyğunluğu əsasında insanlar yaxınlaşmağa başlayırlar – ilkin mikroqruplar yaranmağa başlayır, aktiv özək formalaşır və qrup passivinə təsir gösrərir.. Bu mərhələdə siyasi-psixoloji özünütənzimləmə mexanizmi işə düşür, qrup mövqeyi formalaşmağa başlayır.

**Qrup konsolidasiyası.** Qrup üzvləri arasında əlaqələr möhkəmlənir, qrupda pozitiv iqlim yaranır, qrup "rahat nəfəs alır", liderin nüfuzu artır, işə mane olanlar ya tərbiyələndirilir, ya da qrupdan qovulur.

**Lider və qrup (komanda).** Tarixə nəzər salsaq lider və qrupun müxtəlif komanda formalarını ayırd etmək mümkün olar.

**Qohum-tayfa münasibətləri əsasında qurulan komanda.** Belə komandalar qohumluq əlaqələri ilə yaradılır. Məsələn, tarixən Fransada, İngiltərədə şahların "komandaları"nı, müasir dövrdə Şərq ölkələrində (İrakda, Suriyada, Filippində) buna misallar göstərmək olar.

**"Güclü (zalım) mərkəz" komandası.** Belə komanda hər cəhətdən liderə borclu olur, və onun bir sözünü iki etmirlər. Çox vaxt bu tip komanda rəsmi komandaya qarşı qoyulur, onlar liderin mənafeyini qoruyurlar.

**Qeyri-rəsmi münasibətlər əsasında qurulan komanda.** Əslində belə komandalar "gizli" şəkildə mövcud olub, liderin məsləhət-məşvərət şurası rolunun ounayırlar.

**“İstedadlar nazirliyi” komandası.** Termin ilk dəfə IX əsrdə işlədilmişdir. Belə komandaya misal kimi Napoleon Bonapartın komandası göstərilir.

**13.5. Liderin üç komanda qanunu.**

Analiz göstərir ki, adətən prakrikada lider bir komanda ilə kifayətlənmir. Zaman keçdikcə komandalar öz vəzifəsini yerinə yetirir və yerini başqa komandaya verir:

1. Birinci komanda lideri hakimiyyətə gətirir.
2. Lider hakimiyyətin zirvəsində olduğu dövrdə mövcud olan ulduz komanda.
3. Dəfn komandası – liderin hakimiyyətinin yekunlaşması dövründəki komanda.

Mövzuya aid sual və tapşırıqlar:

1. Qrup nədir?
2. Siyasətdə qrupun rolu.
3.Qrupların təsnifatını verin.
4. Siyasi qrupların yaranma mərhələlərini göstərin.
5. Siyasi qrupların yaranma meyarlarını izah edin.
6.Siyasi qrupun yaranmasının daxili mexanizmlərini izah edin.
7.Lider və qrup, müxtəlif komandaların xarakterik xüsusiyyətləri.

Ədəbiyyat:


1. Гобсс Т. Изобранные произведения.Т. 2, М., 1964, с.239-256
2. Вебер М. Изобранные роизведение. М., 1990, с.660-684
3. Вятр Е. Социология политических отнощений. М., Прогресс, 1979, с.98-154
4. Майерс Д. Социальная психология. СПб., 2001, с. 297-360; 388-396
5 .Ольшанский Д.В. Политическая психология. СПб.:Питер, 2002, с.142-161;
6. Шестопал Е.И. Политическая психология. ИНФРА-М, 2002, с.256-261; 273-282

7. Щепанский Я. Элементарные понятия социологии. М., Прогресс, 1969, с.118-126

## XIV mövzu

## Böyük sosial qruplar

**Qısa məzmun. Siyasətdə böyük qruplar**. Siniflər, (stratlar), sosial qruplar, təbəqələr. Böyük qrupların siyasi psixologiyası. Gündəlik qrup psixologiyası.

**Qrup şüuru. Qrup ideologiyası.** Qrup ideolgiyasının strukturu. Böyük qrupun dəyərləri. Şüurun, həyatın, qrup şüurunun və davranışının əsas normaları. Qrup nümayəndələrinin konkret davranış nümunələri.

**Böyük qrupların inkişaf səviyyələri.** "Xarici tipoloji" səviyyə. "Daxili identifikasiya" səviyyəsi. "Həmrəy hərəkətlər" səviyyəsi. Əsas sosial qrupların siyasi - psixoloji keyfiyyətləri. Burjuaziya, fəhlə sinfi, kəndlilər. Ziyalılar. Marginal qruplar və lumpenləşmiş təbəqələr.

**Elitanın psixologiyası.** Siyasi elitanın yaranması və saxlanılmasının səbəbləri. Elitanın funksiyaları.

**14.1. Siyasətdə böyük qruplar.** Böyük sosial qruplara siniflər, sosial qruplar, təbəqələr aiddir. Siyasətdə böyük sosial qruplar əsas rol oynayur. Məlum olduğu kimi əsil siyasət minlərlə, milyonlarla insan olduğu yerdə başlayır. Bu insanlar seçkilərdə səs verirlər, liderlərin etibar və ya etibarsızlıq reytinqlərini müəyyənləşdirirlər və ümumiyyətlə, müharibələri ya udur, ya uduzurlar, inqilablar edirlər, ölkənin iqtisadi inkişafını ya təmin edir, ya da etmirlər.

**Böyük qrupların siyasi psixologiyası.** İnsanın sosial-iqtisadi vəziyyəti onun psixikasının, ümumilikdə şüurunu yox, konkret olaraq psixikasının funksiyalarını müəyyənləşdirir. Bir eksperimenti nəzərdən keçirək. Amerikada 100 yeniyetməyə 1 dollarlıq pulun şəklini çəkmək tapşırılır. Eksperimentin nəticələri göstərdi ki, aşağı gəlirli ailələrdən çıxmış uşaqlar əskinazı olduğundan böyük çəkdilər. Eksperimentin nəticələrinin təhlili göstərdi ki, müxtəlif sosial qrupların nümayəndələrinin dünyaya baxışı və dünyanı qavraması müxtəlifdir. Belə müxtəlifliyin əsasında insanın özünün, ailəsinin daxil olduğu böyük sosial qrupun sosial-iqtisadi şərtlərindən asılı olaraq formalaşan şəxsi təcrübəsi dayanır.

Insanın davranışına təsir edən belə psixologiya insanların əsas tələbatlarını formalaşdırır. Tələbatlar üç yerə bölünür: fizioloji tələbatlar (yemək, yatmaq, istilik və s.), sosial tələbatlar (hörmət, özünü qiymətləndirmə və s.), həyatın mənasını dərk etməyə olan tələbatlar.

**14.2. Qrup şüuru.** Böyük sosial qrupun şüuru dedikdə, qrup üzvlərinin mövcud sosial-siyasi münasibətlər sistemində mövqeyinin, həmçinin öz spesifik tələbat və maraqlarının dərk olunması səviyyəsi başa düşülür. Böyük sosial qrupların şüuru uzun sürən tarixi yol keçmişdir. Onun əsasında sosial qrupların tələbatları və onların təmin olunması imkanı dayanır. Sosial qrupların şüuru siyasi-psixoloji və ideoloji elementlərlə sıx bağlıdır. Belə qrup şüuru genetik olaraq adi, gündəlik qrup psixologiyasından yaranır. Qrup şüuru fərd tərəfindən daxil olduğu böyük sosial qrupun təcrübəsinin mənimsənilməsidir. Sosial qrupların müxtəlif məişət səviyyələri insanların fəaliyyətində kifayət qədər müxtəlif tələbatlar, maraqlar və motivlər yaradır. Onlar qrup üzvlərinin əksəriyyətində dərk olunan və ya dərk olunmayan psixoloji xüsusiyyətlər kimi formalaşır. Qrup şüurunun kütlə şüurundan fərqi odur ki, onda artıq müəyyənləşmiş dəyərlər ictimai-siyasi fəaliyyətin məqsədləri haqqında dəqiq təsəvvürlər əks olunur. O, bütöv fenomen kimi çıxış edir. Daha sonra qrup şüuru qrup ideologiyası şəklində inkişaf edir. Qrup ideologiyası ilə elita məşğul olur. Beləliklə, böyük qrupların siyasi psixologiyasının üç səviyyəsi ayırd edilir:

1. Gündəlik qrup psixologiyası;
2. Qrup şüuru;
3. Qrup ideologiyası.

**Qrup ideologiyasının strukturu.** Üç əsas komponenti vardır:

1. Böyük qrupun dəyərləri;
2. Şüurun, həyatın, qrup şüurunun və davranışının əsas normaları;
3. Qrup üzvlərinin konkret davranış nümunələri.




Cədvəl 14.1. Qrup ideologiyasının strukturu

Sosial qrupların ideologiyası, siyasi proqramlar, manifestlər, şüarlar şəklində mövcüddur. Bir qayda olaraq qrup ideolgiyasını yaymaqdan ötrü siyasi alətlərdən - təşkilatlar, partiyalar, hərəkatlar, deputat qruplarından və s. istifadə edirlər. Burada əsas rollardan birini böyük qruplar və onların elitası tərəfindən yaradılan xüsusi KİV oynayır.

**14.3. Böyük qrupların inkişaf səviyyələri.** Üç səviyəsi vardır:

1. "Xarici tipoloji" səviyyə - böyük sosial qrupun üzvləri üçün ümumi olan xarici göstəriciləri bildirir. Müşahidələr göstərir ki, eyni böyük sosial qrupların üzvləri tədricən ümumi oxşar xarici keyfiyyətlərə malik olurlar. Məsələn, bütün dünyanın fəhlələri işə gələndə paltarlarını dəyişib iş paltarı geyinirlər. Bankirlər bahalı və məşhur firmalara məxsus eyni cür saatlar taxırlar. Ofis qulluqçıları bir qayda olaraq "ağ varatnikli" olurlar.

2. "Daxili identifikasiya " səviyyəsi – Bu səviyyədə böyük sosial qrupda insanlar arasında ilkin psixoloji əlaqələr yaranır. İnsanların xarici göstəricilərə görə oxşar olması əvvəl axır onları belə bir nəticəyə gətirib çıxarır: "biz fəhlələr", "biz bankirlər", "biz kəndlilər" və s. Beləliklə, ilkin qrup şüuru və daxili identifikasiya yaranır. Bu səviyyədə artıq ümumi davranış, maraqlar, təsəvvürlər, baxışlar qiymətləndirmə yaranır. Insanlar biri-birilə şəxsi kontaktda olurlar. Belə identifikasiya siyasi davranışda öz əksini tapır. Tədqiqatlar göstərmişdir ki, məhz daxili identifikasiya, məsələn, yerli seçkilərdə əhalinin necə səs verməsini müəyyənləşdirir. Onlar "öz" namizədlərini seçirlər.

3. "Həmrəy hərəkətlər" səviyyəsi – bu səviyyədə artıq sosial qrupun üzvləri öz maraq və məqsədlərini qorumaq üçün birgə fəaliyyətə hazırlıq nümayış etdirirlər. Belə səviyyəyə çatmaq üçün adətən xarici təkan lazım olur. Adətən qrup üçün və deməli, qrup üzvünün şəxsi maraqları üçün yaranan təhlükə belə təkan rolunu oynayır. Belə təkan rolunu KİV- də oynaya bilər.

**Əsas sosial qrupların siyasi - psixoloji keyfiyyətləri. XX** əsrdə üç böyük sosial qrup fərqləndirilirdi: 1). Burjuaziya; 2). Fəhlə sinfi; 3). Kəndlilər. Bundan başqa onlar arasında stratlar və ya təbəqələr də ayırd edilirdi.

Burjuaziya həmcins olmayan böyük sosial qrupdur. Onun əsas məqsədi öz biznesini möhkəmlətmək, genişləndirmək və gəlir əldə etməkdir. Onun siyasətdə iştirakı məhz bu məqsədlədir. Burada deyd etmək lazımdır ki, inkişaf etmiş sənaye ölkələrində burjuaziyanın siyasətdə iştirakı praktik olaraq nadir hallarda olur. Burjuaziyanın inkişafı xüsusi peşəkar siyasətçilər qrupu formalaşdırmışdır ki, bu qrup burjuaziya tərəfindən maliyyələşdirilir və onlar özlərini burjuaziyadan kənar aparsalar da onların siyasi maraqlarını qoruyurlar.

Fəhlə sinfi. Bu günki fəhlə sinfi sənaye inqilabı dövründəki "proletariat" keyfiyyətlərini itirmişdir. Fəhlə sinfinə daha çox siyasətdən özgələşmə, siyasi partiyalara inanmamaq, seçkilərdə iştirak etməmək xasdır. Fəhlənin sosial qrup səviyyəsinin inkişafı tarixi ənənələrlə sıx bağlıdır. Məsələn, fransız fəhləsi psixoloji cəhətdən amerikan fəhləsindən fərqlənir. Fransız fəhlə sinfi 1848-ci ildə burjua demokratik inqilabında əhəmiyyətli rol oynamışdır. Bu tarixdə ilk proletar inqilabı idi. Daha sonralar fəhlə sinfi Xalq Cəbhəsi və Müqavimət dövründə öz hüquqlarını qoruyub saxlamışdır. Bütün bunlar müasir Fransanın partiya-siyasi strukturunda öz əksini tapmışdır.

Amerikada tarixən formalaşmış individualizm pultu, şəxsi maraqların əsas faktor olması, "Amerikan Dream" və "self made – man" prinsipləri, ideyaları Amerika cəmiyətinin siyasi-psixoloji atmosferinə dərin şəkildə hopmuşdur. Bu pult fəhlə sinfinə də təsir göstərmiş və onların sosial-qrup şüur variantını yaratmışdır.

Kəndlilər siyasətdə həmişə inert kütlə sayılmışlar. Belə hesab edilir ki, kəndlilərdə qrup şüurunun və xüsusilə də qrup ideologiyasıının yaranması çox çətinliklərlə bağlıdır. Onların həyat tərzi, daimi əmək sərf etməsi kəndlilərdə fərdi psixologiyanı möhkəmlədirir, onu yüksək səviyyəyə qalxmağa, məsələn. özünü böyük sosial qrupun üzvü kimi dərk etməyə qoymur. Bu gün siyasətdə kəndlilər adından danışanlar kəndlilərin özləri yox, onların elitasını təşkil edən aqrar- bürokrat elitadır. Bu elita öz elektoratından dəstək görmür və həmişə başqa siyasi qüvvələrlə birləşməyə məcbur olur.

**Ziyalılar.** Bu yüksək təhsil görmüş insanların fərdi şüurunun yüksək səviyyəsi olub, qrup şüuruna obyektiv əngəl olan fenomendir. Son onillikdə ziyalılar

özlәlini “orta sinif”, “orta tәbәqә” adlandırırlar. Ziyalılar siyasәtdә iki cür iştirak edir. Bir tәrәfdәn müasir intelligensiya böyük burjuaziyanın siyasi vә ideoloji aparatı formasında çıxış edir, ikinci tәrәfdәn öz vәziyyәtlәrinә görә muzdlu işçi sәviyyәsindә olan ziyalıların kasıb tәbәqәsi, әsasәn zәhmәtkeş stratların vә tәbәqәlәrin ideoloqları rolunda iştirak edir.

**Marginal qruplar vә lumpenlәşmiş tәbәqәlәr.** Marginal latın dilindә *margo* olub tәrcümәdә kәnar mәnasını verir. Aralıq tәbәqәni bildirir. İlk dәfә R.Park 1920-ci ildә bu anlayışı iştәtmişdir. O, marginal qrup deyәndә miqrantların (immiqrantların) yeni sosial qrupların tәlәblәrinә uyğunlaşa bilmәdiklәrindәn yaranan sosial vә siyasi-psixoloji nәticәlәri nәzәrdә tuturdu (hәrbi xuntalar, sektalar vә s.). Qulluqçular sinfi dә marginal qrup kimi baxıla bilәr (dövlәt çinivniklәri vә s.). Marginal tәbәqәnin bir növü kimi lümpenlәşmiş tәbәqә göstәrilir. Lümpen alman dilindә *lumpen* olub tәrcümәdә tör-töküntü mәnasını verir. Cәmiyәtin әn aşağı tәbәqәlәrini bildirir.

**14.4. Elitanın psixologiyası.** Latın sözü *eligeri* vә fransız *elite* sözündәn olub әn yaxşılar, seçilmişlәr mәnasını verir. XVII әsrdә mәhsulun keyfiyyәtini bildirmәk üçün bu anlayışdan istifadә olunub. XIX әsrdәn sosial-siyasi termin kimi işlәnlir. Müasir elita nәzәriyyәsinin әsası hәlә Platonun, T. Karlaylin, F.Mitçenlin vә başqalarının әsәrәrindә qoyulmuşdur. XX әsrdәn V. Pareto, Q. Moska, R. Nixes vә başqaları tәrәfindәn inkişaf etdirilmişdir.

**Siyasi elitanın yaranması vә saxlanmasının sәbәblәri.** Altı әsas sәbәbi vardır:

1. İnsanların psixoloji vә sosial bәrabәrsizliyi, siyasi fәaliyyәtdә iştirak etmәk bacarıq, imkan vә arzularının eyni olmaması;

2. İdarәetmә fәaliyyәtindә effektliliyә nail olmaq üçün tәlәb olunan peşәkarlıq, әmәk bölgüsü;

3. İdarәçilik fәaliyyәtinin böyük sosial әhәmiyyәti vә ona uyğun stimullaşdırılması;

4. İdarәetmә fәaliyyәtinin sosial üstünlük qazana bilmәk dәrәcәsinәdәk artırmaq imkanı;

5. Əhali tərəfindən siyasətçilərin ciddi nəzarət oluna bilməməsi;

6. Əhalinin siyasətə qarşı passiv mövqeyi və onda iştirakı.

**Elitanın funksiyaları:**

1. Siyasi ideologiyanın işlənib hazırlanması funksiyası - proqramlar, doktrinlər, konstitusiya və s.;

2. Müxtəlif siyasi proyektlərin həyata keçirilməsi mexanizmlərinin işlənib hazırlanması - qanun, siyasi qərarlar, planlar və s.;

3. Sosial qrupların, sosial cəmiyyətin mümkün maraqlarının öyrənilməsi və təhlil edilməsi funksiyası;

4. Cəmiyyətdə siyasi institutlar sisteminin formalaşdırılması və onlar arasındakı qarşılıqlı münasibətlərin koordinasiya edilməsi funksiyası

Elitanın nümayəndələri yüksək şəxsi siyasi mədəniyyətə, qlobal qavrayışa və hal-hazırda baş verənləri tez və dərin təhlilə, nəticələri əvvəlcədən görmək, siyasi davranışda dinamizmə, sosial-siyasi sferada baş verənlər üçün yüksək məsuliyyət hissinə malik insanlardır.

Mövzuya aid suallar və tapşırıqlar:

1. Cəmiyyətin siniflərə və təbəqələrə bölünməsinin səbəblərini izah edin.
2. Gündəlik qrup psixologiyası, qrup şüuru və qrup ideologiyasını fərqləndirin.
3. Qrup ideologiyasının srukturuna nə daxildir?
4 .Böyük qrupların hansı səviyyələrini ayırd edirlər?
5. Ziyalılar qrupunu səciyyələndirin.
6. Elitanın yaranma və saxlanma səbəblərini göstərin.
7. Elita hansı funksiyaları yerinə yetirir?

Ədəbiyyat:

1. Ашин Г.К. Современные теории элиты. М., Прогресс, 1985
2. Вебер М. Изобранные произведения. М., 1990, с.652-685
3. Ольшанский Д.В. Политическая психология. СПб.:Питер, 2002, с.287-321

4. Политическая психология. /под общ. ред. А.А.Деркача и др./ М., 2001, с.220 -239

5. Современная западная социология. Словарь. М., Политиздат, 1990, с.210

6. Prewitt., Stone A/ The Rulling Elites/ Elite Theory/ Power and Amerikan Demokrasy/ N-Y, The free Press, 1977, p.4-45

## XV mövzu

## Böyük milli-etnik qruplar

**Qısa məzmun**. **Milli-etnik qrupların** əsas növləri: nəsil, tayfa, xalq, millət, etnos, irq. Milli etnik psixologiya.

**Milli xarakter.** Milli xarakterin formalaşması. Milli xarakterin strukturu: milli temperament, milli emosiyalar, milli hisslər, milli xürafat**.**

**Milli şüur**. Adi milli şüur. Nəzəri milli şüur. Adi milli şüurun strukturu: tələbatlar, maraqlar, dəyərlər sistemi və yönəlişliklər; stereotip təsəvvürlər, sadə normalar və davranışın elementar nümunələri – adət-ənənələr; emosional elementlər və onların ifadə formaları.

**Milli özünüdərk**. Milli özünüdərkin genezisi.

**15.1.** Milli-etnik birliklər sosial qruplardan əvvəl yaranmışlar. Məhz buna görə milli-etnik birliklər sosial birliklərdən daha dərindir. Milli-etnik qruplar ümumi daxili, xarici və psixoloji keyfiyyətlərə malik olan, eyni millətin və etnosun nümayəndələri olan minlərlə və milyonlarla insanı özündə birləşdirən böyük qruplardır. Milli-etnik psixologiya insanların real surətdə milli qruplara məxsusluğu əsasında formalaşır. Bu, fiziki, iqlimi, bioloji və başqa faktorların mürəkkəb təsiri nəticəsində baş verir. Milli-etnik psixologiya iki əsas faktoru özündə birləşdirir: daha çox irrasional olan milli xarakteri və daha çox rasional olan milli şüuru. İrrasional və rasional faktorların məcmusu isə öz növbəsində millətin psixoloji tərzini formalaşdırır.

**Milli -etnik qrupların əsas növləri:**

| | |
|---|---|
| 1. Nəsil | 4. Millət |
| 2. Tayfa | 5. Etnos |
| 3. Xalq | 6. İrq |

Nəsil - özünü hansısa bir ulunun törəmələri kimi dərk edən qan qohumlarıdır. Nəsildən ibarət olan cəmiyyət iki mərhələdən keçmişdir: Matrearxal və patrearxal. Müasir günümüzdə nəsil klan mənasında işlənir.

Tayfa – iki və ya daha çox nəslin birləşməsindən yaranır. Buna siyasi təşkilatın daha yüksək forması kimi baxıla bilər. Nəsildən fərqli olaraq tayfa artıq öz ənənələrinə, səciyyəvi adlara, öz dialektinə malik olur. Y. Şepanskiy göstərir ki, tayfa həmişə daxilən formal kontura malik olub. Belə ki, tayfada artıq başçı və ya

başçılar şurası, ərazini qorumaq üçün silahlanmış xüsusi qrup və s. vardır. Asiya, Afrika ölkələrində hələ də öz əhəmiyyətini saxlamaqdadır.

Xalq – bir neçə nəsil və tayfanın əsasında meydana gəlir.

Millət – tarixən nəsillər və tayfalar inkişaf edərək millət şəklində formalaşırlar. Millət - ərazi birliyi, iqtisadi əlaqələr, ədəbi dil, mədəniyyətin bir sıra cəhətləri, xarakteri və bütövlükdə psixikanın birliyi zəminində formalaşan böyük tarixi insan birlikləridir.

Etnos – tayfa, xalq, millətlər şəklində tarixən yaranmış sabit insan birliyidir. Etnos dedikdə ümümi yaşama arealına və ümumi mədəni-psixoloji və davranış keyfiyyətlərinə malik olan  milli lingvistik qruplar başa düşülür.

İrq – eyni fizioloji, irsi əlamətlərdə təzahür edən, eyni mənşəyə malik olan, tarixən formalaşan super böyük areala məxsus insan qrupudur.

**15.2. Milli xarakter.** Milli-etnik psixologiya siyasi-psixoloji fenomen olub, iki faktoru özündə birləşdirir: 1) daha çox irrasional olan milli xarakter; 2) daha çox rasional olan milli şüur. Bu iki faktorun biri-birini tamamlaması millətin psixoloji xüsusiyyəti kimi üzə çıxır. Milli xarkter-milli birlikləri səciyyələndirən ətraf aləmi qavramağın və ona verilən reaksiyaların sabit və ümumi xüsusiyyətlərinin məcmusudur. Milli xarakter milli temperamentdə özünü daha parlaq göstərir. Məsələn: Skandinaviyalıların və latın amerikalıların temperamentində bunu müşahidə etmək olar.

Milli xarakterin mənşəyini insan orqanizminin mərkəzi əsəb sisteminin reaktivliyində özünü göstərən sabit psixo-fizioloji və bioloji xüsusiyyətlər təşkil edir. Bu faktorlar öz növbəsində fiziki göstəricilərlə, birinci növbədə iqlim göstəricilərilə, ümumiyyətlə, mühitlə əlaqəli olur. Deməli, vahid milli xarakter insan birliyinin hansı ərazidə yaşamasının nəticəsi kimi meydana gəlir. İsti ekvator iqlimi soyuq şimal iqlimindən fərqli psixo-fizioloji və bioloji xüsusiyyətlər, onun da ardınca milli xarakter yaradır. Bu nəzəriyənin banilərindən biri sayılan Ş.L.Monteskyeyə görə iqlim, torpaq, yerin üst qatı xalq ruhunu yaradır. Sübut olunub ki, Yunanıstanın dəniz sahilinin kəsikləri qədim Elladanın sivilizasiya beşiyi olmasını şərtləndirib.

**Milli xarakterin strukturu:**

1. Milli temperament;
2. Milli emosiyalar;
3. Milli hisslər;
4. Milli xürafat.

Bu səviyyələr ierarxik ardıcıllıqla temperamentdən mövhümata qədər düzülür. Onları ayrılıqda izah edək.

**Milli temperament.** Latınca *temperamentum* sözündən olub hissələrin nisbəti mənasını verir. Siyasətdə temperament psixikanın dinamik xüsusiyyətlərinə əsasən insan davranışını səciyyələndirən əlamətdir. Milli temperament psixikanın dinamik xüsusiyyətləri baxımından insan davranışının səviyyəsini bildirir.

**Milli emosiyalar.** Milli-etnik qruplarda üstünlük təşkil edən emosional halətlərdir. Məsələn, italyanların emosionallığı və ingilislərin soyuqqanlılığı. Emosiyalar temperament üzərində qurulur və həyat-fəaliyyətin ümumi enerji tonusu ilə əlaqəlidir.

**Milli hisslər.** Milli hisslər mədəniyyətdə öz əksini tapmış ilkin emosiyaların daha mürəkkəb formasıdır. Məsələn: milli qürur, velikarus, milli mövhümat, millətlərin və ya xalqların "tarixi missiyası" haqqında emosional sahədə sabitləşmiş mifologenlərdir.

**15.3. Milli şüur.** Milli şüur milli-etnik qrupların ruhi (mənəvi) inkişaf səviyyəsini səciyyələndirən sosial, siyasi, iqtisadi, mənəvi, estetik, fəlsəfi, dini baxışların məcmusudur. Milli şüurun özəyini milli özünüdərk təşkil edir.

İctimai-siyasi şüurun başqa növləri kimi milli şüur da bir-birini şərtləndirən və tamamlayan iki tərəfdən ibarətdir:

1. Adi milli şüur;
2. Nəzəri milli şüur



Cədvəl 15.1. Milli şüur

Adi milli şüur milli xarakterlə sıx bağlı olub məişət və gündəlik milli- etnik psixologiyanı bildirir. Başqa sözlə desək, bu, geniş milli kütlələrin şüurunda gündəlik gerçəkliyi əks etdirmənin nəticəsi olan milli şüurun empirik səviyyəsidir. Ondan fərqli olaraq nəzəri şüur daha yüksək səviyyə olub qrupların gündəlik əhval-ruhiyyəsinin, təsəvvürlərinin, tələbatlarının, iradi meyllərinin sistemləşdirilməsi və ümumiləşdirilməsinin nəticəsi olaraq milli şüurun rasional ideoloji səviyyəsini əks etdirən ideologiyadır. Deməli, nəzəri şüur millətin ideolgiyasıdır.

**Adi milli şüurun strukturu:**

1. Adi milli şüurun daxili strukturu kimi, birinci növbədə, tələbatlar, maraqlar, dəyərlər sistemi və yönəlişliklər çıxış edir.

2. Daha sonra adi milli şüurun strukturu kimi stereotip təsəvvürlər, sadə normalar və davranışın elementar nümunələri çıxış edir. Bura həm tarixi, həm sosial köklərə malik olan adət-ənənələr aiddir.

3. Emosional elementlər və onların ifadə formaları (obrazlar, səslər, rənglər) adi milli şüurun strukturunda əhəmiyyətli yer tutur.




Cədvəl 15.2. Adi milli şüurun strukturu

**Nəzəri milli şüur.** Adi milli şüurun seçilmiş sosial-siyasi elementlərinin elmi ümumiləşdirilməsidir. Buraya mənsub olduqları tarixin yüksək qiymətləndirilməsi, millətin bugünkü vəziyyəti və inkişaf perspektivləri, hər bir fərd

üçün məcburi olan seçilmiş normalar, dəyərlər, davranış nümunələri aiddir. Nəzəri milli şüurun mütləqləşdirilməsi millətçiliyə, şovinizmə apara bilər.

**15.4. Milli özünüdərk.** Milli özünüdərk milli-etnik birlik üzvlərinin öz tarixləri, müasir durumları, inkişaf perspektivləri, başqa birliklər içində yerləri, onlarla qarşılıqlı münasibətlərinin xarakteri haqqında olan təsəvvürlərinin səviyyəsi və xüsusiyyətlərini əks etdirən baxışlarının, fikir və münasibətlərinin məcmusudur. Milli özünüdərk milli şüurun və millətin bütün psixikasının özəyidir. O, insana ruhi-mənəvi və sosial-siyasi həyatda özünütəyin üçün zəruri olan qiymətləndirmə sistemində və rasional qiymətləndirmə təsəvvürlərində dayaq nöqtəsi kimi çıxış edir. Milli özünüdərk insan şüurunun bütövlükdə sosial-psixoloji mexanizmləri üzərində yaranır. Bu zaman "biz" və "onlar" prinsipi özünü göstərir. İnsanın özünü hər hansı bir qrupa aid etməsi (biz), özünü başqalarından ayırmaqla (onlar) baş verir.

Milli özünüdərkin inkişafı düz xətt üzrə deyil, yüksəlişlər və enişlərlə müşahidə olunur. Onun inkişafına başqa faktorlarla yanaşı milli-etnik qrupun formatı da təsir edir. Məlumdur ki, birlik kiçik olduqca, onda milli özüdərk problemləri kəskin yaşanır və qəfil partlayışla nəticələnə bilir. Əksinə, birlik böyük olduqca, onun üzvləri özlərini inamlı hiss edirlər və orada özünüdərk problem kimi yaşanmır. Böyük birliklərdə bu kimi məsələlərin həlli dövlətə həvalə olunur.

Milli özünüdərkin inkişafı o vaxt pozitiv olur ki, o, özünü mütləqləşdirmir, öz millətini fövqəladə millət saymır.

Mövzuya aid sual və tapşırıqlar:

1.Milli-etnik qrpların hansı növlərini tanıyırsınız?

2.Milləti psixoloji tərzi nədir və o necə formalaşır?

3.Milli xarakterin mahiyyəti nədir və o necə formalaşır?

4.Milli xarakterin hansı struktur hissələri vardır?

5.Milli şüur nədir və onun hansı tərkib hissələri vardır?

6.Adi milli şüurun srukturuna nə daxildir?

7.Milli özünüdərk nədir?

Ədəbiyyat:

1 .Бороноев А.О., Павленко В.Н. Этническая психология. СПб., СпбГУ, 1994

2. Введение в этническую психологию / под ред. Ю.П Платонова. СПб., СпбГУ, 1994

3. Ключевский В.О. Сочинения. Т.1, М., Мысль, 1987, с. 315-321

4. Политический словарь. М., Госполитиздат, 1990, с. 371.

5. Ольшанский Д.В. Политическая психология. СПб.:Питер, 2002, с.323-356

6. Deutsch K.W. Tides among nanions. N-Y, Norton, 1979

## XVI mövzu

## Kütlə psixologiyası

**Qısa məzmun. Kütlə anlayışı:** İnsanların toplanması və onların idarəolunmaz davranış formaları. **Kütlə nəzəriyyələri**. Kütlənin əsas xüsusiyyətləri: onun müvəqqəti mövcudluğu, funksional və dinamikliyi, kütlənin antistrukturluğu.

**Kütləvi şüur.** Məzmununa və funksiyasına görə kütləvi şüurun səciyyəvi xüsusiyyətləri. Kütləvi şüurun strukturu: emosional-hərəki səviyyə; rasional səviyyə.

**Kütləvi şüurun formalaşması**. Kütləvi şüurun tipologiyası. İctimai rəy. İctimai rəyin funksiyaları: ekspressiv funksiya; nəzarət funksiyası; məsləhət funksiyası; direktiv funksiya.

**Kütlələr.** Kütlənin növləri: dəstə, izdiham; publika; yığılmamış publika.

**Kütlədə insan.** İndividuallığın itirilməsi. Məsuliyyət hissindən azadolma. Kütlə liderləri: "İmam", "Təsadüfi fanatik", "Degenerat autsayder", "Diktator". **Kütlə və elita.**

**16.1.** Ilk dəfə kütlə anlayışı termin kimi XVII, XIX əsrlərdə işlənilmişdir. İlk dəfə ingilis E.Berk və J. De Mestr o vaxt aristokratiyanı qorxudan qüvvəni kütlə adlandırmışdır.

XX əsrin sonlarında Q. Lebon ilk kütlə nəzəriyyəçisi oldu. Onun üçün əsas model izdiham idi. Bu izdiham fərdlərin sosial vəziyyətlərindən, milliyyətlərindən, peşəkarlığından asılı olmayaraq onlar arasında qarşılıqlı təsir nəticəsində yaranan psixoloji fenomen kimi nəzərdən keçirilirdi. Lebon kütlələri öyrənərkən " kütlə ruhu" anlayışını işlədirdi. O, göstərirdi ki kütlə, ümumi hisslərə, ümumi energetikaya malik olur ki, burada şüurlu şəxsiyyət əriyir.

Kütlə nəzəriyyələrinə qədər " kütləvi cəmiyyət" nəzəriyyələri F. Nitşenin, Q. Lebonun, Q. Tardın əsərlərində öz əksini tapmışdır. Nitşe belə hesab edirdi ki, müəyyən vaxtdan sonra cəmiyyətdə əsas rolu kütlə oynayır. Lebon və Tard da bu haqda yazırdılar. X. Ortego-i-Qasset yazırdı: "Naşükür kütlə elitanın ardınca getmək əvəzinə hakimiyyətə can atır. Onların heç bir idarəetmə bacarığı olmadığı halda onlar elitanı siyasətdən və mədəniyyətdən uzaqlaşdırmaq arzusundadırlar.

20-ci əsrin ortalarında kütləvi ictimaiyyət nəzəriyyələri K. Mannqeym, D. Rismen, E. Fromm (liberal tənqidçilər) və R. Mills (sol radikalçı) təərəfindən tənqid edildi. Onların tənqidi hakimiyyətin bürokratikləşdirilməsinə və mərkəzləşdirilməsinə, dövlət təşkilatları tərəfindən şəxsiyyətin nəzarətinə, insanların özgələşdirilməsinə, onların məcburi " konformizasiyasına " qarşı idi.

1960- 1970- ci illərdə Amerika sosioloqları D. Bell, E. Şillz da kütləvi ictimaiyyət nəzəriyələrini tənqid edib onların mövcud sistemə yaramadıqlarını göstərmişlər. Onun fikirlərini inkişaf etdirən Alman politoloqu Q. Şişkov yazırdı. " kütlə həmişə mövcud olmuşdur. Lakin indi bütün cəmiyyət kütləviləşmişdir. əgər əvvəllər kütlə cəmiyyətin fraqmenti kimi çıxış edirdisə, 20-ci əsrdə bütün cəmiyyət

kütlə kimi çıxış edir." Bu və bunun kimi konsepsiyalar kəskin tənqid olundu və kütləvi cəmiyyət nəzəriyyələri durğunluğa uğradı.

Kütlə anlayışı emprik müşahidə olunan situativ olaraq çoxlu sayda insanların toplanması və onların idarəolunmaz davranış formalarını ifadə etmək üçün işlədilir. Qeyd edək ki, situativ yaranan şey – situativ də dağılır. Bu davranış formalarına da aiddir. Idarəolunmazdırsa, deməli strukturlaşmamış və möhkəmlənməmişdir, deməli müvəqqətidir. Deməli, kütlənin əsas xüsusiyyəti onun müvəqqəti mövcudluğudur. Kütlə həmişə funksional və dinamikdir. Kütlə anti strukturdur – cəmiyyət strukturunda ona yer yoxdur. Nəhayət kütlə xarici (sosioloji, fəlsəfi ) qanunauyğunluqlarla deyil (şübhəsiz ki, onlar da iştirak edə bilərlə ), şəxsi daxili qanunauyğunluqlar nəticəsində yaranır və funksiyasını yerinə yetirir. Məhz buna görə kütlə və kütləvi hadisələr strukturlaşmış, möhkəmlənmiş, formalaşmış, idarə olunan , stabil kateqoriyalarla - məs. qruplar, stratlar, siniflər, təbəqələrlə bərabər tutula bilməz. Kütlənin müvəqqətiliyi onun öyrənilməsini çətinləşdirir. Siyasi psixologiya kütləni onun daxili funksional xarakterik cəhətləri əsasında tədqiq edir.

Kütlə psixologiyasının özəyini kütlə şüuru təşkil edir.

**16.2. Kütləvi şüur.** Kütləvi şüur ictimai şüurun bir növü olub, onun mövcudluğunun və həyata keçirilməsinin bir formasıdır. Bu çoxlu sayda insanlar (kütləyə) xas olan ictimai şüur növüdür.

İctimai şüurda fərdlərin müəyyən şərait haqqında bilikləri, təsəvvürləri, normaları, dəyərləri və davranış nümunələri öz əksini tapmışdır. Onlar insanların ünsiyyət prosesində sosial-siyasi informasiyanı (məs. mitinqi) birgə qavramaq prosesində yaranırlar. Kütləvi şüur məzmununa görə fərdi deyil, funksiya formasına görə fərdidir. Kütləvi şüur fərdi şüurlarda gerçəkləşsə də, məzmun etibarilə fərdi şüurun hər biri ilə üst-üstə düşmür.

**Kütləvi şüurun strukturu:**

1. Emosional-hərəki səviyyə;
2. Rasional səviyyə.

İkinci birincinin zəminində qurulur.

Emosional-hərəki səviyyə kütləvi şüurun əsasını təşkil edir. Kütləvi şüurun təməlində hər hansı bir sosial –psixoloji problemin parlaq emosiyalar şəklində yaşanması durur. Bu müharibə, inqilab, geniş miqyaslı iqtisadi böhran və s. ola bilər. Güclü emosiyalar və hisslər şəklində təzahür edən belə yaşantılar həyatın vərdiş olunmuş qanunlarını – qrup normalarını, dəyərlərini, davranış nümunələrini kölgədə qoyur. Dərhal hərəkət etməyə tələbat yaranır.

Rasional səviyyə emosional –hərəki səviyyə əsasında tədricən yaranır. O, özündə müxtəlif koqnitiv kompanentləri birinci növbədə məlum bilikləri, sosial –siyasi informasiyanın kütləvi müzakirəsini ehtiva edir. Kütləvi davranış k ütləvi şüurun təzahürü kimi meydana gəlir. Kütləvi davranış kütləvi şüurda hansı səviyyənin üstünlük təşkil etməsindən asılı olaraq ya tamam idarəolunmaz , ya da müəyyən qədər idarə oluna bilir.

Kütləvi şüurun əsas xüsusiyyətlər onun emosional yoluxdurucu, mozaik, hərəki və dəyişkən olmasındadır. Ortega-i-Qasset yazırdı ki, fərd kütlənin hissəsinə çevrilən kimi instinktiv, irrosional ehtiraslar, “ qara impulsiv reaksiyaların” hakimiyyəti altına düşür. Freyd yazırdı : kütlə psixologiyasında intelektə, ağıla , məntiqə yer yoxdur. Kütlə impulsiv , dəyişkən və oyanıqlıdır. Kütləni demək olar ki, şüursuzluq idarə edir.

**16.3. Kütləvi şüurun formalaşması.** Kütləvi şüur insana xas olan real şəxsi həyatını mənalandırmaq xüsusiyyətinin nəticəsi kimi meydana gəlir.

Kütləvi şüur insanlarda ümumi psixi halət yaradan sosial siyasi problemin miqyasından asılı olaraq inkişaf edir. Əvvəlcə bir qrupda yaranan kütləvi şüurun müəyyən kompanentləri başqa qruplara və təbəqələrə keçir, sonra daha geniş miqyas alaraq kütləvi davranışda əks olunan kütləvi şüur ölçüsünü alır. Məsələn: şaxtaçıların narazılığı nəqliyyat işçilərinə də keçə bilir və idarəolunmaz mitinqlər, nümayişlər yaradır.

**Kütləvi şüuurun tipologiyası:**

1. Kütləvi şüurun ümumi və aktual fikir potensialı ( kütlənin topladığı pozitiv biliklər, hansı ki, həyatda praktik olaraq istifadə edilir. )
2. Məkanca geniş yayılmış kütlələr.

3. Zamanca sabit və qeyri-sabit kütlələr ( temporal)
4. Məzmun əlaqəsinin səviyyəsinə görə seçilən kütlələr ( ziddiyyətli və ya ziddiyyətsiz olması )
5. İdarə olunan və təsir oluna bilinən kütlələr
6. İnkişaf səviyyəsinə görə seçilən kütlələr ( yüksək – aşağı, inkişaf etmiş-inkişaf etməmiş )
7. İfadə xarakterinə görə ( güclü, orta , zəif )
8. İstifadə etdikləri dil vasitələrinin xüsusiyyətlərinə görə ( az və ya çox dərəcədə ekspressiv, sırf ədəbi dildən və ya qeyri -ədəbi kompanentlərdən istifadə etmək )

**İctimai rəy.** Kütləvi şüurun inkişaf dövründə ictimai rəy və kütlə əhval-ruhiyyəsi aparıcı makroformlar kimi çıxış edir.

Ictimai rəy birliyin özündə baş verən hadisələrə, problemlərə gizli və ya aşkar şəkildə münasibəti əks etdirən kütləvi şüur formasıdır.

**Ictimai rəyin funksiyaları:**

1. Ekspressiv funksiya – münasibət bildirir.
2. Nəzarət funksiaysı – qərarların qəbulunu və onların icrasını tələb edir.
3. Məsləhət funksiyası – məsləhət verir, təklifləri formalaşdırır.
4. Direktiv funksiya – fəaliyyət hərəkətlərini göstərir

XVIII –XIX əsrlərdə sənaye inqilabı və urbanizasiya kütləvi peşələrin və ona uyğun olaraq kütləvi həyat tərzi yaşayan insanların yaranmaına gətirib çıxardı. Böyük şəhərlərin yaranması və aqrar sahələrdə insanların güclü miqrasiyası milli-etnik qruplar arasında psixoloji sərhədləri tədricən silməyə başladı. Bu zaman böyük sosial – peşəkar qrupların formalaşması prosesi gedirdi. Böyük miqyasda stixiya şəklində baş verən sosial – psixoloji reformalar ictimai şüurun hələ strukturlaşmamış yeni tipini yaradırdı. Bu prinsipial surətdə yeni hadisə idi və elm bununla məşğul olmağa başladı. Keçən əsrin 20-ci, 30-cu illərində artıq kütləvi şüur xüsusi elmi termin kimi işlədildi. 60- cı illərdə kütləvi şüur yenidən diqqətləri cəlb etdi, 0-ci

illərdən başlayaraq bu fenomenə diqqət daha da artdı. Müasir dövrdə kütləvi şüura iki yanaşma var. Bəzi alimlər belə hesab edirlər ki, kütləvi şüur ictimai şüurun konkret variantı olub, cəmiyyətin inkişafının ancaq dinamik mərhələsində özünü göstərir. Bəzi alimlər isə, kütləvi şüura müstəqil fenomen kimi yanaşırlar. Onların fikrinə görə, kütləvi şüur cəmiyyətdə klassik qrupların şüuru ilə yanaşı mövcuddur və eyni (oxşar) həyat şəraitində yaşayan müxtəlif sosial qrupların üzvlərinin yaşantılarının və onların dərk edilməsinin əksi kimi yaranır.

**16.4. Kütlələr.** Bəzi fiziki (təbii fəlakətlər), sosial (ictimai kataklizmalar) və ya siyasi hadisələr (müharibələr, çevrilişlər) nəticəsində insanların hər hansı bir qrupa məxsusluğu hissinin azaldılması kütləvi şüur üçün geniş imkanlar açır. Bu zaman kütlənin malik olduğu xüsusiyyətlər aydın şəkildə üzə çıxır.

Kütlə situativ yaranan sosial birliklər olub, kütlə şüurunun daşıyıcısıdır.

**Kütlənin əsas növləri:**

1. Ölçüsünə görə - böyük və kiçik kütlələr;
2. Stabillik dərəcəsinə görə - stabil və qeyri-stabil impulsiv) kütlələr;
3. Kompaktlığına görə - qruplaşdıdırılmış və ya qruplaşdırılmamış kütlələr;
4. Daxili əlaqələr formasına görə - kontakt və qeyri- kontakt (dispers) kütlələr;
5. Yaranma xüsusiyyətinə görə - spontan ( təbii) və xüsusi təşkil olunmuş (süni) kütlələr;
6. Homogenliyinə görə - sosial həmcins və ya qeyri- həmcins kütlələr.

Konkret müşahidələr və empirik tədqiqatlar nəticəsində kütlənin **üç əsas növü** (müxtəlifliyi ) ayırd edilir:

1. Dəstə, izdiham, güruh, camaat, – bu, miqdar bildirən anlayışdır.

2. Publika – eyni hadisələrə qarşı oxşar gözləmələrə malik olan müəyyən miqdar insan yığımını bildirir. Məsələn: teatr tamaşaçılarından siyasi mitinq iştirakçılarına qədər.

3. Yığılmamış (toplanmamış) publika – buraya siyasi reklamların təsirilə yaranan elektoral kütlələr və ya hər hansı musiqi fanatları kütləsi aiddir.

**Kütlənin əsas səciyyəvi xüsusiyyətləri:**

- amorfluq – (sistemləşməmiş , strukturlaşmamış);

- stoxastik _ (sərhədsiz, tərkibinin kəmiyyət və keyfiyyətcə qeyri- müəyyənliyi);
- situativlik - (qeyri müəyyənliyi);
- heterogenlik ( tərkibinin müxtəlifliyi.)

**16.5. Kütlədə insan.** Kütlə ona daxil olan insanı dəyişir. Kütlə insanlar arasında fərqi silir. Kütlə individual psixikanı əhəmiyyətli dərəcədə transformasiya edir. İndividual şüuru özünə tabe edir.

**İndividuallığın itirilməsi.** Kütlə insandan təkcə individual psixikanı "almır", həm də ona yeni keyfiyyətlər verir. Lebona görə, kütlədəki fərdin fərqləndirici xüsusiyyətləri belədir: anonimlik, şüurlu şəxsiyyətin yoxa çıxmsı, şüursuzluğun üstünlük təşkil etməsi, intellektin aşağı düşməsi , dərhal hərəkətə keçmək və s. Artıq fərd iradəsiz avtomata çevrilir. Kütlənin fərdə psixoloji təsir mexanizmləri bunlardır: yoluxma, təlqin və təqlid. Lebon qeyd edirdi ki, insanın kütləyə məxsusluğu artıq onun " bəşəriyyət pilləkənində " bir neçə pillə aşağı düşdüyünü göstərir. Kütlədən kənarda təhsilli fərd ola bilən insan kütlədə vəhşiyə (varvara) çevrilir.

**Məsuliyyət hissindən azadolma.** Individual cavabdehlik hissini itirmiş insan kütlə daxilində özünü güclü hesab edir, real məsuliyyət hissini itirir. Kriminalistlərə yaxşı məlumdur ki, qrup halında baş verən cinayətlərdə hər bir fərdin etdiyi hərəkəti, cinayət dərəcəsini müəyyənləşdirmək çətindir. (Amerika polisi zəncilərin öldürülməsi hallarında günahkarları tapa bilmirdi. Filosof Haydegger ikinci dünya müharibəsində alman xalqının "günah hissini" tədqiq edərkən çətinliklərlə rastlaşmışdır. Rəhbərlər tutulandan sonra yerdə qalan kütləni cəzalandırmaq mümkün deyil. Demək olar ki, bütün xalq nasist partiyasının üzvü idi. Kütlə səmimi şəkildə konkret olaraq nə etdiyini yadına sala bilmirdi).

**Kütlə liderləri:**

1. "İmam " – bunlar inandırırlar. Xarizmaya malikdirlər.
2. "Təsadüfi fanatik" – hər hansı bir ideyanın fanatikləri olub müəyyən situasiyada lider kimi çıxış edirlər.
3. "degenerat autsayder" – Lebon onları belə xarakterizə edir. Öz irsi olaraq fizki və əqli qüsurlarına görə cəmiyyətin çıxış yolu olmayan aşağı təbəqələrinə

məxsus olan insanlardır ki, cəmiyyətin düşmənlərinə çevrilirlər. Belə adamlar onlara yaxşı həyat bəxş edən təlimlərin təbii müdafiəçilərinə çevrilirlər. Psixoloji mahiyyətçə natamamlıq güclü kompleksinə malikdirlər.

4. “diktator” –bu tip liderlər adətən əvvəlki liderlərdən sonra gəlirlər. Fanatiklər kütləni müəyyən qədər formalaşdırıb “qızışdırandan “ sonra tiran və ya diktator gəlir. Freyd bu tipi “ ideal ata “ adlandırırdı.

**Kütlə və elita.** Fransız sosio-psixoloqu S. Moskoviçi XX əsrin sonlarında massologiya ideyasını irəli sürdü və kütlə davranışını, liderlərlə kütlənin qarşılıqlı əlaqələrini, kütləylə elitanın qarşılıqlı əlaqələrini öyrənən təlim yaratdı. Elita kütlənin varlığını etiraf edəndə siyasi sistemdə özünü ligitimləşdirmiş olur**.**

Mövzuyz aid sual və tapşırıqlar:

1.Kütlə anlayışı ilk dəfə nə vaxt və kim tərəfindən işlədilmişdir?

2.Kütlənin əsas xüsusiyyətləri hansılardır?

3.Kütlənin qruplar, stratlar və siniflərdən fərqi nədir?

4.Kütləvi şüur nədir?

5.Kütləvi şüuru məzmununa görə və funksiyasına görə səciyyələndirin.

6.Kütləvi şüurun strukturuna nə daxildir?

7.İctimai rəy nədir və onun hansı funksiyaları vardır?

8.Kütlənin hansı növləri vardır?

9.Kütlə liderlərinin təsnifatını verin.

Ədəbiyyat:

1. Ашин Г.К. «Массы» теории / Современная западная социология. М., Политиздат, 1990, с.181-193

2. Грушин Б.Г. Массовое сознание.М., 1987, с.11-14; 312-324

3. Московичи С. Машина, творящая богов. М., Совершенство, 1998

4. Ольшанслий Д.В. Психология масс. СПб., Питер, 2001, с.359-392

5. Ольшанский Д.В. Политическая психология. СПб.:Питер, 2002, с.287-321

6. Рощин С.К. Психология толпы: анализ прошлыч исследований и проблемы сегоднящнего дня. 1990, с.12-16
7. Фрейд З. Массовая психология и анализ человеческого «Я» // Фрейд З. Избранное. Т.1, Акад.Пресс, 1969, с.82-89

## XVII mövzu
## Kütlə əhval-ruhiyyəsi

**Qısa məzmun. Kütləvi-əhval-ruhiyyənin öyrənilməsi tarixi.** XX əsrdə kütlələrin keyfiyyətcə dəyişməsinin səbəbləri: 1 .Elmi texniki inqilabın nailiyyətləri üzərində inkişaf edən sənaye istehsalının və insanların tələbatının sürətlə artması. 2. Tələbatlarla yanaşı onların təmin edilməsi imkanlarının da artması. 3.Aktiv hərəkətlərə kütləvi hazırlıq vəziyyətinin inkişaf etməsi. **Kütləvi əhval-ruhiyyə nədir** və onun əhəmiyyəti nədədir?

**Siyasətdə kütləvi əhval-ruhiyyənin** siyasi şüur, siyasi mədəniyyət və siyasi davranışla əlaqəsi. **Kütləvi əhval – ruhiyyə və siyasi şüur:**. Kütləvi əhval- ruhiyyələr kütləvi şüurun məişət səviyyəsində özünü göstərən ən geniş yayılmış formasıdır. **Kütləvi əhval-ruhiyyələr və siyasi mədəniyyət:** 1. Kütləvi əhval-ruhiyyə siyasi mədəniyyətə cəlb olunmuş adamları dəyərləndirir və bununla da siyasi sosializasiyanın effektli olub –olmamasını müəyyənləşdirir. 2. Kütləvi əhval-ruhiyyə siyasi mədəniyyətdə cəmiyyətin sosial-siyasi yaddaşı rolunda çıxış edir. 3. Kütləvi əhval-ruhiyyə gələcək ideoloji qrumların, ola bilsin ki, siyasi sistemlərin gələcək variantlarının mümkün əsası kimi siyasi mədəniyyətə daxil olur. **Kütləvi əhval-ruhiyyə və siyasi davranış. Əhval-ruhiyyələrin siyasi psixologiyası.** Kütləvi əhval-ruhiyyə əksər insanlar üçün subyektiv, affektiv, koqnitiv siqnal reaksiyasıdır. **Kütləvi əhval-ruhiyyənin təbiəti.** İnsanların kütləvi tələbatları və maraqları sahəsində (gözləmələri) iddiaları ilə real həyat şəraitinin üst-üstə düşməməsi. Aktiv əhval – ruhiyyə. Passiv əhval – ruhiyyə. **Kütləvi əhval-ruhiyyənin inkişafının beş əsas mərhələsi:** 1.“Əhval-ruhiyyənin sakit qıcqırması”. 2.Əhval-ruhiyyənin kristallaşması və toplanması. 3.Əhval-ruhiyyənin maksimal həddə çatması. 4.Problemin həll edilməsi və ya əhval-ruhiyyənin aşağı düşməsi – apatiya. **Kütləvi əhval-ruhiyyənin əsas funksiyaları:** 1.Siyasi proseslərin dinamikliyi, subyektiv təlimi. 2.Kütləvi siyasi hərəkatların subyektinin formalaşdırılması. 3.Siyasi davranışın nizamlanması. 4.Strateji siyasi-psixoloji qiymətləndirmə. **Kütləvi əhval-ruhiyyəyə uğurlu təsir etmək üçün yol və vasitələr.**

**17.1.** Siyasi psixologiyanı iki müxtəlif tərəfdən öyrənmək olar:

1. Siyasi institutların, siyasi strukturların, hakimiyyət institutlarının və siyasi subyektlərin davranışlarının öyrənilməsi. 2. İkinci tərəfdən siyasi proseslərin dinamikasının geniş kütlələrin spontan aktivliyini, fərdlərin şəxsi-siyasi psixologiyasının və kütlələrin əhval-ruhiyyəsinin öyrənilməsi.

**Tarixi.** Təhlil göstərir ki, müəyyən stabil sosial-siyasi sistemlərdə toplanan kütləvi əhval-ruhiyələr müəyyən vaxtdan sonra insanların sosial-siyasi psixologiyasını dəyişir, onu dağıdır.

Hələ Aristotel əhval –ruhiyyə anlayışını işlətmiş, onları – “üsyan qaldıranların əhval-ruhiyyələrini” siyasi proseslərlə - üsyanlarla, siyasi qarışıqlarla əlaqələndirmişdir. Aristotel sosial-siyasi sistemlərin müxtəlif variantlarında əhval-ruhiyyə faktorunun əhəmiyyətli rol oynadığını göstərmişdir.

Tarix göstərir ki, orta əsrlərdən başlayaraq kütlənin əhval-ruhiyyəsinin əhəmiyyəti artmağa başlayır. Şəhər kütlələrin yaranması üçün əlverişli yaşayış məskənidir. Burada insanların qruplaşması kütləvi psixi proseslərin yaranmasına səbəb olurdu. Bu proseslərin təsiri nəticəsində insanlar oxşar psixi halətlər yaşayır və bunun nəticəsində kütləvi şəkildə müxtəlif hərəkətlər, o cümlədən siyasi hərəkətlər edirlər.

XX əsr qlobal siyasi fenomenlər yetişdirdi. Kütlələr siyasətdə real olaraq iştirak edirdilər. Müasir dövrdə kütlələr keyfiyyətcə dəyişmiş oldular. Ona görə ki:

1. Elmi texniki inqilabın nailiyyətləri üzərində inkişaf edən sənaye istehsalı, insanların tələbatını sürətlə artırdı.

2. Tələbatlarla yanaşı onların təmin edilməsi imkanları da artdı. İnsanlar tələbatlarının ödənilməsinin daha asan yollarla mümkünlüyünü başa düşdülər.

3. Aktiv hərəkətlərə kütləvi hazırlıq vəziyyəti inkişaf etdi. Burada KİV –in xüsusi rolunu qeyd etmək lazımdır.

4. Elmi-texniki inqilab dövründə istehsal şəraitinin dəyişməsilə bağlı kütlədə baş verən keyfiyyət dəyişikliklərindən biri də kütlə davranışının dərk edilməməsi, impulsiv olması və bir çox hallarda spontan əhval – ruhiyyə ilə şərtlənməsidir.

1960-cı illərdə Qərbdə geniş yayılmış gənclər hərəkatı yeni tələbatların yetişdiyini göstərdi. Bu "etiraz hərəkatı" yeni "kontur-kulturalar" nümayiş etdirirdilər. 1970- ci illərdə Qərbdə etnik birliklərin narazı əhval-ruhiyyəsi geniş yayılmışdır. Daha sonra Şərqdə dini əhval-ruhiyyələrə cavab kimi xarici siyasətdə mürəkkəbliklər yarandı. Beləliklə, kütləvi siyasi əhval – ruhiyyələr siyasi proseslərlə əlaqəli olub, ictimai-siyasi inkişafa təsir göstərə bilir. Onların rolu getdikcə artmaqdadır. Deyilənlərdən aydın olur ki, kütləvi-siyasi davranışı yaradan kütləvi əhval-ruhiyyənin öyrənilməsi zəruri bir hal kimi meydana çıxır.

**17.2. Siyasətdə kütləvi əhval-ruhiyyələr** birinci növbədə siyasi şüur, siyasi mədəniyyət və siyasi davranışla əlaqəlidir. Bunlar vasitəsilə kütləvi əhval-ruhiyyə ümumiyyətlə cəmiyyətin siyasi sistemiylə əlaqəli olur.

**Kütləvi əhval-ruhiyyə və siyasi şüur**. Kütlə şüurunun aparıcı "makroformlarından" biri kütlə əhval-ruhiyyəsidir. Belə əhval-ruhiyyələr kütləvi

şüurun özəyini təşkil edir. Kütləvi əhval-ruhiyyələr kütləvi şüurun məişət səviyyəsində özünü göstərən ən geniş yayılmış formasıdır.

**Kütləvi əhval-ruhiyyələr və siyasi mədəniyyət** arasında üç növ əlaqəni göstərmək olar:

1. Kütləvi əhval-ruhiyyə siyasi mədəniyyətə cəlb olunmuş adamları dəyərləndirir və bununla da siyasi sosializasiyanın effektli olub0olmamasını müəyyənləşdirir.

2. Kütləvi əhval-ruhiyyə siyasi mədəniyyətdə cəmiyyətin sosial-siyasi yaddaşı rolunda çıxış edir. Yəni dərk olunmasa da ənənə elementi kimi əvvəlki siyasi sistemlərin şüurdakı izlərini yadda saxlayır.

3. Kütləvi əhval-ruhiyyə gələcək ideoloji qrumların, ola bilsin ki, siyasi sistemlərin gələcək variantlarının mümkün əsası kimi siyasi mədəniyyətə daxil olurlar.

**Kütləvi əhval-ruhiyyə və siyasi davranış.** Kütləvi əhval-ruhiyyə kütləvi davranışa əhəmiyyətli təsir göstərir. Bir çox tədqiqatçıların fikrinə görə, obyektiv şəraitin yaratdığı daxili subyektiv yaşantılar öz inkişafının müəyyən səviyyəsində gücə çevrilir və şəraitin dəyişdirilməsinə yönəlmiş kütlənin real hərəkətləri üçün motiv rolunu oynayır. Kütləvi siyasi əhval-ruhiyyələr, kütləvi şüurun və kütləvi mədəniyyətlərindən biri olub onlar vasitəsilə insanlara təsir edib, bu və ya digər siyasi davranışı yaradır.Kütləvi əhval – ruhiyyənin rolu ondan ibarətdir ki, onlar siyasi proseslərin özək mexanizmini təşkil edirlər. Bu mexanizmin təsiri belədir: xarici şəraiti daxilən qiymətləndirib siyasi şüur və siyasi mədəniyyətdən keçərək – siyasi davranışa.

**17.3. Əhval-ruhiyyələrin siyasi psixologiyası.** Kütləvi əhval-ruhiyyə əksər insanlar üçün subyektiv, affektiv, koqnitiv siqnal reaksiyasıdır. Bu komfort və ya diskomfort yaşantılardır ki, aşağıdakı şəkildə əks olunur:

1. Ümumi sosial-siyasi həyat şəraitindən razılıq və narazılıq səviyyəsi;
2. Sosial-siyasi iddiaların gerçəkləşdirilməsi, iddialarının subyek- tiv qiymətləndirilməsi;

3. Öz iddialarını gerçəkləşdirmək üçün sosial-psixoloji şəraitin dəyişdirilməsi meyli.

Belə psixi halətlər əksər insan birliklərini əhatə edir,gündəlik emosiyalardan yaranan emosional halətlər tədricən dərk olunmuş fikirlərə çevrilir. Gündəlik emosiyalar gündəlik həyatdan yaransa da siyasi həyatın, onun norma və qanunlarının ümumi fonu zəminində meydana gəlir.

**Kütləvi əhval-ruhiyyənin təbiəti** iki faktorun üst-üstə düşməməsindən yaranır. İnsanların kütləvi tələbatları və maraqları sahəsində (gözləmələri) iddiaları (gözləmələri) və real həyat şəraiti . Aktiv əhval-ruhiyyə dedikdə siyasi hərəkətlər üçün psixoloji hazırlıq səviyyəsi başa düşülür. Bu insanların iddia və gözləmələrinin onların təmin olunması imkanları ilə konflikt yaratdığı vaxt olur. Belə zidiyyət insanlar tərəfindən aktual yaşanır. Bu cür əhval-ruhiyyə insanları hərəkətə gətirən spesifik şüur halətidir. Belə yaşantılar müxtəlif formada – siyasi qüvvələrə nifrətdən tutmuş, onlara yaxşı həyat vəd edən qüvvələrə heyrət hissinə qədər müxtəlif formada özünü göstərə bilir. Passiv əhval-ruhiyyə xüsusi forma olub iddia ilə imkanlar arasında əlaqələrin kəsildiyi vaxt baş verir və laqeydliyi, apatiyanı bildirir.

**Kütləvi əhval-ruhiyyə beş mərhələdən keçərək inkişaf edir:**

1. Əhval-ruhiyyənin "sakit qıcqırması";
2. Əhval-ruhiyyənin kristallaşması və toplanması;.
3. Əhval- ruhiyyənin maksimal həddə çatması;
4. Problemin həll edilməsi və ya əhval-ruhiyyənin aşağı düşməsi - apatiya.

**Kütləvi əhval-ruhiyyənin əsas funksiyaları:**

1. Siyasi proseslərin dinamikliyi, subyektiv təlimi. Bu funksiya siyasi-psixoloji hazırlıq, böyük insan birliklərinin formalaşdırılması və motivasiyalı təminatı vasitəsilə həyat keçirilir. Bu da öz növbəsində insanların ümumi əhval-ruhiyyəsi hesabına başa gəlir.

2. Kütləvi siyasi hərəkatların subyektinin formalaşdırılması. Bu, insanların emosional-psixoloji birləşdirilməsi nəticəsində baş verir.

3. Siyasi davranışın nizamlanması.

4. Strateji siyasi-psixoloji qiymətləndirmə. Bu gecikmiş şəkildə baş verir. Yəni, kütlə yaranıb və nə isə etdikdən sonra müəyyən mənada “donma” bacarığına malikdir. Kütlə dayanır və etdiyini qiymətləndirir. Bu zaman iki hal mümkündür: ya etdiyindən qorxur, ya da etdiyi ilə fəxr edir.

**17.4. Kütləvi əhval-ruhiyyəyə uğurlu təsir etmək üçün düzgün təhlil aparılmalıdır:**

1. Sosial-psixoloji sostenndə mövcud olan əhval-ruhiyyənin inventalizasiyası və onların bir-birilə nisbəti ( real kütləvi əhval-ruhiyyənin ictimai normalardan nə qədər uzaq düşməsi təyin edilir.

2. Dominantlıq edən əhval-ruhiyyənin konkret siyasi situasiyadan və ümum insani mövqedən qiymətləndirilməsi. Birinci halda sisitemin maraqlarından, ikinci halda ümuminsani maraqlardan çıxış edilir.

3. Bu və ya digər əhval-ruhiyyənin yaranma səbəbi. Bu zaman onların iddia səviyyəsi ilə bu iddianın indiki zamanda və gələcəkdə təmin oluna bilmək imkanları müəyyənləşdirilir.

4. Konkret əhval-ruhiyyənin inkişaf səviyyəsi, intensivliyi və siyasi hərəkətə çevrilə bilmək dərəcəsi müəyyənləşdirilir.

5. Kütləvi əhval-ruhiyyənin miqyası və təsir gücünə malik olan siyasi birliklərə yayılmasının səviyyəsi müəyyənləşdirilir.

Kütləvi siyasi əhval –ruhiyyənin inkişafını proqnozlaşdırmaq kifayət qədər mürəkkəb problemdir. O, bir çox faktorları nəzərə almalıdır. Belə proqnoz həmişə şərti xarakter daşıyır. Bu zaman kütləvi əhval-ruhiyyənin müxtəlif inkişaf variantları nəzərdən keçirilir. Belə proqnostik metodlardan ən uyğunu müxtəlif siyasi –psixoloji ssenarilərin yardılmasındır. ”Əgər ..., onda...”

**Siyasi hərəkatlarda kütləvi əhval-ruhiyyələr.** Əhval-ruhiyyəni siyasi hərəkatın üç növündə nəzərdən keçirək:

1. Sol radikal hərəkat;
2. Reformist hərəkat;
3. Sağ radikal hərəkat

Sol radikal hərəkat neqativ əhval-ruhiyyə üzərində qurulur. Bu halda kütlə irəli sürdüyü iddialarla onların gerçəkləşdirilməsi imkanlarının bir-birindən uzaqlaşmasından yaranan narazılıq hissi yaşayır və daha yeni iddialar irəli sürmək perspektivini nəzərdən keçirir. Bu zaman kütlənin davranışı özü üçün də dumanlı olan gələcək xatirinə keçmişi inkar etməyə, onu dağıtmağa yönəlir.

Reformist hərəkat zamanı siyasi davranış siyasi stabilliyə yönəlmiş olur ki, bunun da əsasında spesifik kütləvi əhval –ruhiyyə dayanır. Bunun mahiyyəti ondan ibarətdir ki, belə əhval-ruhiyyə (evalyusion) sahibləri ümumilikdə stabilliyi saxlamaqla sosial-siyasi sistemi təkmilləşdirməyə can atırlar. Bu zaman onların iddiaları ilə iddiaların həyata keçməsi imkanları arasında məsafə çox qısa olur. Bunu Avropa ölkələrində ümumdemokratik hərəkatlar timsalında müşahidə etmək olar.

Sağ radikal hərəkatlar real situasiyadan və onun inkişaf perspektivlərindən son dərəcədə narazı olmaq əsasında yaranır. Belə əhval-ruhiyyə hal-hazırda olanlara tənqidi münasibət, keçmişdə olanlara və onların qaytarılması perspektivinə optimist münasibət əsasında yaranır.

**Mövzuya aid sual və tapşırıqlar:**

1.Aristotel kütləvi-əhval-ruhiyyəni necə qiymətləndirirdi?

2.XIX əsrdə kütlənin keyfiyyət dəyişikliklərinə uğramasının səbəblərini göstərin.

3.Kütləvi əhval-ruhiyyə nədir və o hansı əhəmiyyətə malikdir?

4.Kütləvi-əhval-ruhiyyənin siyasi şüur, siyasi mədəniyyət və siyasi davranışla hansı əlaqə növləri vardır?

5.Kütləvi əhval-ruhiyyənin siyasi davranışa təsir mexanizmi necədir?

6.Kütləvi əhval-ruhiyyə hansı təbiətə malikdir?

7. Kütləvi əhval-ruhiyyənin əsas inkişaf mərhələlərini göstərin.

8. Kütləvi əhval-ruhiyyənin əsas funksiyaları hansılardır?

9. Kütləvi əhval-ruhiyyəyə uğurlu təsir etməyin hansı yol və vasitələri vardır?

Ədəbiyyat:

1. Ашин Г.К. «Массы» теории / Современная западная социология. М., Политиздат, 1990, с.181-237
2. Ольшанский Д.В. Психология масс. СПб., Питер, 2001, с.392-421
3. Ольшанский Д.В. Массовые настроение в политике. М., Прин-Ди, 1995
4. Парыгин Б.Д. Общественное настроение. Ь., Мысль, 1986, с. 234-251
5. Davies J. Human Nature in Politics/ The dinamics of Political Behaviour/ Westport: Univ.Press, 1972

## XVIII mövzu
## Stixiyalı (idarəolunmaz) davranış.

**Qısa məzmun. Stixiyalı davranışın mexanizmləri:** 1. “Sirkulyasiya ( dairəvi) ” - emosional gərginliyin yaranması. 2. “Emosional fırlanma” – birlik halında yaşanan halətlərin psixofiziki inkişafı. 3. Yeni obyektin yaradılması.

**Kütlənin mövcudluğunun psixoloji faktorları:** 1. Əvvəlcədən mövcud olan yönəlişlik və əqidə. 2. Kütləni hərəkətə gətirən şüarlara uyğun olan əqidənin və meyillərin mövcudluğu. 3. Gənc yaş dövrü və sosial – siyasi təcrübənin olmaması. 4. İntellektin aşağı səviyyəsi, öz davranışını təhlil edə bilməmək, zəif iradə, siyasi baxışların qeyri –sabitliyi. **Kütlənin növləri:** Təsadüfi kütlə;

ekspressiv kütlə; konvensial kütlə; fəaliyyət göstərən kütlə. Fəaliyyət göstərən kütlə: aqressiv kütlə; panikalı kütlə; tamahkar kütlə; üsyankar kütlə.

**Kütlənin struktur xüsusiyyətləri:** kütlənin sərhədləri; kütlənin daxili strukturu; kütlənin sıxlığı və ölçüləri; kütlənin tərkibi; kütlə üzərində nəzarət və onun idarə edilməsi.

**Kütləvi panika.** Kütləvi panikanı yaradan şərtlər: 1. Situasion şərtlər. 2. Fizioloji şərtlər. 3. Psixoloji şərtlər. 4. İdeoloji və siyasi-psixoloji şərtlər. **Panikanın yaranması və inkişaf etməsi mərhələləri:** sarsıntı; özünü itirmək; "sirkulyasiya reaksiyası". Panikalı davranışa təsir göstərmək.

**18.1.** Siyasi psixolgiya insan davranışının iki formasını ayırd edir:

1. Fərdlərin öz şüurundan və iradəsindən asılı olan ixtiyari, adətən dərk olunmuş rasional davranış.

2. İnsanların özündən yox, başqa adamların və şəraitin təsir etdiyi situasiyadan asılı olaraq yaranan davranış.

İkinci halda insanların iradəsi və arzuları məhdudlaşır. Bu zaman məcburi (xarici təsirlərin təzyiqi altında) və ya stixiyalı (idarə olunmaz) davranışdan danışırlar. Stixiyalı davranışın təhlili iki istiqamətdə aparılır.

Stixiyalı davranışın konkret subyektlərinin hərtərəfli araşdırılması. Belə subyektlər üç növdür: izdiham, " toplanmış publika" və " toplanmamış publika " . Biz bu haqda əvvəlki dərslərimizdə müəyyən qədər danışsaq da, indi bu subyektləri ətraflı araşdıracayıq.

**Stixiyalı davranışın mexanizmləri.** Stixiyalı davranışın baza əsasını qarşılıqlı yoluxma, təlqin və kütləvi təqlid təşkil edir. Mexanizləri aşağıdakılardır:

1. "Sirkulyasiya" (dairəvi) (termin F. Olporta məxsusdur). Bu reaksiya ümumi mexanizmin birinci mərhələsidir. Bunu nümunə üzərində izah edək. Tutaq ki, siz, qəfilədən bir otağa girisiniz və hamının güldüyünü görürsünüz. Siz nəyə güldüklərini bilməsəniz də, sizin də dodağınız qaçır. Sizin gülüşünüzün səbəbi gülən insanlar tərəfindən şüursuz şəkildə psixofiziki səviyyədə emosional stimulyasiya almağınızdır. Bu zaman yoluxma və təqlid etmə fenomenləri işə düşür. Ən maraqlısı odur ki, sizin gülüşünüz otaqdakı insanların gülüşünün sönməsinə təsadüf etsə də onlar tərəfindən yeni gülüş dalğası doğurur. Deməli sizin onları təqlid etməniz yeni

gülüş üçün impuls rolunu oynadı. İndi həmin adamlar sizin reaksiyanıza gülürlər. Siz bu gülüşü eşitdikdə təzədən gülməyə başlayırsınız. Beləliklə təqlid etmə və yoluxma bir – birini əvəz edir.

Bu sadə misal əsasında emosiyanın necə sirkulyasiya etdiyini gördük. Bu və ya başqa emosiya başqa adamlara yoluxandan sonra sizə qayıdır. Beləliklə, emosiyanın dairəvi hərəkəti müəyyən müddət davam edə bilir.. Aydındır ki, dairəvi hərəkət pozula bilər və emosiya yoxa çıxa bilər. Ancaq, hər dəfə birliyə adamlar gələndə dairəvi hərəkət işə düşür. Bu o zaman baş verir ki, bu emosiyanı yaradan səbəb əksər insanlar üçün aktual olur. Bu zaman onalrın yaşamları müəyyən səviyyəyə çatır.

2. "Emosional fırlanma" – birlik halında yaşanan halətlərin psixofiziki inkişafının ikinci mərhələsidir. Sirkulyasiya gücünə çatan emosiya özünü bu səviyyədə - yüksək səviyyədə saxlamağa can atır. Birliklərdə stixiya şəklində yaranan emosiya fırlanaraq güclənir və özü –özünü saxlayır. Stixiyalı emosianal birlik məhz bu cür yaranır. Məsələn gənclərin yığılıb rep, əsgərlərin marş oxuması, milli himnin oxunması və s.

Sirkulyar reaksiya situativ olaraq fərdi fərdləri yoxa çıxarır ( hamı gülür, çünki gülür).

Emosional fırlanma birliyin saxlanmasına xidmət edir. Bu zaman insan birlikləri bəzi stimullara eyni, şüursuz reaksiya verən amorf kütləyə çevrilir.

3. Yeni obyektin yaradılması. Emosional gərginlik (vzvinçovaniya). Birinci mərhələdə emosional reaksiya yaranır və öz ətrafına insanları toplayır. İkinci mərhələdə emosional fırlanma baş verir. Üçüncü mərhələdə yeni obyekt – obraz meydana çıxır. qorxulu şaiə, aqressiv xəbər bu rolda çıxış edə bilirlər. Bu zaman emosiyanin məzmunu əhəmiyyət kəsb etmir, əsas odur ki, real və ya düşünülmüş şəkildə olan bu obyekt "artıq lazimi kondensiyaya "çatmış emosional halətlə heç olmasa bir az da olsa uyğun gəlsin.



Cədvəl 18.1. Stixiyalı davranışın mexanizmləri

**18.2. Kütlənin mövcudluğunun psixoloji faktorları.** Demək olar ki, bütün tədqiqatlar kütləyə daxil olan adamlar arasında sabit psixoloji faktorun olduğunu göstərirlər. Eyni stimullar nəticəsində yaranan oxşar və identik emosiyalar əsasında yaranan kütlə təşkilatı və əxlaqi normalara malik olmur. Bu zaman insanlar arasında emosiona-impulsiv, irrasional əlaqələr yaranır. Belə halda kütlənin üzvləri sanki hipnoz altında hərəkət edirlər. Q. Lebonun və Z. Freydin əsərlərində "kütlənin hipnoz mahiyyətindən", "kütlə hipnozundan" danışılır. Bu ideyaları tənqid edən Y.Şepanskiy yazırdı: "... bu, kütlə üzvlərinin hamısına sirayət edən oxşar impuls və emosiyalarının intensivlik dərəcəsinin qısa dövriyyəsidir. Belə " hipnoz"un güclü və ya zəif olması konkret ictimai tarixi situasiyaya verilən kütlə tərəfindən reaksiyanı yaradan stimulların xarakterindən asılıdır."

Belə " hipnoz" un yaranması üçün bir sıra şərtlər vacibdir.

1. Əvvəlcədən mövcud olan yönəlişlik və əqidə. Bu zaman kütlənin nifrət etdiyi qrup və ya institutlara qarşı yönəltmək asan olur.
2. Kütləni hərəkətə gətirən şüarlara uyğun olan əqidənin və meyillərin mövcudluğu.
3. Gənc yaş dövrü və sosial – siyasi təcrübənin olmaması.
4. İntellektin aşağı səviyyəsi, öz davranışını təhlil edə bilməmək, zəif iradə, siyasi baxışların qeyri –sabitliyi.

**Kütlənin növləri:**

1**.** Təsadüfi kütlə - bunu hamı müşahidə edə bilər. Məs. avtomobil qəzası baş verən zaman insanların ora yığılması. Bu zaman kütlənin hər şeylə maraqlanması üstünlük təşkil edir. Sirkulyasiya reaksiyası bütün gücüylə işə düşür. Belə kütlə ekspressiv kütləyə çevrilə bilir.

2. Ekspressiv kütlə - bu elə kütlədir ki, insanlar nəyi izə məs. sevinci və kədəri , qəzəbi və etirazı bir yerdə yaşayırlar. Avtomobil qəzasına yığılan insanlar ekspressiv

kütləyə çevrilə bilərlər. Belə ki, onları birləşdirən səbəb küçə hərəkətinin” biabırçı” təşkilatlanması  və yol polisinin pis işinə olan etiraz hissi ola bilər. Bu növün ekstatik kütlə növü də vardır. Məs. ritmik şəkildə yerinə yetirilən dini rituallar və birgə dualar və yaxud latın Amerika ölkələrində karnavallar, gənclər öz kumirlərinin konsertlərində ekstatik kütləyə çevrilə bilirlər.

3. Konvensial kütlə - toplanmış publikaya çox oxşayır. Adətən belə kütlə, hər hansı bir hadisəylə bağlı yığılır. Məs. İdman yarışları, siyasi mitinqlər.Bu zaman insanlar konkret marağa görə müəyyən vaxta qədər situasiyanın qayda – qanununa riayət edirlər. Məsələ. Futbola gəlmiş kütlənin 2 konvensiya əlaməti vardır: bilet və ona ayırılmış yer.. Aydındır ki, futbola gəlmiş tamaşaçılar daxilən konservatoriya tamaşaçıları deyillər. Belə kütlə müəyyən momentə qədər – atlı polislərin onları metro girişinə ötürdüyü vaxta qədər “konvensial” olur. Azarkeş fanatların daxili “qayda –qanunları”  elədir ki, onlar polisi yıxıb keçə bilərlər.

4. Fəaliyyət göstərən kütlə - məhz bu növ siyasi mənada əhəmiyyətli sayılır və diqqəti cəlb edir.




Cədvəl 18.2. Kütlənin növləri




Cədvəl 18.3 Fəaliyyət göstərən kütlənin növləri

**Fəaliyyət göstərən kütlənin dörd** alt növü vardır:

1. Aqressiv kütlə - çoxlu sayda insanın qəzəbli şəkildə dağıtmaq, öldürmək, vurub sındırmaq meyli;

2. Panikaya düşmüş kütlə - İnsanların qorxu altında real və ya qeyri –real təhlükədən qaçmaq meyilləri;

3. Tamahkar kütlə - Özü üçün nəsə əldə etmək istəyən insan birliyidir. Belə kütlə zidiyyətli olur. Onsuz da əldə olunan qiymətli şeylər hamıya çatmayacaq;

4. Üsyankar kütlə - belə kütlə qələbə çalarsa, ona inqilabi kütlə də deyirlər.

Qayıdaq misalımıza: Qəza ətrafında toplanan və ekspressiv kütləyə çevrilən insanlar aqressiv kütləyə dönüb (burada öndə gedən kimsə lazımdır- vojak) yaxındakı polis məntəqəsinə gedib oranı dağıda bilər. Lakin, xarici təkan olarsa, belə kütlə üsyankar kütləyə də çevrilə bilər. Onlar polis məntəqəsini dağıtmaqla kifayətlənməyib, daha yüksək hakimiyyət orqanlarına (icra hakimiyyətinə) hücum edib, ordakıları ya tutarlar ya da oranı tərk etməyə məcbur edərlər. Beləliklə də inqilabi kütləyə çevrilərlər. D.V.Olşanski şah rejiminin dağılması və Xomeyninin hakimiyyətə gəlməsi ərəfəsində etdiyi müşahidəni belə təsvir edir: “ Tehranda hər şey belə sxem üzrə gedirdi: eyni vaxtda şəhərin onlarla nöqtəsində yol nəqliyyat qəzası baş verdi, guya ki “təsadüfü” kütlə əmələ gəldi. Sonra isə hər şey yuxarıdakı sxemlə baş verdi və məlum nəticələlə nəticələndi.

**18.4. Kütlənin struktur xüsusiyyətləri.** Vertolyotdan çəkilmiş şəkillər göstərir ki, adətən kütlə dairəvi formada yaranır və bu zaman bəzi insanlar mərkəzdən kütlənin kənarlarına və əksinə kənardan mərkəzinə hərəkət edirlər. Bunun iki mənası var: bir təərfdən informasiyanın kütlədə yayılmasına xidmər edir. Ikinci tərəfdən insanaları aktivlik dərəcəsinə görə seçməyə imkan verir. Aktiv insanlar mərkəzə, passivlər kənara can atırlar.

**Kütlə sərhəddləri.** Mərkəzdə kütlə kənarlara nisbətən daha sıx olur. Kütlənin sıxlığı onun problemə maraq səviyyəsini təyin etməyə kömək edir. Amerikada bundan istifadə edirlər.

**18.3. Kütlənin daxili struktur xüsusiyyətləri.** Vertolyotdan çəkilmiş şəkillər göstərir ki, adətən kütlə dairəvi formada yaranır və bu zaman bəzi insanlar mərkəzdən kütlənin kənarlarına və əksinə kənardan mərkəzə hərəkət edirlər. Belə hərəkət, bir tərəfdən informasiyanın kütlədə yayılmasını təmin edir, ikinci tərəfdən insanları aktivlik dərəcəsinə görə seçməyə iomkan verir. Aktiv insanlar mərkəzə, passivlər kənara can atırlar.

Kütlə daxilən iki qeyri-bərabər hissədən ibarətdir: lider və ardıcılları.

Bəzən kütlə daxilində antoqanist qruplar və alt qruplar da ayırd edilir. Onlar müəyyən şərtlər daxilində çox dar maraqlarla birləşmiş olurlar. Kütlədə antoqanist qrupların mövcudluğu kütləvi nizamsızlığın əsasını qoya bilir. Kütlə daxili başlayan vuruşma böyüyüb kütləvi nizamsızlığa çevrilə bilər. 1990-cı ildə martın 18-ində Vilnüsdə Litvanın SSSR-dən çıxmaqla bağlı keçirilən mitinqinin havadan çəkilmiş materialları tədqiq edən S.K.Roşin belə qənaətə gəlmişdi ki, 180000 iştirakçının ancaq bir hissəsi qışqırıq və əl çalmalarla mitinqi dəstəkləyirdi. Əhalinin əksəriyyət təşkil edən o biri hissəsi özünü passiv aparırdı. Ancaq şüarlar səsləndirirdi. Üçüncü hissə mitinqin məqsədlərini aktiv şəkildə pisləyirdi. Dördüncü hissə yoldan keçən və maraq xatirinə dayanan insanlardır.

**Kütlənin sıxlığı və ölçüləri.** X.Cekobs göstərirdi ki, ən böyük sıxlıq zamanı bir insana 4 kvadrat fut yer düşür. O, kütlənin ölçüsünü təyin etməkçün belə bir yol təklif edirdi. Kütlənin yığışdığı meydanın eni və uzununu ölçmək və onu sıxlıq əmsalına vurmaq lazımdır. Sıxlıq əmsalı sıx kütlələr üçün 10, çox da sıx olmayan kütlələr üçün 7- dir. Bu zaman alınan nəticə yalnız 20% səhv ola bilər.

**Kütlənin tərkibi.** Q. Lebon yazırdı ki, kütlələr cinayətkarlardan, avaralardan, cəmiyyətin atılmışlarından təşkil olunur. 70-ci illərdə xüsusi tədqiqatlar bu fikri təkzib etdi. Belə ki, kütlələrdə çilingərdən tutmuş akademikə qədər hamı ola bilər.

**Kütlə üzərində nəzarət və onun idarə edilməsi.** Kütlənin siyasi davranışının müəyyən həddə qədər nəzarəti və idarə olunması, prinsip etıbarı ilə mümkündür. Belə nəzarəti mütləqləşdirmək olmaz. Mürəkkəb siyasi-psixoloji fenomenlərlə siyasi-psixoloji aspektlərdən anaşmaq lazımdır.

Konkret misala nəzər salaq: İranlılar ABŞ səfirliyini girov götürmək ərəfəsində hiddətlənmiş kütlə səfirliyə tərəf hərəkət etməyə başladı. Bu zaman içində yarımçılpaq qızlar olan üstüaçıq maşın onların qabağından keçərək başqa istiqamətə yönəlir və kütlədə də istiqamətini dəyişib onun ardınca gedir. Bu misalda aqressiv kütlə təsadüfi, seksual-eksrressiv kütləyə çevrildi. Yeni kütlənin yaranmaması və ya olan kütlənin dağıdılması üçün insanların diqqətini yayındırmaq, başqa şeylə cəlb etmək kifayət edir.

Latin Amerikası ölkələrində, konkret olaraq, Braziliyada bir-birinin mitinqlərini dağıtmaq üçün düşmənin agentləri kütlə kənarında (periferiyasında) yerləşirlər və kulminasiya vaxtı kütlənin diqqətini başqa şeylərə asanlıqla cəlb edirlər. Məs., üskük oyunu, radioda futbol verilişləri və s.

Və yaxud agentlər kütlənin mərkəzində yerləşib, lazım olan vaxt: “Polis”, “Onlar silshlıdırlar”, “Qaz” – deyə qışqırırlar.

Və yaxud kütlənin aqressiyası yüksək və ritmik musiqi ilə ekspressiyaya transformasiya edilir. Deyilənlərə görə, ABŞ-ın səfirliklərində belə hallae üçün bu vasitə nəzərdə tutulub.

**18.4. Kütləvi panika.** Panika təhlükəli və ya aydın situasiya haqqında informasiyanın çatızmazlığı və ya həddən artıq olması və impulsiv hərəkətlərdə təzahür etməsi nəticısində yaranan emosional halətdir. Panika yunan mənşəli söz olub, çobanları, örüşləri və sürünü qoruyan Pan allahının adından yaranmışdır. Panika onun qəzəbidir, bu zaman qoyunlar qəfildən (sürü) sanki dəli olubmuş kimi özünü uçuruma, oda, suya atır və bu, bütün sürünün məhvi ilə nəticələnir.

Panikanı yaradan dörd qrup faktorlar aşağıdakılardır:

1. Situasion şərtlər. İnsanlar situasiyadan nə isə gözləyəndə qorxulu informasiyaların qəbuluna çox həssas olurlar.

2. Fizioloji şərtlər.Yorğunliq, aclıq, spirtli və ya narkotik sərxoşluq, xroniki yuxusuzluq insanlara təkcə fiziki deyil, həm də psixoloji təsir edir. Belə vəziyyətdə insanlar şəraiti düzgün qiymətləndirə bilmirlər, ebosional yoluxmaya həssas olurlar.

3. Psixoloji şərtlər. Buraya hadisənin qəfildən baş verməsi, güclü təəccüb hissi, güclü oyanma, qorxu aiddir.

4. İdeoloji və siyasi-psixoloji şərtlər. Buraya məqsədlərin aydin dərk edilməməsi, effektiv liderin olmaması, idarəetmənin kifayət qədər olmaması və s. aiddir.

**Panikanın yaranması və inkişaf etməsi mərhələləri.** Panikanın yaranması üçün stimul şoka sala bilmək gücünə malik olmalıdır. Məs., sirena, həyacan siqnalı, partlayış, zəlzələ və s. Şaiələr də panika yaradırlar. Panikanın yaranması və inkişaf etməsinin üç mərhələsi vardır:

1. Sarsıntı;
2. Özünü itirmək;
3. "Sirkulyasiya reaksiyası."

1. Sarsıntı mərhələsində hadisənin qəfildən baş verməsi çaşqınlıq, situasianın çıxılmaz olduğu haqda fikir yaradır. Bu zaman qorxu müxtəlif cür təzahür edir: insanlar qışqırır, ağlayır, xaotik hərəkətlər edirlər.

2. Özünüitirmə mərhələsində insanlar əvvəlki təcrübələrinə əsasən baş verənləri başa düşməyə can atırlar. Vəziyyət tez qərar verməyi tələb edir və bununla da qərarın qəbul olunmasına mane olur. Insanlar sanki havadan asılı qalırlar.

3. "Sirkulyasiya reaksiyası" və "Emosional fırlanma" – bu haqda əvvəlki dərslərdə danışmışıq.

Panikanın yaranması üçün mərhələlərdən hansısa birinin baş verməməsi də mümkündür. Məs., Xirosimaya bomba atılan zaman əvvəlki iki mərhələ baş verməmişdir.

**Panikalı davranışa təsir göstərmək üşün** emosional yoluxmağın intensivliyini azaltmaq, insanı düşdüyü vəziyyətin hipnotik təsirindən qurtarmaq, onun psixikasını rasionallaşdırmaq, individuallaşdırmaq lazımdır – bunlar ümumi məsələlərdir.

Lakin başqa məsələlər də vardır:

1. Kütlənin təqlid etdiyi adam kim olacaq? Məsələ ondadır ki, panika üçün qorxulu stimul baş verəndən sonra (sirena, zəlzələ və s.) bit neçə saniyə olur ki, panikaya düşməmişdən əvvəl baş verənləri başa düşməyə, "yaşamağa" çalışırlar.

Bu vaxtdan istifadə edib təqlid üçün lazım olan adamı onların arasına salmaq lazımdır. Kimsə “uzanın”, yaxud “hamı öz yerində qalsın” – deyə qışqırmalıdır. Bu zaman başqaları onu nümunə kimi qəbul edir və onun kimi hərəkət edirlər. Panikada dəmir kimi möhkəm idarə etmək çox effektli vasitədir. Keçən əsrin 30-cu illərində Parisdə Qiş veledromunda keçirilən mitinqdən sonra çıxışa gedən insanlar bir-birini elə itələməyə başlamışlar ki, nətıcəsi faciə ilə qurtara bilərdi. Bu vaxt orada, pilləkənlərin yanında daynan bir qrup psixoloq bunun nə ilə bitəcəyinin başa düşərək bərkdən əmredici tonla və ritmik : “İ-TƏ-LƏ-MƏ!” – deyə qışqırmağa baılamışlar. Və yaxud, Parisdə Qrand-Operada baş verən yanğin zamanı bir nəfər oturacaqların üstünə çıxıb bərkdən Himni oxumağa başlamışdır.

Kütlənin təşkilatlanmasında ritmik musiqinin rolu çoxdan məlumdur. Bu məqsədlə hələ qədim dövrlərdən marşlardan geniş istifadə etmişlər.

Mövzuya aid sual və tapşırıqlar:

1. Stixiyalı davranışın mexanizmləri necədir?
2. Kütlə hipnozu nədir?
3. Kütlənin mövcudluğunun əsas şərtləri hansılardır?
4. Kütlənin hansı növləri vardır?
5. Kütlənin strukturu deyəndə nə başa düşürsünüz?
6. Kütləvi panika nədir və onu yardan şərtlər hansılardır?
7. Panikanın inkişaf mərhələlərini göstərin.

Ədəbiyyat:

1. Ольшанский Д.В. Психология масс. СПб., Питер, 2001, с.422-451
2. Политическая психология. М., Акад. Проект, 2001, с.329-332; 345-356
3. Политическая психология. /под общ. ред. А.А.Деркача и др./ М., 2001, с.330-369
4. Рощин С.К. Психология толпы: анализ прошлых исследований и проблемы сегоднящнего дня // Психологический журнал, 1990, N-5,с.4-17

5. Щепанский Я. Элементарные понятия социологии. М., Рогресс, 1969, с. 182-185
6. Milgram S., Toch H. Collektive Behaviour: Cruw and Sosial Movements // The Handbook of Sosial Psycholocy/ N-Y, 1969

## XIX mövzu
## Kütləvi kommunikasiyalar

**Qısa məzmun. Şaiələr** və onların öyrənilməsinin əhəmiyyəti. Şaiələrin tipologiyası tipologiyası: informasion və emosional. İnformasiya tipologiyası: 1.Tamamilə qeyri-dəqiq; 2. Müəyyən qədər qeyri-dəqiq; 3. Nisbətən dəqiq; 4. Gerçəkliyə yaxın. Emosional tipologiya: 1. Şaiə - arzu; 2. Şaiə - qorxu (qorxulu şaiə); 3. Aqressiv şaiə.

**Şaiələrin yayılması şərtləri:** auditoriyanın marağı və mötəbər informasiyanın çatışmazlığı. Şaiələrin sirkulyasiyasının (yayılmasının) xüsusiyyətləri: 1.Şaiənin məzmunun müəyyən qədər yumşalması, təfərrüat və detalların itməsi, ancaq arzu, qorxu və aqressiyanın qalması. 2.Şaiələrin

kəskinləşməsi, maraq kəsb edən detalların qabardılması, emosiyaların dramatikləşdirilməsi. 3.Şaiənin auditoriyanın maraqlarına uyğunlaşması. Şaiələrlə mübarizə.

**Kütləvi kommunikasiya vasitələri.** Kütləvi kommunikasiyanın sosial funksiyaları: 1. İnformasiya funksiyası; 2. Təşkilati funksiya; 3. Emosional tarazlaşdırma funksiyası; 4. Kommunikativ funksiya. Kütləvi kommunikasiyanın psixloji funksiyaları: 1. Kütləvi psixologiya formalşdırmaq funksiyası; 2. İnformasiya-kommunikasiya funksiyası; 3.İnformasiya funksiyası; 4. Tərbiyəedici funksiya; 5. Davranışı təşkil etmə funksiyası.

**Kütləvi kommunikasiyanın sxemi:** kommunikator, auditoriya, kommunikasiya xəbərləri. Kommunikator: kommunikasiya siyasətinin müəyyənləşdirilməsi; informasiyanın toplanması; informasiyanın təhlil edilməsi; informasiyanın son variantının işlənib hazırlanması; verilən xəbərin məsuliyyətinin daşınması; xəbərin efirə buraxılması. Auditoriya: aktiv və passiv auditoriya.

**19.1.** Kütləvi kommunikasiya – mürəkkəb və çoxölçülü fenomendir. 1980-ci ildə kütləvi kommunikasiya haqqında 16 min konsepsiya mövcud idi. İndi onların sayı iki dəfə artmışdır. Bu konsepsiyaların əksəriyyəti kütləvi kommunikasiya institutlarına qəzet, radio, TV-yə həsr olunmuşdur. Lakin bu, kommunikasiyanın yalnız bir hissəsidir.

Tarixən yaranan və inkişaf edən kütlə və kütlə davranışı qeyri –rəsmi kanallarla, qeyri-formal informasiya ilə sıx bağlıdır. Kütləvi kommunikasiya vasitələri - qəzetlər, radio və TV yalnız XX əsrdə kütləviləşmişdir. Ona qədər isə şaiələr bu rolu yerinə yetirirdilər.

Şaiələrin öyrənilməsi müəyyən çətinliklərlə bağlı olsa da, onları sistematik tədqiq etmək mümkündür.

Keçən əsrin 20-30-cu illərdə Qərb tədqiqatçıları kütlənin yaranmasında və kütlə davranışının idarə olunmasında şaiələrin rolunu və onların yayılma qanunauyğunluqlarını öyrənmişlər.

**Şaiələr və onların tipologiyası.** Siyasi psixologiya şaiələri xüsusi kanallar vasitəsilə - qeyri-rəsmi, institutlaşmamış kanallarla yayılan fenomen kimi nəzərdən keçirir. Şaiələrin öyrənilməsi iki cəhətdən əhəmiyyətlidir.

1. Şaiələr kütləvi əhval-ruhiyyənin, ictimai rəyin özünəməxsus təzahür formasıdır.

2. Bu, kütləvi davranışa təsir göstərməyin ən əlverişli davranış yollarından biridir.

Şaiə ancaq şifahi formada və “sirr” kimi “ağızdan-ağıza” keçən qeyri-dəqiq, təhrif olunmuş informasiyadır.

Şaiələr həmişə təhrif olunmuş informasiyalar, yoxlanılmamış informasiyalardır. Əgər hər hansı bir informasiya haqqında dəqiq məlumat yoxdursa, deməli, o, şaiədir. Əlbəttə ki, müəyyən vaxtdan sonra şaiələr – dəqiq informasiyaya çevrilə bilərlər.

**Şaiələrin tipologiyası.** Şaiələrin iki əsas tipologiyası vardır:

1. İnformasiya tipologiyası;
2. Emosional tipologiya.

İnformasiya tipologiyası. Şaiələr həmişə informasiya xarakterli olduqları üçün onların təsnifatında informasiyanın dəqiq və ya qeyri-dəqiq olması əsas faktordur.

**İnformasiya tipologiyasına görə** şaiənin dörd tipi vardır:

1.Tamamilə qeyri-dəqiq;
2. Müəyyən qədər qeyri-dəqiq;
3. Nisbətən dəqiq;
4. Gerçəkliyə yaxın

**Emosional tipologiyaya görə** şaiənin üç tipi vardır:

1. Şaiə - arzu;
2. Şaiə - qorxu (qorxulu şaiə);
3. Aqressiv şaiə;
4. Gerçəkliyə yaxın şaiə

Şaiə-arzu – yayıldığı auditoriyanın arzu və istəklərini əks etdirən güclü emosional arzudur. Məsələn: XIX əsrdə rus kəndliləri arasında təhkimçilik hüququnun ləğv edilməsi haqqında şaiələr gəzirdi. Və ya bir də : maaşların artırılması haqqında gəzən şaiələr.

Bu tip şaiələr neqativ emosiyaların qarşısını alır, panikanın yaranmasına yol vermir. İkinci tərəfdən belə şailər insanın gözləməsini artırır.Gözləmələr reallaşmayanda aqressiv davranış müşahidə oluna bilər. Belə şaiələrdən kütlə ilə manipulyasiya etmək üçün geniş istifadə olunur.

1930-40 –cı illərdə Almaniyanın Fransa ilə danışıqlara gedəcəyi haqqında şailər yayılmışdı. Fransızlar arxayın olub oturmuşdular.

Qorxulu şaiə - neqativ, qorxuducu emosiyaların əhval- ruhiyyədə təcəssüm olunan, yayıldığı auditoriyanın bəzi aktual , ancaq arzuolunmaz gözləmələrini əks etdirən şaiədir.

Belə şaiələr, adətən, sosial gərginliklər zamanı – təbii fəlakətlər, müharibə, hərbi çevrilişlər ərəfəsində yaranır.

Aqressiv şaiələr – təkcə auditoriyanın neqativ əhval-ruhiyyəsini və arzuolunmaz gözləmələrini əks etdirməyib, həm də davranışı aqressiv emosional stimullaşdırmağa yönəldilmiş şaiələrdir.

Belə şaiələr sosial qruplar, etnik qruplar və millətlərarası konfliktlərlə bağlı yaranan kəskin ziddiyyətlər şəraitində yaranır.

"Qəribə şaiələr" növü də var ki, heç bir təsnifata uyğun gəlmir. Onaların məzmunu o qədər qeyri- realdır ki, yalanlığı o dəqiqə üzə çıxır.

**19.2. Şaiələrin yayılmasının şərtləri.** Spontan yayılan şaiələrin yaranması üçün iki əsas şərt lazımdır: auditoriyanın marağı və mötəbər informasiyanın çatışmazlığı.

Əgər auditoriyanın hər hansı bir məsələyə marağı yoxdursa, şaiə yayılmayacaq. Məs. Əgər ABŞ-da hər hansı bir nəfərə deyilsə ki, Ərəbistanda dəvələrin qiyməti qalxacaq, o, asanlıqla buna inanacaq. Lakin bu xəbəri dost-tanışlarına yaymayacaq. Çünki ona və onun dos-tanışına bu xəbər maraqlı deyil. Anca, onları maraqlandıran bir xəbər olsaydı hər şey başqa cür olardı.

Mötəbər informasiyanın çatışmazlığı şaiələrin yaranmasının ikinci əsas səbəbidir. Həyat həmişə informasiyaya tələbat yaradır. Bu tələbat həmişə aktual olmalıdır, yəni təmin olunmamış olmalıdır. Bu zaman mötəbər informasiya olmadığından hər bir şaiə yarana və inkişaf edə bilər.

Bu iki əsas səbəbdən əlavə başqa səbəblər də vardır. Cəmiyyətin uzun müddət emosional gərginlik şəraitində yaşaması şaiələri doğurur. Bunun psixoloji mexanizmi ondan ibarətdir ki, şaiələr emosional gəərginliyin başlanması üçün vasitə rolunu oynayır. Və əksinə. Uzun müddət emosiasız şəraitdə yaşayan cəmiyyət də emosional enerji almaqçün şaiələrə ehtiyac hiss edir.

Beləliklə, şaiələr emosional sakitləşdirici və təmizləyici rolunu oynayırlar ki, bunu Olport –Postmen qanunu təsdiqləyir.

**Q.Olport – L.Postmen qanunu.** Bu qanuna görə, şaiələrin intensivliyi onun məzmununun əhəmiyyətindən və informasiyanın qeyri-müəyyənliyindən asılıdır. Onu belə formulə etmək olar:

Ş = M × Ç

Ş – şaiə

M – maraq

Ç – çatışmazlıq

R S – rəsmi xəbərlərin sayı

ME – mənbəyin etibarlığı

ME = i / RS × ME

**Iki düsturu birləşdirsək:**

Ş = i / RS × ME

Vuruqlardan 1-i 0-a =olarsa, şaiə də 0-a bərabər olacaq.

**Şaiələrin sirkulyasiyasının (yayılmasının) xüsusiyyətləri.** Şaiələr yaranandan sonra onlarda müəyyən transformassiyalar baş verir:

1. Şaiənin məzmunu müəyyən qədər yumşalır. Bu zaman təfərruat, detallar itir. Ancaq arzu, qorxu aqressiya qalır.
2. Şaiələrin kəskinləşməsi. Bu zaman maraq kəsb edən detallar qabardılır, emosiyalar dramatikləşdirilir.
3. Uyğunlaşma. Bu zaman şaiə auditoriyanın maraqlarına uyğunlaşdırılır.

**Şaiələrlə mübarizədə ən faydalı vasitə** şaiələrin yaranmamasına çalışmaqdır.

Yəni, yaranmaması üçün vaxtında tədbir görmək. Iki misala baxaq:

II Dünya müharibəsində Britaniya dövləti müharibə dövrünə xas olan panikaların yaranmasının qarşısını almaq üçün BBS radiosuna göstəriş verildi ki, müharibə haqqında xəbərlərdə ölən ingilis əsgərlərinin sayını ölən alman əsgərlərinin sayından bir az çox desinlər. Bunun nəticəsində əhali bu radio efirinə inanmağa başlamışdı.

ABŞ-da böyük nüfuza malik olan prezident F.D.Ruzvelt psixoloji gərginliyi azaltmaq üçün radio vasitəsilə əhaliyə ölkədə baş verənlərdən və hökumətin planlarından danışırdı. Belə psixoterapevtik söhbətlər ölkədə psixoloji sabitliyi saxlamağı və böhranı üstələməyə kömək etdi.

Əgər şaiə artıq yayılıbsa, susmaqdan və ya onu təkzib etməkdənsə yeni faktları ortaya qoymaq lazımdır.

**19.3. Kütləvi kommunikasiya vasitələri.** Kommunikasiya latın sözü *communicatio* sözündən yaranıb "xəbər" mənasını verir. Kütləvi kommunikasiya informasiyanın istehsal olunması və onun texniki vasitələrin köməyi ilə pressa, radio, televiziya vasitələri ilə ötürülməsi prosesidir.

KİV texnikanın inkişafı ilə geniş vüsət tapmışdır.

Kütləvi kommunikasiyanın sosial və psixoloji funksiyaları vardır.

**Kütləvi kommunikasiyanın beş əsas sosial funksiyası** ayırd edilir:

1. İnformasiya funksiyası - bu kütləvi kommunikasiyanın əsas funksiyasıdır. Təsadüfi deyil ki, çox vaxt sadəcə kütləvi informasiya vasitələri kimi işlədilir.

2. Təşkilati funksiya – bütün fəaliyyəti və ya davranışı dəyişdirə bilmək, təşkil edə bilmək funksiyasıdır.

3. Emosional tarazlaşdırma funksiyası - kütləvi kommunikasiya vasitələri kədəri qovur, insanları darıxmağa qoymur, onlara minillik təlqin edir.

4. Kommunikativ funksiya. Fərdlər və ya auditoriyanın bir hissəsi arasında əlaqələri ya möhkəmlədir, ya da zəiflədir.

**Kütləvi kommunikasiyanın beş əsas psixoloji funksiyası** ayırd edilir:

1. Kütləvi psixologiya formalşdırmaq funksiyası;

2. İnformasiya – kommunikasiya funksiyası;

3. İnformasiya funksiyası;

4. Tərbiyəedici funksiya;

5. Davranışı təşkil etmə funksiyası.

**19.4. Kütləvi kommunikasiyanın sxemi.** Kütləvi kommunikasiyanın sadə modelini hələ Aristotel aşağıdakı kimi təqdim edirdi:

M - X - Q

M – mənbə;

X – xəbər;

Q – qəbul edən

XX əsrin 60-cı illərində Q.Lassuel isə belə sxem təqdim edirdi:

Kommunikator

↓

Xəbərin məzmunu

↓

Kommunikasiya vasitələri

↓

Auditoriya

**Kommunikator** - kütləvi kommunikasiyanı təşkil edən və ona nəzarət edən orqandır. Lakin, bu onun yeganə funksiyası deyil. Kommunikator çox vaxt mənbə rolunu oynayır. O, kommunikasiya siyasətini hazırlayır, informasiyanı toplayır, araşdırır və buraxır. Beləliklə, kommunikator altı funksiyanı yerinə yetirir:

1. Kommunikasiya siyasətini müəyyənləşdirir və onun həyata keçirilməsinə nəzarət edir;

2. İnformasiyanı toplayır;

3. İnformasiyanı təhlil edir;

4. Onun son variantını işləyib hazırlayır;

5. Verdiyi xəbərə görə məsuliyyət daşıyır;

6. Xəbəri efirə buraxır.

**Auditoriya.** Frankfurt məktəbinin aparıcı nümayəndələri T.Adorno və M. Horkhayter göstərirdilər ki, kütləvi kommunikasiya totalitar siyasi sistemin siyasi məqsədlərlə cəmiyyətin kütləviləşdirilməsi mexanizmidir. Almaniyada Gebbelsin, SSSr- idə Stalinin təbliğatı

Elmi ədəbiyyatda auditoriyaya münasibətdə ikin yanaşma mövcuddur. Bunlardan biri, auditoriyanın passivliyini qəbul edən yanaşmadır. Onların fikrincə "gerçəklikdən qaçan sosial terapiya üsulları" ilə (X.Xoltser) auditoriyanı maniken səviyyəsinə gətirmək olar.

Lakin auditoriyanın aktivliyini də qəbul edənlər vardır. Belə auditoriya hər kanala baxmır, seçim tələb edir. Ona görə də KİV auditoriya uğrunda mübarizə aparmalı olur.

**Kommunikasiya xəbərləri.** Bu xəbərlərə sadəcə xəbər kimi deyil, göndəriş, mesaj kimi baxmaq lazımdır. Kommunikator topladığı araşdırdığı, özünə lazım olan varianta saldığı informasiyanı geniş kütlələrə göndərir. Belə xəbər məhz mesajdır. Eyni bir informasiyanı müxtəlif şəkildə təqdim etmək olar. Tədqiqatlarda müasir xəbərləri – mesajı psixoloji cəhətdən mif yaradan fenomen kimi nəzərdən keçirirlər. Qeyd etmək lazımdır ki, informasiyanın toplanmasında süzgəcdən keçirilib toplanma və hazır olmasında bu prosesdə iştirak edən adamların – işçilərin şəxsi keyfiyyətləri, dünya görüşü, xəbərə, işinə, özünə, hətta maaşına münasibəti əhəmiyyətli rol oynayır.

Mövzuya aid sual və tapşırıqlar:

1. Saiə - kütləvi əhval-ruhiyyənin və ictimai rəyin özünəməxsus forması kimi.
2. Şailərin kütləvi davranışa təsiretmə mexanizmi necədir?
3. Şaiələrin hansı tipləri vardır?
4. İnformasiya tipologiyasına görə şaiələrin hansı növləri vardır?
5. Emosional tipologiyaya görə şaiələrin hansı növləri vardır?
6. Şaiələrin yaranma səbəbləri hansılardır?
7. KİV nədir və o, hansı funksiyaları yerinə yetirir?

8. KİV-in hansı sosial funksiyaları vardır?

9. KİV-in hansı psixoloji funksiyaları vardır?

10. Kütləvi kommunikasiya sxeminə nə daxildir?

Ədəbiyyat:

1. Американское общественное мнение и политика.М., 1978, с. 109-120

2. Вебер М. Изобранные произведения. М., 1990, с.660-679

3. Ольшанский Д.В. Политическая психология. СПб.,Питер,2002, с.453-489

4. Ольшанский Д.В. Психология масс. СПб., Питер, 2001, с. 200-279

5. Политическая психология. /под общ. ред. А.А.Деркача и др./ М., 2001, с.370- 402

6. Barber J. The pulse of politics: Elekting Presidents in the Media Age.N.Y.L., Plenum, 1087, p. 8-9

## XX mövzu
## Siyasi-psixoloji tədqiqat metodları

**Qısa məzmun. Şəxsiyyətin siyasi psixologiyasının tədqiqat metodları:** Kontakt metodlar və distant metodlar. Kontakt metodlar: anket, sorğu, proyektiv metodlar, Lüşer testi, Rorşax testi və s. Distant metodlar: psixobioqrafik metodlar, siyasətçinin dostları, qohumları ilə müsahibə, siyasətçi haqqında ekspertlərin rəyi, siyasi fəaliyyətin "məhsulunun" təhlili (çıxışların mətni, siyasətçinin maneraları, jestləri və s.), məqalələr və s. **Kiçik qrupların siyasi psixologiyasının tədqiqat metodları**na aiddir: sosiometriya, psixosemantik metodlar. Böyük qrupların siyasi psixologiyasının tədqiqat metodları**:** müşahidə, sorğular, anket**,** foks-qrup metodu. Siyasi psixologiyada oyun vasitəsilə modelləşdirmə. Tarixi müqayisəli metodlar: tarixi təsvir və konkret təhlil, mərhələlərə bölmək və tarixi analogiya, müqayisə, xronoloji, proqnostik metodlar.

**Siyasətə müdaxilə etmək üsulları:** Danışıqlar; Koalisiyanın yaradılması; Siyasi qruplaşma və onların qarşılıqlı təsiri. **Danışıqlar:** danışıqlara hazırlıq; onların keçirilməsi;

nəticələrin təhlili və qərarların yerinə yetirilməsi. **Koalisiyaların yaradılması:** 1. İki və daha çox ölkənin birləşərək başqa ölkəyə qarşı koalisiya yaratması; 2. Siyasi partiyalar və ya ictimai xadimlərin birləşərək ümumi fəaliyyət məqsədilə yaratdıqları koalisiya. Siyasi qruplaşma və onların qarşılıqlı təsiri: demonstrativ; gizli; müvəqqəti.

**Siyasi hərəkətlərin psixoloji üsulları:** siyasi intriqa, siyasi xəyanət,siyasi mimikriya, siyasi provakasiya, siyasi blef, siyasi şantaj, psixoloji müharibə, xüsusi təbliğat. **Psixoloji müharibənin üsulları:** psixoloji təzyiq, gizli şəkildə şüurasızma, məntiqi qanunların gizli pozulması.

**20.1. Siyasi psixologiyada şəxsiyyəti tədqiqetmə metodları** iki yerə ayrılır:

1. Kontakt metodlar - anket, sorğu (Rokiç testi ) və s., proyektiv metodlar, Lüşer testi, Rorşax testi və s.

2. Distant metodlar - birbaşa kontakt olmadan tətbiq olunurlar. Buraya aiddir: psixobioqrafik metodlar, siyasətçinin dostları, qohumları ilə müsahibə, siyasətçi haqqında ekspertlərin rəyi, siyasi fəaliyyətin "məhsulunun" təhlili (çıxışların mətni, siyasətçinin maneraları, jestləri və s. ), məqalələr və s. Distant metodlara hələ Q. Lassuell tərəfindən tətbiq edilən siyasətlərin tibbi kartlarının öyrənilməsini də aid etmək olar.

**Kiçik qrupların siyasi psixologiyasının tədqiqat metodlarına aiddir**: sosiometriya (Moreno), psixosemantik metodlar (siyasətçinin leksikonunda tez-tez işlənən sözlər, partiya daxili sənədlərin öyrənilməsi və s. )

**Böyük qrupların siyasi psixologiyasının tədqiqat metodlarına aiddir.** Müşahidə, sorğular, anket**,** foks-qrup metodu .

**Siyasi psixologiyada oyun vasitəsilə modelləşdirmə.** Siyasi psixologiyada eksperiment oyun şəklində modelləşdirmə formasında həyata keçirilir.bu zaman tədqiq olunan hadisə, və ya proses oyun şəklində təşkil olunur. Oyun şəklində öyrənilən fenomen –konflikt, danışıqlar, parlament iclası vəs. imitasiya olunur. Bu zaman real prosesdə baş verə biləcək bütün variantlar nəzərdən keçirilir və onun daxili psixoloji mexanizmləri araşdırılır. Belə oyunlardan ölkələrarası mübahisəli məsələlərdə , konfliklərdə istifadə olunur. Məqsəd aydındır: Əvvəlcədən mümkün

olan kofliktləri görmək və onları aradan qaldırmaq. Modelləşdirmənin məğzi ondan ibarətdir ki, iştirakçılar neytral ekspertlər olur və onlar iştirakçıların konfliktə davranışını imitasiya edəndə situasiyanı proqnozlaşdırmaq imkanına malik olurlar və konkret təkliflər verirlər. Əgər oyunda situasiyaya təsir edə biləcək şəxs iştirak edirsə, bu zaman psixoloq ona birbaşa təsir etmə imkanına malik olur. Məs: 1970-ci illərdə Londonun Konfliktlərin tədqiqi mərkəzində Kiprin yunan və türk tərəflərinin nümayəndələri arasında adada vəziyyətin kəskinləşməsilə əlaqədar bir sıra görüşlər keçirilmişdir. Psixoloqlar "oyunun qaydalarını" – görüşün şərtləri, qarşılıqlı təhqirlərə yol verməmək, ümumi mühakimələrə yol verməmək üçün diskusiyanın konkretləşdirilməsi, bir-birinin mövqeyini tam və düzgün başa düşmək – hazırladı. Və beləliklə, Kiprdə vəzziyyətin nizamlanması haqqında razılığa gəlmənin real əsası hazırlanmış oldu.

Sonralar psixoloqlar ABŞ-ın prezidenti Karterin vasitəçilik etdiyi Kemp – Deviddə İsrail və Misir liderlərinin görüşünü hazırlamış və iştirak etmişlər. Nəticədə atəş dayandırılmış, sülh müqaviləsi imzalanmışdır.

**Tarixi müqayisəli metodlara** aiddir: tarixi təsvir və konkret təhlil, mərhələlərə bölmək və tarixi analogiya, müqayisə, xronoloji, proqnostik metodlar.

**20.2. Siyasətə müdaxilə etmək üsulları:**

**Danışıqlar** – bir və ya bir neçə tərəfin maraq dairəsinə daxil olan hər hansı bir problemin həll edilməsi məqsədilə aparılan müzakirə prosesidir. Danışıqların əsas məqsədi mübahisəli məsələnin həll edilməsi və əməkdaşlıqdır. Lakin, bəzən danışıqlardan problemi həll etmək məqsədilə yox, əksinə diqqəti problemdən yayındırmaq məqsədilə istifadə olunur. Maraqların uzlaşdırılması danışıq prosesinin mərkəzi psixoloji halqasıdır. Danışıq prosesinin strukturunda üç əsas mərhələni ayırd etmək olar:

1. Danışıqlara hazırlıq;
2. Onların keçirilməsi;
3. Nəticələrin təhlili və qərarların yerinə yetirilməsi.

**Koalisiyaların yaradılması –** siyasətə müdaxilənin psixoloji üsulu kimi.

Koalisiya sözü latın sözü coalescere sözündən olub, birləşmək mənasını verir. İki halda istifadə olunur. 1. İki və daha çox ölkə birləşərək başqa ölkəyə qarşı koalisiya yardır (Birinci Dünya müharibəsi dövründə - Antanta, II Dünya müharibəsi dövründə - Antihitler koalisiyası). 2. Siyasi partiyalar və ya ictimai xadimlərin birləşərək ümumi fəaliyyət məqsədilə yaratdıqları koalisiya.

**Siyasi qruplaşma və onların qarşılıqlı təsiri** üç yerə ayrılır:

1.Demonstrativ;

2. Gizli;

3. Müvəqqəti.

**20.3. Siyasi hərəkətlərin psixoloji üsulları.** Hakimiyyət uğrunda mübarizə siyasətçilərdən yüksək səviyəli praktik psixoloq olmağı tələb edir. Bu mövzuda psixoloji hərəkətlərin – qərar qəbulu, insanları inandırma, qərarların icrası və s. kimi üsulları deyil, çox vaxt gizlində qalan siyasi fenomenlər nəzərdən keçiriləcək: siyasi intriqa, siyasi xəyanət, siyasi mimikriya, siyasi provakasiya, siyasi blef, siyasi şantaj, psixoloji müharibə, xüsusi təbliğat.

**Siyasi intriqa** – intriqa sözü latınca intrico sözündən düzəlib bir neçə məna verir – gizli hərəkətlər, insanların fəaliyyətində mürəkkəb maneələr yaratmaq, onların maraqlarını toqquşdurmaq, məhəbbət münasibətləri. Bütün bu mənalara müasir siyasi həyatda rast gəlinir. İntriqalar haqqında məlumatlara antik müəlliflərin əsərlərində də rast gəlinir. İntriqalar qədim Şərq ölkələrində də geniş yayılmışlar. Məqsədli şəkildə aparılan intriqa özündə üç komponenti birləşdirir:

1. Fikrin yaranması, məqsədləri və ideyası;
2. Kulminasiya nöqtəsi – maksimum dolaşıqlıq, maksimum böhran situasiya;
3. İntriqanın həlli.

Daxili dinamikliyinə görə intriqalar qısamüddətli (bu və ya digər siyasi personajın və ya siyasi qüvvənin fiziki ləğvi) və uzunmüddətli, gizlin (siyasətçiləri nüfuzdan salmaq və təsirini azaltmaq). Tarixdə bir çox intriqalar olmuşdur. İntriqalar ustası kimi Fransanın baş naziri Rişelyeni göstərmək olar.

**Siyasi xəyanət –** intriqanın bir növüdür. Bir neçə adamın siyasi məqsədlərinə çatmaq yolunda qarşıda duran maneəni – siyasi lideri və ya siyasi

qüvvəni aradan götürmək üçün apardıqları gizli danışıq (məs.: Sezar – Brut, Rişelye – Bekingem).

**Siyasi mimikriya –** *mimicry* sözündən olub yamsılama deməkdir**.** Bu haqda yazılan ilk ədəbiyyatlarda siyasi mimikriyaya prinsipsizlik, buqələmunluq kimi baxırdılar. Siyasi psixologiyada mimikriyaya mürəkkəb müdafiə mexanizmi kimi baxılır. Bu böhran situasiyalarda məcburi özünü müdafiə vasitəsidir. 1917-ci ildə Oktyabr inqilabından sonra ziyalı təbəqəsi belə bir vəziyyətə düşmüşdü. Belə vəziyyət – qalib tərəfin qəbul edilməsi – məcburiyyətdən yaranmışdır. K.Marks belə təbəqəni "cəmiyyətdə ziyalıların marginal statusu" adlandırmışdır.

**Provakasiya** – latın sözü *provacatio* olub çağırış deməkdir. Ayrı-ayrı insanların, qrupların, təşkilatların və hətta kütlələrin ağır nəticə verəcək hərəkətlərə təhrik edilməsi. Provakasiyanın psixoloji mənası budur ki, ondan insanların birbaşa şüuruna və davranışına təsir etmək vasitəsi kimi iştifadə edib onları provakatik qərarlar qəbul etməsinə təhrik edirlər.

**Blef** – İngilis sözü *blyf* sözündən olub yalan, qorxutmaq mənasını verir**.** Bu anlayış əvvəllər kart oyunlarında işlənmiş sonralar geniş yayılaraq siyasətə də keçmişdir. Mənası maksimal fayda əldə etmək üçün hər hansı bir siyasətçinin və ya siyasi qüvvələrin az gücü olduğu halda guya ki, böyük gücü olduğunu nümayiş etdirmək bacarığıdır. Blef ondan istifadə edənin "səmimi", "açıq" olduğu halda istənilən nəticəni verir. Məsələn: Hitler xüsusi xidmətinin Çexoslavakiyada Sovet səfirliyinə yüksək rütbəli Sovet hərbiçilərinin "xəyanəti" haqqında "atdığı" məktubu göstərmək olar. Bunun nəticəsi kimi İ.Stalin zabitləri represiya etdirmişdir. Başqa misal kimi Vermaxtın məğlubiyyətsizliyi haqqında Hitlerin bəyanatlarını göstərmək olar.

**Şantaj -** şəxsin hər hansı bir məlumatın yayılacağı ilə qorxudularaq məqsədə çatmaqdır. Bu məlumat həqiqi və uydurulmuş ola bilər, bunun heç bir əhəmiyyəti yoxdur. ( Klinton- Monika Levinsi skandalında şantaj baş tutmadı. )

**Psixoloji müharibə -** məqsədə çatmaq üçün psixoloji və başqa vasitələrdən – təbliğat, hərbi, iqtisadi, siyasi və s. – istifadə etməklə fikirlərə, əhvallara, hisslərə, nəticə etibarilə düşmənin davranışına təsir göstərmək və onu istədiyi səviyyəyə

yönəltməkdir. Xüsusi təbliğat psixoloji müharibənin bir elementidir. Əsasən hərbi-siyasi psixologiyanın alətidir. Həmişə dövlət sirri kimi saxlanılır. Açılmış sirrlərdən birini misal kimi göstərək. 1943- cü ildə MKİ-nin tapşırığı ilə U. Langerin hazırladığı Hitlerin psixoloji portreti 30 ildən sonra 1972-ci ildə açıqlandı. Belə xüsusi təbliğata misal kimi Çili hökumətinin başçısı S.Alyendeyə qarşı aparılan mübarizəni göstərmək olar. Pressada Amerika hökumətinin ondan imtina etməsi haqda şaiələr yayıldı. Çilidəki sonrakı hadisələr məlumdur.

**Psixoloji müharibənin üsulları:**

1. Psixoloji təzyiq – hər şeydən əvvəl bu, özünü mövcud olmayan ədəbiyyata istinad edilərək nüfuzlu adamlardan gətirilən sitat kimi göstərilən yalan tezislərin dəfələrlə təkrar olunmasıdır.

2 .Gizli şəkildə şüura sızma – reklam xarakterlidir. Gözəl və qayğısız həyat tərzi, öz siyasi dəyərlərini və standartlarını musiqi vasitəsilə, əyləncəli proqramlar, kinofilmlər, hətta moda vasitəsilə kütləvi mədəniyyətə gətirilməsi

4. Məntiqi qanunların gizli pozulması – Buraya tezisin dəyişdirilməsi, yalançı analogiyalar aparmaq, taftalogiya və s. aiddir.

Mövzuya aid sual və tapşırıqlar:

1. Şəxsiyyətin siyasi psixologiyasının hansı tədqiqat metodları vardır?
2. Kontakt qrup metodlarına hansı metodlar aiddir?
3. Distant qrup metodlarına hansı metodlar aiddir?
4. Kiçik qrupların siyasi psixologiyasının tədqiqat metodları hansılardır?
5. Böyük qrupların siyasi psixologiyasının tədqiqat metodları hansılardır?
6. Siyasi psixoloji problemlərin oyun vasitəsilə modelləşdirilməsinin əhəmiyyəti nədən ibarətdir?
7. Siyasətə müdaxilə etməyin hansı üsulları məlumdur?
8. Siyasi qruplaşma və onların bir-birinə təsiretməsi hansı formalarda baş verir?
9. Siyasi hərəkətlərin hansı gizli formaları məlumdur?
10. Siyasi müharibənin hansı üsulları vardır?

Ədəbiyyat:

1. Блек С. Public Relations. Что это такое? М., 1990

2. Гозман Л.Я., Шестопал Е.Б. Политическая психология. Ростов-н-Дону, Феникс, 1996, с.33-51

3. Морено Дж. Социометрия: эксперементальный метод в науке об обществе. М., Акад. Проект, 2001, с. 139-142

4. Ольшанский Д.В. Политико-психологический словарь. М., 2002, с.40-42

5. Политическая психология. /под общ. ред. А.А.Деркача и др./ М., 2001, с.40-69

6. Фишер Р., Юри У. Путь к согласию, или Переговоры с трудными людьми.М., 1993

7. Феофанов О.А. Агрессия лжи. М., 1987, с. 19-24

8. Феофанов О.А. Реклама: новые течхнологии в России. СПб., 2000

9. Уши машут ослом: Современное социальное програмирование. Пермь, 2002, с.19-22; 146-159

10. Brucc B. Images of Power. London, 1992, p.164-166

## XXI Mövzu

## Təşkilatlar, hərəkatlar və partiyalar

1. Təşkilatların psixologiyası
2. Siyasi fəaliyyətin təşklilatlanması
3. Təşkilatlanmanın bürokrativ konsepsiyası
4. Təşkilatlanmada formal və qeyri-formal faktorlar
5. Müasir təşkilatlanma yanaşmaları

Siyasi təşkilatlar, partiyalar və siyasi hərəkatlar siyasi psixologiya tərəfindən bir-birindən müəyyən qədər fərqlənən, ancaq vahid bir fenomen kimi nəzərdən keçirilir.

Təşkilatlanma ilkin anlayışdır. Təşkilat inkişaf edib ictimai hərəkata çevrilə bilər. Daha sonra o siyasiləşərək sosial-siyasi və hətta xalis siyasi hərəkata çevrilə bilər. Sonralar belə hərəkat institutlaşaraq siyasi partiyaya da çevrilə bilər.

Nəzəriyyədə başqa cür də ola bilər:

Təşkilat partiyaya çevrilər və sonralar onun ətrafında hərəkat yarana bilər.

Praktikada inkişaf belə düz xətlə getmir. Əvvəllər həmfikirlər qrupu yaranır. Müəyyən fəaliyyətlə məşğul olaraq onlar təşkilatlanırlar. Onlar intensiv sürətdə inkişaf edərək, hər hansı bir siyasi hərəkata çevrilirlər və sonralar hərəkatın ünsürləri birləşərək (seçilərək) siyasi partiya yaradırlar.

"Partiya" – nəyinsə hissəsi mənasını verir.

**Təşkilatların psixologiyası**

Son dövrlərdə siyasət heç də xaotik, təşkilatlanmamış qüvvələr arenası olmayıb, təşkilatlanmış fenomen kimi özünü göstərir. Hətta stixilayi hərəkatlar baş verəndə də siyasətçilər ondan istifadə edəndə təşkilatlanmanı unutmurlar.

Təşkilatlanma – organization, fransız dilindən tərcümədə nizam vermək, qurmaq deməkdir. Sosial mənada təşkilat müəyyən prosedur və qaydalara əməl edən hər hansı bir proqramı reallaşdıran insan birliyidir. Təşkilat, hər şeydən əvvəl, onun hissələrinin davranışı və bir-birinə münasibətlərini tənzimləyən dinamik sistemdir.

İstənilən təşkilatda 2 əsas xarakteristika özünü göstərir: Nizamlanma və istiqamətlənmə.

"Siyasi təşkilat" – sözün geniş mənasını ayrı-ayrı təşkilat üzvlərinin və qrupların hərəkətlərinin nizamlanması və tənzimlənməsini bildirir.

Müxtəlif siyasi təşkilatlar insanların qarşılıqlı münasibətlərinin müxtəlif səviyyələri və sahəsini əhatə edir. Siyasi təşkilatlar siyasi sistem tərəfindən fərdlərin hərəkətlərinin tənzimlənməsini təmin edir. Siyasi təşkilatlar sosiallaşma prosesində insanların siyasi sistemin norma və dəyərlərini mənimsəmək yolu ilə onların gələcəkdə siyasətdə iştirakların təmin edir.

Siyasi təşkilatlar nəzarət edərək, insanları lazimi istiqamətə yönəldir ki, onlar sosial-siyasi sistemin çərçivələrindən kənara çıxmasınlar. Konkret olaraq, siyasi təşkilat – bir qrup nisbətən avtonom insanların müəyyən sənədlərdə (manifest, proqram) əksini tapan siyasi məqsədləri reallaşdırmağa yönələn birgə fəaliyyətidir. Siyasi təşkilatın 4 əsas əlaməti vardır:

1) Münasibətlərin yüksək dərəcədə formal olması
2) Rolların və funksiyaların dəqiq bölgüsü

3) Lider və tabe olanların münasibətlərində subordinasiya
4) Sosial aparatın mövcudluğu("Ştat, personal, idarəedən, müəyyən hazırlıq keçmiş personal)

**Siyasi fəaliyyətin təşkilatlanması**

İnsanların müəyyən qruplarda təşkilatlanması mürəkkəb prosesdir. Belə ki, təşkilatda təkcə əmək bölgüsü deyil, həm də funksiya və məsuliyyətin çoxşaxəli iyerarxiyası mövcuddur. Kiçik birliklərdən fərqli olaraq, siyasi təşkilatlar mürəkkəb sistem olub, bir sıra şöbələri (alt sistemləri) – elementar təşkilatları əhatə edir. Belə siyasi təşkilatlkar siyasi partiyaların əsasını təşkil edir. Siyasi təşkilatların əhəmiyyəti və rolu siyasi fəaliyyətin səmərəliliyini artırmaqdır.

**Təşkilatlanmanın bürokratik konsepsiyası**

XX əsrin əvvəllərində Maks Veber siyasi təşkilatlanmanın «bürokratik-iyerarxik» konsepsiyasını yaratdı. Onun fikrincə təşkilat bürokratik hakimliyin əsasıdır. Təşkilat deyəndə, iyerarxiya nəzərdə tutulur. Təşkilat bürokratik hakimliyin dayağıdır. Deməli, təşkilat üzvlərarası funksiya və məsuliyyətin ciddi şəkildə iyerarxiyası olan insanların xüsusi qrupudur. Veberin fikrincə, təşkilat lokal "ictimai müqaviləyə" söykənir. Təşkilatın əsasında ilkin olaraq birgə iş prosesinə qatılan insanların könüllü razılaşması əsasında funksiyaların bölünməsi dayanır. Birgə iş prosesinə qoşulan insanların ümummi maraqları mövcud olur.

İdeal təşkilatlarda təşkilatın məqsədi onun hər bir üzvünün məqsədi ilə üst-üstə düşsün. Təşkilatın əsasını onun üzvlərinin qarşılıqlı münasibətlərinin formal strukturu təşkil edir. Belə struktur əvvəlcədən mövcud olur və təşkilata gələn yeni insan hazır münasibət formaları ilə qarşılaşır. Hər bir formal təşkilat xüsusi adminstrativ (inzibati) aparata malikdir. Adminstrativ aparatın funksiyasına təşkilat üzvlərinin hərəkətlərinin koordinasiyası və bununla da təşkilatın qorunub saxlanması daxildir. Qeyd edək ki, burada əsas məsələ inkişaf etmək yox, qorunub saxlanmaqdır. Təşkilatın üzvləri şəxsiyyət kimi müəyyən sosial rolun daşıyıcısı kimi nəzərdə tutulur.

**Təşkilata müasir yanaşmalar:**

Müasir elmdə təşkilata 3 yanaşma aid edilir.

1) Rasional yanaşma
2) Təbii yanaşma
3) Sintetik (neorasional) yanaşma

1) Rasional model - təşkilat qarşıya qoyulmuş dəqiq məqsədləri yerinə yetirmək üçün alətdir.
2) Təbii model - təşkilat insan münasibətlərinin nizamlanması üsuludur.
3) Sintetik model – Əvvəlki ikisinin inteqrasiyasından yaranmışdır. Neorasional yanaşmanın tərəfdarları kimi K. Blau, M. Krozye, E. Qoudner, D. Març, V. Saymond və başqalarını göstərə bilərik.

Təşkilatların müasir tədqiqi struktur analizi, liderlik və qərar qəbul etmək mexanizmlərini, məqsədin optimallaşmasını və.s əhatə edir. Bu zaman kiçik qruplarda gedən proseslərə xüsusi diqqət verilir.

**Siyasi hərəkatların psixologiyası**

Siyasi hərəkatlar və onun institutlaşmış forması olan siyasi partiyalar kifayət qədər kütləvi sosial-psixoloji fenomenlərdir. İdarəolunmaz kütləvi proseslərdən fərqli olaraq onlar təşkil olunurlar. Yəni onların təbiəti qrup psixologiyası ilə müəyyənləşir. Hərəkat çoxlu sayda insan birlikləridir. Sosial hərəkatlar dedikdə biz ümumi məqsədi reallaşdırmaq niyyəti ilə yaranan insan birliklərini nəzərdə tuturuq. Yəni, hərəkat eyni psixoloji xüsusiyyət əsasında (ümumi məqsədi reallaşdırmaq) yaranan birlikdir. Y.Vyatr problemi siyasiləçdirərək yazırdı: Siyasi hərəkat dedikdə mən mövcud şərtləri dəyişmək və ya onları möhkəmləndirmək məqsədi ilə hökümətə təsir göstərmək istəyən ictimai qüvvələri nəzərdə tuturam.

Deməli, siyasi hərəkat ictimai hərəkatın xüsusi formasıdır. Siyasi hərəkatları başqa hərəkatlardan fərqləndirən əsas xüsusiyyət onların siyasi üsullardan istifadə etməsindədir. Yəni, siyasi hərəkat ya hakimiyyət uğrunda mübarizə aparır ya da hakimiyyətə təsir göstərmək istəyir.

**Hərəkatın əsas xarici səciyyələri**

1) Sosial baza – çoxsaylı ictimai qruplar.
2) Məqsədlər və onların həyata keçirildiyi sferalar.
3) Təşkilatnama dərəcəsi. Onlar spontan, təbii və süni yaradıla bilərlər.
4) İdeoloji istiqamətin mövcudluğu.

**Hərəkatların daxili səciyyəvi xüsusiyyətləri**

1) Təşkilatlanma
2) İdeologiya
3) Psixologiya

Təşkilatlanma təbii və spontan ola bilir: Bu zaman öz-özünə təşkilatlanma baş verə bilir. Bu daha çox stixiyalı olur və az idarə olunur. Süni şəkildə yaranan təşkilatlarda təşkilatlanma yüksək olur.

İdeologiya hər şeydən əvvəl öz dövrünün və cəmiyyətinin sosial psixologiyasını ifadə edir. Sosial-siyasi hərəkatların ideologiyası bir qayda olaraq dəqiq olmasa da konkretdir. Məs: partiya ideologiyaları bundan fərqlənir, çünki həmişə proqram nəzəri xarakter daşıyır.

**Hərəkatın sosial psixologiyası**

Xüsusi birliklərə daxil olan insanların psixikasındakı problemlərin empirik əksidir. Belə əksetdirmə emosional, parlaq xarakterli olur və onu yaradan problemin həlli prosesində insanlar bəzən öz iradələrindən asılı olmayaraq hərəkata qoşulurlar.

**Hərəkatların yaranma mənbələri**

1) Problem situasiyanın yaranması
2) Sosial nikbinlik
3) Şəxsi iştiraka hazırlıq

Problem situasiyanın yaranması birinci şərtdir. Problem situasiyanı güclü sosial ziddiyyət yarada bilər. Bu elə güclü bir səbəb olmalıdır ki, insanların psixologiyasında əks oluna bilsin və insanlar onun həllinin mümkünlüyünü hiss etsinlər.

Sosial nikbinlik elə bir haldır ki, insanlar elə hesab edirlər ki, məhz onlar problemi həll edə bilərlər.

Şəxsi iştiraka hazırlıq – insanlar problemi emosional yaşayırlar və özlərini hərəkatda iştirak etməyə hazır hiss edirlər. Burada liderdən çox şey asılıdır. O, İnsanları inandıra bilməlidir ki, "burada və indi".

**Hərəkatın siyasi-psixoloji funksiyaları**

1) İdraki funksiya
2) İnstrumental funksiya (İnsanlara təsiretmə üsullarına yiyələnirlər)
3) İdeoloji funksiya (İnsanların ideoloji baxışları dəyişir)

İdraki funksiya – Hərəkatda iştirak edən insan dünyanın sosial-psixoloji mənzərəsi haqqında daha çox biliklərə yiyələnir.

**Hərəkatda iştirakın motivləri**

1) Emosianal-affektiv motivlər (insanların hiss və əhval-ruhiyyələrindən qaynaqlanır)
2) Rasional-dəyərləndirici motivlər (hərəkatların təqdim etdiyi dəyər, ideya uğrunda)
3) Ənənəvi motivlər (atası, anası, dostları iştirak edir, o da iştirak edir)
4) Rasional niyyətli motivlər (şəxsi maraqları nəzərdə tutur)

**Hərəkatın inkişafının şərtləri və mərhələləri**

1) Cəmiyyətin həyatında hərəkatın rolu
2) Real və potensial baza
3) Məqsəd və ideallarn məcmusu
4) Əsas qüvvələrin tətbiq olunduğu sfera
5) Hərəkatın təşkilatlanma səviyyəsi

6) Onun sosial mahiyyəti
7) Hərəkatın tələb etdiyi sosial-siyasi dəyişikliklərin səviyyəsi

**Y.Vyatra görə hərəkatın öz inkişafında keçdiyi mərhələlər**

1) Hərəkatın yaranmasının zəmini
2) Səylər (cəhdlər, təşəbbüslər)
3) Təbliğat mərhələsi
4) Siyasi fəaliyyətin inkişaf mərhələsi
5) Siyasi hərəkatın (öləziməsi)

**İnqilabi hərəkatlar** – zor gücünə siyasi rejimləri dəyişmək istəyən hərəkatlara inqilabi hərəkatlar deyilir.

**İnqilabi hərəkatların inkişaf mərhələləri**

1) Sosial narahatlıq, narazılıq, qıcqırma dövrü;
2) Narahatlıq intellekt sahiblərini də əhatə edir və onlar yeni ideologiya formalaşdırırlar;
3) Məqsədli şəkildə partiya tipli təşkilatların yaranması;
4) İnqilabi əhval-ruhiyyənin partlayıçı və aktiv siyasi fəaliyyət (məs: siyasi çevriliş);
5) Hakimiyyət dövrü: Mülayim-kompromis hakimiyyət;
6) Hərəkat daxilində ekstremistlərin baş qaldırması.Mülayim-güzəştli hakimiyyətə qarşı çıxmaq;
7) Ekstremistlər tərəfindən hakimiyyətin ələ keçirilməsi. Adətən terror edirlər;
8) Kütləvi terrorun sönməsi, stabilləşmə.

**Evalyusion hərəkatların mərhələləri**

1) Narazılıq yaradan sosial narahatlıq
2) Təbliğatlar, diskussiyalar

3) Qeyri-formal qrupların yaranması
4) Qrupların birləşməsi, bəlkə də institutlaşması
5) Məqsədlərə nail olmaq mərhələsi
6) Yekunlaşma: məqsədə nail olarsa təşkilat bürokratikləşir

**Siyasi partiyalar**

Siyasi partiya – Xalqın bir hissəsinin maraqlarını reallaşdırmaq məqsədi ilə dövlət hakimiyyətinə sahib olmaq və ya dövlət hakimiyyətinin həyata keçirilməsində iştirak etmək istəyən təşkilatlanmış həmfikirlər qrupudur.

Maks Veber müasir siyasi partiyalar tarixini 3 mərhələyə bölür:

1) Aristokrat qruplaşmalar
2) Partiyalar siyasi klublar kimi
3) Müasir siyasi partiyalar

**Siyasi partiyaları ümumi tipologiyası (Vyatra görə)**

1) Sosial-siyasi bölgü (fəhlə, burjua, kəndli və.s)
2) Təşkilatlanma strukturunun xüsusiyyətinə görə:

─ Kadrlar partiyası ( dəqiq struktura malikdir)
─ Kütləvi partiyalar

3) Hakimiyyət sistemində yerinə görə:

─ Leqal və qeyri-leqal
─ Hakim və müxalifət

4) İdeologiyasına görə:

─ ideya-siyasi partiyalar (inqilabi, qeyri-inqilabi, reformator partiyalar və.s)
─ praqmatik partiyalar (yarım kütləvi, harizmatik rəhbər oartiyalar və.s)

**Siyasi partiyaların tipləri**

Sinfi əlamətə görə:

1) sinfi;
2) siniflərarası;

3) sinfəbənzər;

Təşkilatlanma strukturuna görə:

1) kadrlar
2) kütləvi:
3) yumşaq strukturlu
4) sərt strukturlu

Hakimiyyətdəki yerinə görə:

1) Leqal
2) Qeyri-leqal:
1) nüfuzlu
2) qeyri-nüfuzlu

İdeologiyasına görə:

1) Harizmatik
2) Praqmatik
3) İdeyalı:
1) inqilabi
2) reformist
3) konservativ
4) reaksion

Partiya→Siyasi hərəkat→İctimai hərəkat

## Əlavə məlumat

## Psixoloq siyasətdə

*Mif imicin cövhəridir!*

Siyasətdə psixoloqun rolu get-gedə artmaqdadır. Ona görə ki, siyasət getdikcə daha çox virtuallaşır (olur). Liderlərin qiyməti heç də onların uğurlarına, əldə etdiyi nailiyyətlərə görə yox, seçicilərdə yaratdıqları təəssüratlara görə görə verilir. Yəni imicə görə verilir.

İmic real tərcümeyi-haldan daha əhəmiyyətlidir, belə ki, bu zaman real faktlar öz yerini "kompromat" a yer qoymayan faktlara verir. İnformasiya kvazireallığı (......) gerçəkliyi nəinki dəyişir, hətta onu əvəz edir. Varlıq şüuru təyin etmir, əksinə şüur varlığı müəyyənləşdirir. Şüurlarla manipulyasiya həyatın normalarına çevrilir və yaxşı və ya pis olmasından asılı olmayaraq bu, real faktdır. Əgər əvvəllər şüurun gerçəkliyi əks etdirdiyini düşünürdüksə, indi əminliklə deyə bilərik ki, şüur həm də gerçəkliyi yaradır.

Bazar qanunları öz şərtlərini diktə edir: malı istehsal etmək azdır, onu satmaq daha vacib məsələdir. Bəzən hətta istehsal olunmamış məhsulun pulunu əvvəlcədən alaraq satmağı bacarmaq lazımdır. Buna adi danışıqda "havanı satmaq" deyilir. Beləliklə, görünür ki, əslində malın özü yox, duyğular, hislər, təəssüratlar satılır. Məhz buna görə reklam olunmuş brendlər maldan, bağlamanın üz qabığı içindəkindən daha bahalıdır.

Bütün bunlar siyasətdə daha qabarıq özünü göstərir. Siyasətdə liderin hərəkətləri aktyorların hərəkətlərinə bənzəyir. Əgər əvvəllər fikir, məna üstün

tutulurdusa, müşahidələr göstərir ki, indi əsas forma, fikri təqdimetmə bacarığı, maneralar əsas rol oynayır. Bunun məntiqi belədir ki, insanlar real siyasətçilərə yox, uğurlu imiclərə, məhz psixoloqların yaratdıqları və formalaşdırdıqları imicə səs verirlər.

Əslində bu, ticarət psixologiyası, alqı-satqı psixologiyasıdır: İnsanlar psixoloqların bu və ya başqa namizəd üçün yaratdıqları, necə deyərlər, reklam boxçasını alırlar. Deməli, siyasətin hamısı olmasa da , heç olmasa bir hissəsi insanların şüurlar ilə oyunudur, yəni virtual fəaliyyətdir.

Məhz buna görə siyasətçinin komandasında və ya yaxın ətrafında köməkçi və ya məsləhətçi rolunda professional psixoloqlar getdikcə çoxalırlar. Çünki psixoloqlar insanların şüuruna və demək ki, davranışına təsir edə bilən insanlardır.

Psixoloqların rolu siyasətin ayrılmaz hissəsi olan dörd əsas sahədə əvəzedilməzdir:

1. Siyasi məsləhətvermədə;
2. Siyasi reklamda;
3. Imicin yaradılmasında;
4. PR –də (Public relation).

Siyasi məsləhətçi adi köməkçi deyil, belə ki, o biri köməkçilərin konkret vəzifələri vardır və onlar siyasətçiyə tabe olurlar. Siyasi məsləhətçinin isə liderlə münasibəti etibar və nüfuz əsasında qurulur və o, liderin bərabərtərəfli portnoyoru kimi çıxış edir. Lakin siyasi məsləhətçi (psixoloq) siyasətin bərabər tərəfi, müstəqil elementi kimi çıxış etsə də həmişə publikadan gizlin, gölgədə qalır.

Psixoloq siyasətçi ilə elə münasibət qurmalıdır ki, ona həddindən artıq təzyiq göstərməsin və eyni zamanda onun quluna çevrilməsin. Ən yaxşı hal siyasətçi könüllü olaraq psixoloqun "tabeliyinə" keçəndə olur. Hər bir siyasətçi əmindir ki, psixoloqun etdiklərini o özü də bilir, "sadəcə buna vaxtı çoxdur."

Siyasi reklam siyasi məqsədlərlə insanların şüurunu və davranışını dəyişməyə yönəlmiş siyasi kommunikasiya sistemidir. Siyasi reklam - bu anlayış o vaxt işlədilməsə də - Yunanıstanda şifahi formada həyata keçirilirdi. Insanların və ya siyasətçilərin zənginliyi, əsl-nəcabəti, natiqlik qabiliyyəti, ağlı raklam olunurdu. Qədim Romada bu artıq yazılı formada edilirdi. Daha sonra reklam ticarətə yönəldi və nəhayət, XX əsrdə yenidən siyasətə qayıtdı.

Siyasi reklamın strukturu:

1. Siyasi reklamın subyekti (namizədlər, partiyalar, siyasi hərəkatlar və s.);
2. Siyasi reklamın obyekti (seçicilər);

3. Siyasi reklamın predmeti (siyasi platformalar, seçkiqabağı proqramlar, liderin şəxsiyyəti);
4. Siyasi reklamın məqsədi (seçki yolu ilə hakimiyyətə gəlmək, ictimai rəy formalaşdırmaq);
5. Siyasi reklamın vasitələri (KİV-də məqalələr, TV-də verilişlər, birbaşa müraciət, kütləvi aksiyalar, reklam klipləri, vərəqələr, plakatlar və s.);
6. Birbaşa və ya əks əlaqələr (ictimai rəy sorğusu, kütləvi əhval-ruhiyyənin öyrənilməsi və s.).

PR (ing. Ictimaiyyətlə münasibət) - anlayışını ilk dəfə 1807-ci ildə ABŞ-nın 3-cü prezidenti T.Ceferson işlətmişdir. 1903-cü ildə ilk dəfə PR idarəsi yaradılmışdır. 1948-ci ildə Böyük Britaniyada PR institutu təsis edilmişdir.

PR insanların inandıqları, etibar etdikləri ictimai strukturlar vasitəsi ilə birinci növbədə, KİV vasitəsilə insanların şüur və davranışı ilə psixoloji manipulyasiya etmək vasitəsidir. PR-in effektli olması kommunikativ auditdən (yoxlamadan) başlanır. Üç səviyyədə təhlil aparılmalıdır: 1) təşkilatın daxilindəki cərəyanlar; 2) təşkilatdan kənardakı cərəyanlar; 3) təşkilatın adı çəkilən cərəyanlar. Audit 3 suala cavab verməlidir: Kim? (Kim bizi müsbət qavrayır?); Nə? (Yəni bizim tərəfdaşlarımızı nə cəlb edir?); Necə? (Yəni lazımi informasiya necə verilməlidir?).

.......................

İmic – reallığı əks etdirən psixi obraz olmayıb, modelləşdirilmiş, uydurulmuş psixoloji obrazdır.

İmic – yüksək intellekt (əla təhsil), böyük daxili potensial (iradə, məqsədyönlülük, qərar qəbul edə bilmək və s.), yüksək mənəvi keyfiyyətlərin (doğru-düzgünlük, sözünün üstündə durmaq və s.) olması təəssüratını yaratmaqdır.

Və yaxud imic xarizm, münasibət (ölkəyə, xalqına , insanlara), davranış və fəaliyyəti əhatə edən təsəvvürlərin formalaşdırılmasıdır.